Xalqın qəzeti!

# Xalq qəzeti

№ 267 (30383) 7 dekabr 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## Regionda sülh üçün tarixi imkan yaranıb

Səhifə ⇨ 7

# Naxçıvana yol legitim hüququmuzdur




Səhifə ⇨ 2

## Azərbaycanın sülh prinsipiallığı – Prezidentin qətiyyət manifesti

*İlham Əliyevin Ermənistanla münasibətlər baxımından irəli sürdüyü məqamlara baxış*

**Azərbaycan Prezidenti İlham Əliyevin ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilmiş “Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və Çətinliklər” Forumundakı çıxışı və forum iştirakçılarının çoxsaylı suallarına cavabları müstəvisində Azərbaycan-Ermənistan münasibətlərinin hazırkı durumu, Cənubi Qafqazda sülh gündəliyi və perspektiv vəziyyətlə bağlı bir sıra cəhətlərin diqqətə çatdırılmasına ehtiyac var. Qeydlərimiz də elə bu barədədir.**



### Selektiv yanaşma, ikili standartlar və sülhün Azərbaycan qarantı

Əvvəla, dövlətimizin başçısı bildirir ki, ölkəmiz Qarabağın azadlığına BMT-nin Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq özünümüdafiə hüququndan istifadə etməklə qovuşub. Bu məqamın vurğulanması çox vacibdir. Çünki Ermənistan və havadarları beynəlxalq platformalarda elə rəy formalaşdırırlar ki, guya, Azərbaycanın Qarabağa sahiblənməsi, o cümlədən ölkəmizin bölgədə bu il sentyabrın 19-da keçirdiyi lokal xarakterli uğurlu antiterror tədbirləri işğalçılıqdır. Mövcud səbəbdən də Prezident vurğulayır ki, tərəfdaş hesab etdiyimiz bəzi ölkələrlə müəyyən anlaşılmazlıq yaşayırıq: “Biz öz mövqeyimizi onlara çatdırırıq və bütün ölkələrə qarşı beynəlxalq hüququn şamil olunmasının vacibliyini qeyd edirik. Bu, selektiv olmamalıdır. Azərbaycan bütün məsələləri BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq özünümüdafiə hüququndan istifadə etməklə həll edib. Bu, Azərbaycanın suveren hüququ idi ki, öz ərazisinə tam şəkildə nəzarəti həyata keçirsin”.

Bəli, dövlətimizin başçısının haqqında söz açdığı selektiv yanaşma dünyadakı ikili standartlar siyasətinin nəticəsidir. Bu siyasət özünü həm də Azərbaycan-Ermənistan sülh prosesinə münasibətdə göstərməkdədir. Mövcud xüsusda da cənab İlham Əliyevin vurğuladıqları son dərəcə önəmlidir. Amma hesab edirik ki, Prezidentin forumda dilə gətirdiyi bir ifadə Cənubi Qafqazda sülh və əmin-amanlığa gedən yolun Ermənistan seqmentini əhəmiyyətsizləşdirir. Yəni, İrəvan istəsə də, istəməsə də, sülh olacaq və bunun təminatı Azərbaycandır: “Əvvəla, biz regiona sülhü artıq gətirmişik. Biz onu müharibə yolu ilə etmişik. Məncə, buna daha geniş diqqət yetirilməlidir. Bu, təkcə Qafqazla bağlı deyil. Sülhə hərbi yolla necə nail olmaq olar, biz bunu nümayiş etdirdik”.

Azərbaycan bütün beynəlxalq aktorların, ATƏT-in artıq canını tapşırmış Minsk qrupunun həmsədr ölkələrindəki təmsilçilərinin sülhün müharibə yolunun olmadığına dair fikir və mülahizələrinə rəğmən, öz torpaqlarını işğaldan azad etdi. Lakin görürük ki, həmin aktorlar uzun illər həyata keçirdikləri ermənipərəst xətti hazırda haqqında söz açdığımız sülh prosesinə nəzərən də gerçəkləşdirməyə cəhd göstərməkdədirlər. Buna görə ölkəmizin rəhbəri, kifayət qədər, açıq danışır: “Təəssüflər olsun ki, Avropada liderlər arasında cənab Borel, madam Metsola kimi populist insanlar var. Mən hər zaman açıq danışmağı xoşlayıram. Mən onların yürütdüyü siyasətlə və Azərbaycana olan münasibətləri ilə tamamilə razı deyiləm, narazıyam. Bu, ədalətsizdir və heç də Avropa İttifaqının maraqlarına uyğun deyil”.

Yeri gəlmişkən, Prezident İlham Əliyev forumdakı çıxışında ölkəmizin Avropa İttifaqına üzvlüyü hədəfləmədiyini dilə gətirib. Hesab edirik ki, bu da son dərəcə vacib məqamdır. Ona görə ki, Azərbaycanı quruma daxil etməzlər. Məsələyə belə aydınlıq gətirən dövlətimizin başçısının fikirləri həm də indiyədək Aİ-nin respublikamıza qarşı tutduğu mövqedən qaynaqlanır. Deməli, cənab İlham Əliyevin reallığı əsas götürməsi dərin rasional düşüncə məhsuludur. Hazırkı reallıq isə budur ki, Azərbaycanla Ermənistan arasında sülh vasitəçiliyini gerçəkləşdirmiş Aİ eynilə ATƏT-in Minsk qrupunun yolunu getməkdə, erməni avantürizmi üçün plasdarm formalaşdırmaqdadır. Daha doğrusu, belə bir “plasdarm” üçün dəstək verməkdə. Bu, özünü Aİ Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyinin Qranada sonluğunda daha qabarıq göstərməkdədir.

*(ardı 9-cu səhifədə)*

## Borrelin rəngli yuxuları, Pallonenin ağ yalanları



Səhifə ⇨ 11

## Paşinyanın uğursuz müttəfiq axtarışları



Səhifə ⇨ 10

## Xarici agentlərə nəzarət edən ABŞ bunun başqa ölkələrdə tətbiqinə mane olur

Səhifə ⇨ 10

## Ölkəmizin dünyanın “yaşıl gələcəyi”nə davamlı töhfələri



Səhifə ⇨ 12

## Gizlin çapxanalar, “pirat” naşirlər

Səhifə ⇨ 14

# Naxçıvana yol legitim hüququmuzdur

## Prezident İlham Əliyev “Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər” Forumunda iştirak edib

**Dekabrın 6-da ADA Universitetində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə “Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər” Forumu keçirilib.**



Forumu aą n **ADA Universitetinin rektoru Hafiz Paşayev** dedi**:** Zati-aliləri Prezident İlham Əliyev, ADA Universitetinin təşkil etdiyi forumun hörmətli iştirakçıları.

Cənab Prezident, bu gün Sizi və bütün iştirakçıları bu tarixi dövrdə universitetimizdə salamlamaqdan böyük şərəf və məmnunluq duyuram. Biz qürur hissi ilə deyə bilərik ki, Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Bu mühüm nailiyyət Sizin uzaqgörən liderliyiniz sayəsində mümkün olmuşdur. Prezident İlham Əliyevin uzunmüddətli səyləri ilə bütün Azərbaycan cəmiyyəti vahid amal naminə səfərbər oldu. Bu qətiyyətli Qələbə Qarabağın 30 illik işğalına son qoydu. Cənab Prezident, icazə verin Sizi bu misilsiz nailiyyət münasibətilə təbrik edim və Sizə Qarabağın bərpası və yenidən qurulması işində uğurlar diləyim.

Qarşımızda nəhəng vəzifə var. İnfrastruktur layihələri ilə yanaşı əsas vəzifə azərbaycanlı məcburi köçkünlərin rahat qayıdışı və məskunlaşmasıdır. Bir milyona yaxın azərbaycanlı işğalın qurbanı olub, onların evləri talan edilib və dağıdılıb. Hökumətin tapşırığı əsasında son 3 il ərzində ADA Universitetinin tədqiqatçıları məcburi köçkün ailələri ilə görüşərək onların ehtiyacları və prioritetlərini daha yaxşı anlamaq üçün müxtəlif sorğular aparmışdır. Onların əksəriyyəti doğma şəhər və kəndlərinə qayıdışla bağlı böyük istək ifadə etmişdir.

Dünən forum iştirakçıları azad olunmuş Zəngilan rayonunun ağıllı və ekoloji cəhətdən təmiz Ağalı kəndindəki inkişafın şahidi olmuşlar.

Məşhur beyin və tədqiqat mərkəzlərini təmsil edən 60-dan artıq xarici qonağın iştirak etdiyi bu forum qayıdış prosesinin sosial, iqtisadi, təhlükəsizlik və infrastruktur aspektlərini və Azərbaycanda beynəlxalq təcrübənin tətbiqini müzakirə etməyə imkan verəcək.

Cənab Prezident, forum iştirakçıları ilə görüşməyə razılıq verdiyinizə və məcburi köçkünlərin qayıdışı ilə bağlı müzakirədə iştirak etdiyinizə görə Sizə təşəkkür edirəm. Bu mövzuda Sizin baxışınız bizim regionumuz və daha geniş coğrafiya ilə məşğul olan bütün təhlilçilər və tədqiqatçılar üçün çox faydalı olacaqdır. Zati-aliləri söz Sizindir.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Xanımlar və cənablar sabahınız xeyir. Əvvəlcə rektor Hafiz Paşayevə dəvətə görə təşəkkür edirəm. İlk dəfə deyil ki, mən ADA Universitetinin forumunda iştirak edirəm. Əslində, mən hər birində iştirak etmişəm. Sonuncu dəfə biz bu ilin may ayında bir qrup beynəlxalq mütəxəssis ilə Şuşada görüşdük və şadam ki, bu dəfə siz Azərbaycanın daha bir azad edilmiş bölgəsi olan Zəngilana səfər etdiniz, bərpa və məskunlaşma işlərinin şahidi oldunuz. Mən bu cür toplantıları faydalı hesab edirəm, çünki bu təmas vaxtı biz bir sıra vacib məsələləri müzakirə edirik. Mən də beynəlxalq ekspert dairələrində regionumuzda cərəyan edən son proseslərlə bağlı hansı sualların olduğunu daha da yaxşı anlayıram.

Regionda vəziyyət dəyişir və böyük dərəcədə dəyişikliklərin təşəbbüskarı Azərbaycandır. Bu təbiidir, çünki biz Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin üzərində suverenliyini tam bərpa etməli idik. Biz bunu sülh yolu ilə etmək istəyirdik, eyni şəkildə biz təqribən 30 il ərzində Ermənistan ilə münaqişəni dinc yolla həll etmək istəyirdik. Lakin, təəssüflər olsun ki, bu mümkün olmadı. Bunun bir çox səbəbi var idi və biz onları ötən görüşlərimizdə ətraflı şəkildə müzakirə etmişik.

May ayındakı sonuncu görüşümüzdən bu yana, - tam bu heyətlə deyil, ancaq Şuşada olan iştirakçıların əksəriyyəti bu gün buradadır, – bizim hələ də ümidlərimiz var idi ki, Ermənistanın rəhbərliyini özünün beynəlxalq öhdəliklərini əməl etməyə inandırmaq mümkün olacaq. Xüsusilə də 2020-ci il noyabrın 10-u erkən saatlarda mənim, Rusiya Prezidentinin və Ermənistanın baş nazirinin imzaladığı Bəyanatla bağlı. Biz ümid edirdik ki, onlar öz imzalarına hörmət edəcək və uzun müddət davam edən qarşıdurmaya son qoymaq üçün vacib addımlar atacaqlar. Başqa sözlə desək, onlar öz qoşunlarını Qarabağdan çıxarmalı idilər. Onlar müxtəlif səbəblərdən bunu etmədilər.

Biz iki il yarım bundan əvvəl suverenliyimizi bərpa edərkən gözlədiyimizin şahidi olduq – Qarabağda Ermənistana məxsus böyük sayda hərbçilər var idi və onlar orada beynəlxalq hüquqa məhəl qoymadan yerləşdirilmişdilər. Onların sayı 15 minə yaxın idi. Üç il ərzində biz səbirli davrandıq, ümid edirdik ki, nəhayət bu vəziyyətin həll yolu tapılacaq. Biz dərk edirdik ki, vəziyyət anormaldır və İkinci Qarabağ müharibəsi bitəndən sonrakı dövrdə bizim təklifimiz çox aydın idi – Qarabağda yaşayan insanların iki seçimi var. Biri Azərbaycan vətəndaşları olmaqdır və biz bunun üçün hüquqi və təhlükəsizlik çərçivəsi yaradırıq. Yaxud yaşayış üçün başqa yer tapsınlar. Başqa seçim yoxdur. Digər seçim isə özlərinin hesab etmədikləri ölkədə yaşayış və işləmək üçün icazənin alınmasıdır.

Bu seçimlər verilmişdi və təəssüflər olsun ki, bizim müraciətlərimiz və bəyanatlarımız lazımi şəkildə dəyərləndirilmədi.

May ayında Şuşadakı görüşümüzdən sonra may ayının sonunda Laçına qayıtmış keçmiş məcburi köçkünlərlə görüşdə mən vəziyyətlə bağlı mövqeyimi ifadə etdim və bildirdim ki, bu məsələnin normal həlli yolunu tapmaq üçün imkan var. Onu da dedim ki, separatçıların liderlərinin təslim olacağı təqdirdə onların amnistiyaya düşmək fürsəti olacaqdır. Bu, ictimai bəyanat idi. Təəssüflər olsun ki, bir daha mənim sözlərim lazımi şəkildə qiymətləndirilmədi. Hazırda separatçıların liderləri Azərbaycandadır. Onlar bura gəlmək istəyirdilər. Onlar bizi hədələyirdilər ki, buraya tank üzərində gələcəklər. Bu gün isə Azərbaycanın ədliyyəsinin hökmünü gözləyirlər.

Buna baxmayaraq biz ümid edirdik ki, Qarabağ ermənilərinin nümayəndələri ilə təmaslar qura biləcəyik. Lakin orada dırnaqarası hakimiyyəti inhisara götürmüş adamlar buna imkan vermədilər. Bundan əlavə, iki hadisə baş verdi ki, bu, bizim üçün sonuncu, qırmızı xəttin keçilməsi demək idi. Birincisi, Ermənistanın baş nazirinin dırnaqarası dağlıq qarabağ respublikasının dırnaqarası müstəqilliyi münasibətilə təbriki idi ki, bu, Ermənistanın baş nazirinin dedikləri və imzaladığı ilə tam ziddiyyət təşkil edirdi. Çünki keçən ilin oktyabrında Ermənistanın baş naziri Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımışdır və həmin ruhda olan çoxsaylı bəyanatlardan sonra separatçılara təbrik göndərmək tamamilə qəbuledilməz və ziddiyyətli idi.

İkinci və sonuncu qırmızı xətt isə həmin hadisədən bir həftə sonra dırnaqarası dağlıq qarabağ respublikasının dırnaqarası prezidentinin seçkiləri idi ki, bu da İkinci Qarabağ müharibəsindən sonra əldə olunmuş şifahi razılıqların tamamilə pozulması oldu. Razılıq ondan ibarət idi ki, həmin ərazidə hər hansı dəyişikliklər baş verməyəcək.

Beləliklə, bir gündən də az sürən antiterror əməliyyatı bizə imkan verdi ki, suverenliyimizi bərpa edək. Yeri gəlmişkən, əməliyyat elə tərzdə aparılmışdır ki, mülki infrastruktura zərər dəyməyib və dinc əhali arasında itkilər olmayıb. Əməliyyat başlayan anda bəyan etdik ki, Ermənistan ordusu silahları yerə qoyan kimi biz dayanacağıq və onlara oraları tərk etməyə icazə verəcəyik. Əməliyyat 24 saatdan az sürdü və onlar təslim olduqlarını bəyan edəndən sonra bütün fəaliyyətlər dayandırıldı.

Beləliklə, bu, bizim may ayında sonuncu görüşümüzdən sonra baş vermiş ən mühüm hadisələr idi. İndi isə biz bir neçə beynəlxalq çağırışla üz-üzəyik. Təəssüflər olsun ki, biz tərəfdaş hesab etdiyimiz bəzi ölkələr tərəfindən anlaşılmazlıq görürük və biz mövqeyimizi izah etməyə çalışırıq. Həm də izah edirik ki, beynəlxalq hüququn normaları hər kəs üçün mütləqdir və selektiv yanaşmaya yol vermək olmaz. Azərbaycan etdiyini BMT Nizamnaməsinin özünümüdafiə ilə bağlı 51-ci maddəsinə uyğun olaraq edib. Bu, beynəlxalq hüquqa əsasən olunub və istənilən ölkə kimi Azərbaycanın da suveren hüququ var ki, ərazisinə tam nəzarət etsin.

Siz dünən Zəngilanda olmusunuz. Bilirəm ki, mənim azad olunmuş ərazilərdəki nümayəndələrim yenidənqurma və bərpa işləri ilə bağlı sizə məlumat veriblər və bununla bağlı təfərrüata varmağa ehtiyac görmürəm. Əlbəttə, bununla bağlı suallarınız olarsa cavab verməyə hazıram. Ancaq bununla vaxtınızı almaq istəmirəm. Çünki son 3 ildə görülən işlərdən danışsam, vaxtımız başa çatar. Mən çıxışımı burada dayandırım və müzakirəmizi davam edək.

**Prezidentin köməkçisi Hikmət Hacıyev:** Cənab Prezident, icazənizlə tədbirimizin sual-cavab hissəsinə keçək. İştirakçılardan xahiş edirəm özlərini təqdim etsinlər, hansı təşkilatı və ölkəni təmsil etdiklərini bildirsinlər. Birinci sual səfir Metyu Brayzadandır.

**Səfir Metyu Brayza**: Cənab Prezident, mənim adım Metyu Brayzadır və mən Ceymstaun Fondunu təmsil edirəm. Bilirəm ki, yenidənqurma işləri haqqında danışmayacağıq. Lakin deməliyəm ki, mən dərin təəssürat altındayam. Strateji planlaşdırma, nəhəng icra və əlaqələndirmə prosesi, minatəmizləmə, infrastrukturun bərpası və artıq insanların geri qaytarılması - bütün bunlar haqqında az öncə rektorla da danışırdıq. Bizim yaşadığımız dövrdə dünyanın heç bir yerində darmadağın edilmiş geniş bir ərazinin yenidən qurulduğu ikinci belə məkan yoxdur. Bu, görünməmiş haldır və biz bunun şahidi oluruq, buna görə də Sizə təşəkkür edirik. Mənim həm sualım, həm də şərhim olacaq.

Mən uzun müddət bu münaqişə ilə məşğul idim və hər zaman Azərbaycanın, şəxsən Sizin mövqeyiniz ondan ibarət idi ki, əlbəttə, Siz istəyirdiniz Azərbaycanın suverenliyi və ərazi bütövlüyü bərpa olunsun, azərbaycanlı məcburi köçkünlər qayıtsın. Ancaq bununla yanaşı, Siz istəyirdiniz ki, erməni əhalisi də qayıtsın, qalsın və yenidən azərbaycanlılarla qonşu olsunlar. Müharibə zamanı da Siz bir neçə müsahibədə bunu qeyd etdiniz. Baş nazir Paşinyan bunu dərk edirmi və özünün seçicilərini buna inandırmağa çalışırmı? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Birincisi şahidi olduğunuz yenidənqurma işləri və planlarımızla bağlı xoş sözlərə görə təşəkkür edirəm. Biz əlimizdən gələni edirik ki, keçmiş məcburi köçkünlər üçün ən yaxşı şərait yaradılsın. Onlar buna layiqdirlər, çünki onlar 30 il ərzində çətin şəraitdə yaşayıblar. Burada söhbət təkcə fiziki durumdan getmir. Söhbət 30 il ərazində doğma evlərindən məhrum edilmiş insanların psixoloji vəziyyətindən gedir. Onlar geri qayıtmaq vaxtını gözləyirdilər və bu gün biz əraziləri azad etdiyimiz üçün əlimizdən gələn hər şeyi edirik ki, prosesi sürətləndirək. Biz təhlükəni də yaxşı anlayırıq. Siz minaları qeyd etdiniz, bu, ən böyük təhlükələrdən biridir. Eyni zamanda, biz hər şeyi lazımi qaydada etmək istəyirik. Proses mümkün qədər tez keçməlidir, lakin fikrimiz ondan ibarətdir ki, burada ən yaxşı memarlıq təcrübəsi və ən yaxşı texnologiya, o cümlədən yaşıl texnologiya tətbiq edilməlidir ki, yaşayış üçün ən yaxşı şərait yaradılsın.

Beləliklə, azad olunmuş ərazilər şəhərlərin inşası baxımından yeni yanaşma nümayiş etdirəcək. Hesab edirəm ki, bu təcrübə bir çox ölkələr və şəhərlər üçün faydalı olacaqdır, o şəhərlər ki, müəyyən dərəcədə bizimlə eyni vəziyyətdədir.

Əsas məsələ keçmiş məcburi köçkünlər üçün yaxşı şərait və iş yerləri yaratmaqdır. Yeri gəlmişkən onu da deyim ki, iş yerlərinin yaradılması da vacib sahələrdəndir və biz qayıdış prosesini planlaşdırarkən diqqətimizi buna yönəldirik. Beləliklə, geri qayıdan insanların əksəriyyəti artıq işlə təmin edilib və bu bir daha onu nümayiş etdirir ki, bizim yanaşmamız hərtərəflidir.

Sualınıza gəldikdə deyə bilərəm ki, İkinci Qarabağ müharibəsinin bitməsindən sonrakı 3 il ərzində mən ictimai şəkildə bəyan edirdim ki, biz Qarabağda yaşayan erməniləri öz vətəndaşımız hesab edirik. Biz düşünürük ki, onlar separatçıların liderləri tərəfindən manipulyasiya edilirlər. Biz onlara həmin ərazidə qalmaq və yaşamağa davam etmək üçün şərtlərimizi təklif etdik. Dediyim kimi, bu, tamamilə beynəlxalq hüquqa uyğun idi. Onların edəcəkləri yeganə iş Azərbaycan vətəndaşlığı üçün müraciət etmək idi. Onların hüquqları və təhlükəsizliyi məsələləri də nəzərə alınmışdı. Biz dəfələrlə demişdik ki, onların təhlükəsizliyi Azərbaycanın Konstitusiyasına uyğun və beynəlxalq təşkilatlar qarşısındakı öhdəliklərimizə əsasən təmin ediləcək. Hüquqlara gəldikdə, biz ictimai şəkildə bəyan etmişdik ki, onların hüquqları da məhz bu şəkildə təmin ediləcək. Proses uzun çəkdi və dərk etdik ki, bizim və Qarabağda yaşayan ermənilər arasında bir növ sədd var. Bilmirəm, bu sədd Ermənistan hökuməti və ya separatçılar tərəfindən yaradılıb. Daha sonra qərara gəldik ki, danışmağa başlamaq lazımdır və mən parlamentin üzvü olan bir nəfəri Prezidentin xüsusi nümayəndəsi təyin etdim və onun vəzifəsi Qarabağ erməniləri ilə danışmaqdan ibarət idi. Biz hətta ilk görüşün Rusiya sülhməramlılarının o zaman hələ də işğal altında olan Xocalıdakı bazasında keçirilməsinə razılıq verdik. Bu görüş baş tutdu. Həmin ilk görüşdə biz onlara təklif etdik ki, qalsınlar və inteqrasiya etsinlər. Mənim dəfələrlə istifadə etdiyim reinteqrasiya sözü istehza ilə qarşılandı, həm Ermənistan hakimiyyəti, həm də separatçılar tərəfindən. Həmin separatçılar ki, bu gün təcridxanada verdikt gözləyirlər. Biz təklif etdik ki, ikinci görüş Yevlax şəhərində keçirilsin, o, Qarabağa yaxın, maşınla bir saatlıq məsafədə yerləşir və bu görüşlər müntəzəm olsun. Təəssüflər olsun ki, Qarabağ erməniləri, yəni özlərini lider hesab edənlər bundan imtina etdilər. Bir neçə dəfə, ən azı iki dəfə biz ictimai şəkildə bəyan etdik ki, onları dəvət edirik, lakin onlar bundan imtina etdilər.

Beləliklə, heç bir təmas yox idi. Onlar heç bizimlə danışmaq istəmirdilər. Daha sonra biz digər kanallardan istifadə etmək qərarına gəldik. Biz bunu bəyan etdik və reinteqrasiya ilə bağlı təklifimizi açıqladıq. Bu məlumat dərc edilib, siz onu tapa bilərsiniz. Hər kəs onunla tanış ola bilər. Biz reinteqrasiyaya dair elektron portal yaratdıq ki, orada Azərbaycan vətəndaşlığını almaq istəyən hər kəs qeydiyyatdan keçə bilər. Onlara təklif etdiyimiz bütün hüquqlarla bağlı əlavə məsləhətləşmələr də aparılacaqdı. Onlara təklif etdiklərimizin hamısı tamamilə qəbuledilən idi və ən yaxşı təcrübəyə əsaslanırdı – milli azlıqlarla bağlı Avropa Konvensiyası, dil ilə bağlı Avropa Konvensiyası, ana dilində təhsil, dini hüquqlar, mədəni hüquqlar, bələdiyyə hüquqları. Onlara bələdiyyə seçkiləri vasitəsilə nümayəndələrini seçmək təklif edildi. Biz onlara mesaj verdik ki, 2024-cü ildə bələdiyyə seçkiləri keçiriləcək və onlar iştirak edə bilərlər. Onlar öz nümayəndələrini seçə bilərlər ki, öz bələdiyyələrinin rəhbərləri olsun.

Bundan başqa biz nə təmin etməli, nə təklif etməli idik? Bu, maksimum idi və hər şey tam şəffaf idi. Bu təklif vasitəçi olmaq istəyən ölkələrin paytaxtlarına göndərildi. Yəni Avropa İttifaqı, Brüssel və Vaşinqton. Biz bunu tam şəffaf şəkildə etdik. Onlar yox cavabı verdilər. Bilirsiniz onlar nə zaman görüşməyə razılıq verdilər? Yalnız sentyabrın 20-dən sonra. Sentyabrın 20-də biz suverenliyimizi bərpa etmək üçün artıq güc tətbiq etməli olandan sonra onların nümayəndələri Yevlaxa gəldilər. Onlar bir dəfə deyil, iki dəfə gəldilər. Sual yaranır ki, bəs niyə o vaxta qədər gəlmirdilər? Onlar əvvəl gəlmiş olsaydılar, antiterror əməliyyatına ehtiyac olmazdı. Yəni, bu tarixdir, yaxın tarix.

İndi isə vəziyyət necədir? Bu gün o təklif masa üzərindədir. Elektron portalımız fəaliyyət göstərir. Artıq bir neçə Qarabağ ermənisindən müraciət daxil olub. Onların bəziləri orada qalıb yaşamağa üstünlük verir. Biz Dövlət Miqrasiya Xidmətinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndələrini təyin etmişik ki, orada rahatlığını təmin edə bilməyənlərə yardım göstərsinlər. Çünki bu gün həmin ərazidə sosial agentlik tərəfindən müdafiəyə ehtiyac var – qida, istilik və yaşayış üçün digər şəraitlə təmin olunmaq lazımdır. Deyə bilərəm ki, qalanların sayı çox deyil. Lakin qalanların qeydinə qalınır. Qayıtmaq istəyənlər isə sizə artıq məlumat verdiyim mexanizmdən istifadə edə bilərlər.

**Hikmət Hacıyev**: Növbəti sual Qlen Hovarddandır.

**Ceymstaun Fondunun sabiq prezidenti Qlen Hovard**: Təşəkkür edirəm. Burada olmaq gözəl fürsətdir. Zəngilana səfər etmək və orada aparılan bərpa işləri ilə tanış olmaq imkanına görə də təşəkkür edirəm. Daimi nümayəndələrin hər biri ingiliscə səlis danışır və fikirlərini aydın, konkret və “PowerPoint” slaydları vasitəsilə təqdim edirlər. Yəni, beləliklə, mesaj aydın şəkildə ötürülür. Bu gün burada dostlar və həmkarlarla yenidən Azərbaycanda olmaq çox xoşdur. Mənim sualım belədir: Sizin Türk Dövlətləri Təşkilatı ilə bağlı baxışınız nədən ibarətdir? Çünki Prezident olaraq Siz noyabr ayında Astanada Türk Dövlətləri Təşkilatının Zirvə toplantısında iştirak etdiniz və orada çıxışınızda bildirdiniz ki, müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq genişləndirilməlidir. Siz hesab edirsinizmi ki, xarici qüvvələrə qarşı Türk Dövlətləri Təşkilatı bir təhlükəsizlik ittifaqına, dövlətlər blokuna, bir növ Türk dövlətlərinin NATO-suna çevrilə bilər? Türk Dövlətləri Təşkilatının gələcəyini necə görürsünüz?

**Prezident İlham Əliyev:** Mənim çıxışımdan sitat gətirdiyinizə görə sağ olun. Mən bunu hazırkı geosiyasi reallığı nəzərə alaraq demişəm. Mən bu tədbirlərdə çox iştirak etmişəm və əvvəlki çıxışlarıma nəzər salsanız görərsiniz ki, mən əsasən humanitar əməkdaşlıq məsələləri, mədəni irs, bizim tarixi və etnik köklərimiz haqqında danışırdım. Bu dəfə isə zənnimcə, məhz bu mövzuda müdafiə sahəsi haqqında danışmaq düzgün idi. Çünki dünyada yeni vəziyyəti proqnozlaşdırmaq olmur, Azərbaycan və hesab edirəm ki, digər ölkələr də Rusiya-Qərb geosiyasi qarşıdurmasının nə ilə nəticələnəcəyini bilmir. Bu səbəbdən regionumuzda, Qafqazda vəziyyəti, Mərkəzi Asiya ölkələrinin sərhədləri boyu, xüsusilə də Əfqanıstandakı vəziyyəti nəzərə aldıqda təhlükəsizlik mövuzusu başlıca prioritet olmalıdır. Münaqişə səbəbindən son 20-25 il ərzində bizim üçün bu, prioritet idi. Biz anlayırdıq ki, bu, sülh yolu ilə mümkün olmasa, bunu hərbi yolla həll edəcəyik.

Beləliklə, biz ordumuzu qurduq, digər çoxsaylı təhlükəsizlik infrastrukturu yaratdıq və hərbçilərimiz üçün çoxlu təlimlər təşkil etdik. Zaman göstərdi ki, bu, düzgün siyasət idi. Çünki bu olmasaydı, biz hələ də ermənilərlə bilinmir nədən danışmağa davam edəcəkdik.

Yəni, mənim mesajım ondan ibarət idi ki, gəlin diqqətimizi o sahəyə yönəldək. Bizim böyük potensialımız və geniş coğrafiyamız var. Nəhəng enerji ehtiyatlarımız var ki, bu gün milli təhlükəsizlik məsələsidir. Bu, əslində, mövcudluğun, müstəqil yaşayışın mənbəyidir. Bizim coğrafiyamız Avropadan Şərqi Asiyaya qədər uzanan ərazini əhatə edir.

**(ardı 3-cü səhifədə)**

# Naxçıvana yol legitim hüququmuzdur

## Prezident İlham Əliyev “Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər” Forumunda iştirak edib

**(əvvəli 2-ci səhifədə)**

Bizim istifadə edə biləcəyimiz müəyyən infrastruktur var və biz ondan istifadə edirik. Şərq-Qərb marşrutu boyu dostluq mühiti var, niyə səylərimizi səfərbər etməyək ki?

Hazırda biz NATO-ya bənzər təsisatın yaradılması haqqında danışmırıq. İlkin mərhələdə birgə təhlükəsizliyimizin hansı şəkildə təmin edilməsi ilə bağlı konsensus olmalıdır. Bunun üçün bütün ölkələrin razılığı olmalıdır. Mən, sadəcə, Azərbaycanın mövqeyini ifadə etdim. Sual versəniz ki, bununla bağlı hansı əlavə ideyalar var, deyə bilərəm, biz müdafiə və müdafiə sənayesi sahələrində daha sıx əməkdaşlıq etməliyik, birgə istehsal, birgə təlimlər keçirməliyik və sərhədlərimizin qorunması üçün birgə səylər göstərməliyik. Türk Dövlətləri Təşkilatı ölkələrinin milli təhlükəsizliyinin və sabitliyinin təmin edilməsi baxımından bunlara nail olmaq üçün yol xəritəsi hazırlanmalıdır. Zənnimcə, bu, praktiki baxımdan faydalı ola bilər və hər bir ölkə vahid amal naminə öz töhfəsini verə bilər. Əlbəttə, bu, hələ ki, ilkin mərhələdir. Mənim sonuncu Zirvə toplantısında dediklərim həmkarlarıma mesaj idi. Məsləhətləşmələr prosesində bəlli olacaq ki, biz bu işdə haraya qədər gedə bilərik. Mən haraya qədər gedə biləcəyimizlə bağlı Azərbaycanın mövqeyini ifadə etdim. Hesab edirəm, bu mövqe təkcə son illər bizim əldə etdiyimiz təcrübə deyil, həm də regionda və dünyada proqnozlaşdırıla bilinməyən vəziyyətdən irəli gəlir.

**Hikmət Hacıyev**: Denis Sammut. Buyurun Denis, xahiş edirəm, təmsil etdiyiniz təşkilatı və ölkəni də qeyd edin.

**Links Avropa Fondunun direktoru Denis Sammut (Niderland)**: Cənab Prezident, tarix sizi 2020-ci il Qarabağ müharibəsində qalib gəlmiş Lider kimi xatırlayacaq. Həmin Qələbə bir çox cəhətdən Sizin prezidentliyinizin dəst-xəttini müəyyənləşdirdi. Bununla belə, görəsən, Siz həm də ölkənizə və Cənubi Qafqaz regionuna sülh gətirən Lider kimi xatırlanmaq istərdinizmi? Siz bu istiqamətdə hansı addımları atırsınız? Sizin çıxışlarınızı çox diqqətlə oxumuşam. Siz dəfələrlə Ermənistanla sülh müqaviləsinin bağlanmasının vacibliyindən danışmısınız. Ancaq artıq bir neçə ildir ki, bu məqsədə çatmaq mümkün deyil. Hesab edirsinizmi ki, bu sülh müqaviləsinin imzalanmasının ləngiməsində risklər var? Maneə yaratmaq istəyənlər fürsətdən istifadə edərək Ermənistan və Azərbaycanın faktiki razılığa gəlməsinin qarşısını almağa çalışacaqlarmı? Sizcə, bu prosesin yekunlaşdırılması üçün prosesə təcililik əlavə edilməlidirmi?

**Prezident İlham Əliyev:** Müsahibələrin birində demişdim ki, əraziləri azad etmək mənim siyasi həyatımın əsas məqsədini təşkil edir və fəxr edirəm ki, bu məqsədlərə nail olunub. Necə xatırlanacağım bir çox amillərdən asılı olacaq. Düzünü desəm, bu barədə düşünməyə belə vaxtım yoxdur. Bu barədə düşünsəm də, buna təsir etmək mənim iradəmdən asılı deyil. Sülhlə bağlı onu deyə bilərəm ki, düşünürəm, biz sülh gətirmişik. Biz sülhü müharibə ilə gətirdik. Düşünürəm ki, bu, Qafqazda lokal vəziyyətdən daha geniş şəkildə qiymətləndirilməli olan bir məsələdir. Hərbi yolla sülhə necə nail olmaq olar? Uzun illər danışıqlar və işğal zamanı mən Minsk qrupunun həmsədrlərindən eşidirdim, onlardan üçü bir ağızdan qeyd edirdilər ki, münaqişənin hərbi yolla həlli yoxdur. Belə məlum oldu ki, onların hər üçü səhv edirdi.

Dövlətçilik tarixinə, geniş beynəlxalq təcrübəyə, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olmasına baxmayaraq, onlar yanılırdılar. Düşünürəm ki, ya, sadəcə, yanlış qiymətləndirdiklərinə görə yanılırdılar, ya da bu, Azərbaycana bir növ mesaj idi ki, siz sülh ssenarisindən başqa ssenariyə əl atsanız, uğur qazana bilməyəcəksiniz. Biz sübut etdik ki, münaqişənin hərbi yolla həlli var. Beləliklə, münaqişə həll olundu.

Əslində, münaqişə üç il əvvəl, biz işğal olunmuş ərazilərin böyük bir hissəsini azad edəndə həll olunmuşdu. Suverenliyimizin bərpası isə, sadəcə, zaman məsələsi idi. Aydın idi ki, həmin dövrdəki coğrafi şəraitdə Ermənistan tərəfindən belə tanınmayan qondarma “Dağlıq Qarabağ respublikası”nın qondarma müstəqil kvazi-dövlət kimi mövcud olmaq şansı yoxdur. İki şans var idi - ya Azərbaycanın qalan hissəsi ilə inteqrasiya etmək, ya da tarixə qovuşmaq. Deməli, mən bunu o zaman aydın şəkildə başa düşürdüm. Tələsməməyimizin səbəblərindən biri də o idi ki, mən aydın şəkildə başa düşürdüm, beş ildən sonra istədiyimizə nail olacağıq. Beləliklə, 2020-ci ilin noyabrında bizim tərəfimizdən antiterror tədbirləri planlaşdırılmırdı. Bunu çox açıq şəkildə deyə bilərəm. Beləliklə, müharibə sülhə təkan verən vasitə kimi - bunu mümkünlüyün bariz sübutu hesab edirəm.

Başqa bir məsələ isə formal sülhlə bağlıdır və hesab edirəm ki, siz bu sülh sazişini xüsusilə qeyd etdiniz. Məncə, həmçinin bu da beynəlxalq ekspertlər tərəfindən də təhlil edilməlidir ki, otuz ildir işğala, dağıntılara, etnik təmizləməyə, soyqırımına məruz qalan və ərazisinin tamamilə dağıdılmasından əziyyət çəkən bir ölkə torpaqlarını beynəlxalq vasitəçilər olmadan məhz özü azad etdikdən dərhal sonra özü sülh təklif edib. Ermənistana sülh təklif edən biz idik.




Xatırlayıram, müharibədən sonra o vaxt keçmiş Minsk qrupu gəlib-gedəndə hiss edirdim ki, onlar özləri nə edəcəklərini bilmirlər. Çünki onların fəaliyyətinə artıq ehtiyac yoxdur. Azərbaycan “Madrid prinsipləri” adlanan və nizamlanma üçün əsas hesab edilən əksər müddəaları həyata keçirib. Onlar, sadəcə, nə edəcəklərini bilmirdilər.

Məhz yenə də biz - Azərbaycan tərəfi bildirdik ki, sülh sazişi imzalamalıyıq. “Delimitasiya ilə bağlı komissiyalarımız olmalıdır” dedik. Ermənistan deyil, Brüssel deyil, Vaşinqton, Paris və ya Moskva deyil, bunu deyən biz idik. Proses məhz belə başladı. Sonra gördük ki, heç nə baş vermir. Beləliklə, biz sülh sazişinin prinsiplərini işləyib hazırlamaq qərarına gəldik. Onları işləyib Ermənistana göndərdik. Sonra yenə sükut oldu və biz bunu ictimailəşdirdik. Beləliklə, biz o məşhur beş prinsipi açıqladıq ki, Ermənistan indi onları qəbul etməyə daha hazır görünür. Əgər üç il əvvəl onları qəbul etsəydilər və ya əsasən qəbul etsəydilər, antiterror tədbirlərinə ehtiyac qalmayacaqdı.

Beləliklə, bu, keçmişdə qalıb. Amma bilməliyik ki, bu, Ermənistanın deyil, Azərbaycanın sülh tərəfdarı olduğunu nümayiş etdirir. Son ayların başqa bir nümunəsini də misal göstərmək olar. Beş-altı şərh mübadiləsi aparılıb – ilkin Azərbaycan layihəsinə şərhlər verilib. Ermənistanın şərhləri, Azərbaycanın şərhləri, fikir ayrılıqları, razılaşmalar. Xarici işlər nazirləri bir neçə dəfə müxtəlif yerlərdə görüşüblər. Son şərhimizi sentyabrın 11-də göndərmişik. Beləliklə, bu sülh sazişinin nə olduğu haqqında daha ətraflı məlumat vermək üçün deyim ki, bu, 20-dən az maddədən ibarət maksimum altı-yeddi səhifəlik bir sənəddir. Beləliklə, belə kiçik bir sənədə Ermənistana bizə cavab vermək üçün 70 gün vaxt lazım olub və onlar yalnız Azərbaycanın xarici işlər naziri bunu açıqlayandan sonra (“İki aydır gözləyirik, niyə cavab vermirsiniz?” deyəndən sonra) cavab verdilər.

Deməli, bu onu göstərir ki, bu prosesi gecikdirən tərəf Azərbaycan deyil, Ermənistandır. Niyə gecikdirdilər? Bunu bilmirəm. Bu, onların öz qərarı idi, yoxsa bəzi Avropa paytaxtlarında yeni dostları tərəfindən məsləhət görülüb? Bunu bilmirəm, yalnız ehtimal edə bilərəm. Amma fakt budur ki, sentyabrın 11-də göndərdiyimiz şərhlərə cavabı noyabrın 21-də aldıq. İndi Xarici İşlər Nazirliyimiz həmin şərhləri nəzərdən keçirir və biz onu geri göndərəcəyik. Düşünürəm ki, bundan sonra xarici işlər nazirlərinin görüşü məqsədəuyğun olacaq. Çünki indi görürük ki, biz hələ də konsensusa yaxın deyilik, amma Ermənistanın əvvəldən təkid etdiyi bir çox mühüm məsələlər artıq mövcud deyil. Onlar, ümumiyyətlə, mövcud deyil və şərhlərində də yoxdur. Təfərrüatlara çox varmaq istəmirəm, çünki bunun məxfi sənəd olduğunu başa düşürsünüz.

Düşünürəm ki, indi biz daha bir addım atırıq. Amma yenə də Azərbaycan təşəbbüskar ölkə olub, Azərbaycan faktiki olaraq öz iradəsini nümayiş etdirən ölkə olub və ümid edirəm ki, razılığa gəlmək çox vaxt aparmayacaq. Amma bircə müşahidə ondan ibarətdir ki, sülh sazişi, əslində, sülhü tam əks etdirmir. O sülhü pozan bir çox ölkə arasında sülh müqavilələri bağlanıb. Yaxud o vaxt Sovet İttifaqı, indiki Rusiya ilə Yaponiya arasında sülh sazişi yoxdur. Ancaq, eyni zamanda, Rusiya-Ukrayna müharibəsindən əvvəl bu ölkələr çox yaxın tərəfdaşlar və dostlar idi - çoxlu bizneslər, çoxlu investisiyalar, çoxlu qarşılıqlı əlaqələr mövcud idi.

Beləliklə, bu ölkələr üçün, istər Sovet İttifaqı, istərsə də Rusiya və Yaponiya olsun, formal sülh sazişi normal qarşılıqlı fəaliyyət üçün maneçilik törətməyib. Eyni tarixi nümunəni götürmüş kimi görünmək istəmirəm, ancaq bu da variantlardan biridir. Düşünürəm ki, sülh sazişindən danışarkən bunun yalnız formal tərəfini fikirləşməməliyik. Bizə, əslində, nə lazımdır, yəni, Azərbaycana nə lazımdır? Ermənistanda heç bir revanşizm cəhdlərinin olmayacağı ilə bağlı qəti şəkildə, təsdiqlənmiş zəmanət lazımdır. Bu, bizə niyə lazımdır? Çünki biz Ermənistanda nə baş verdiyini bilirik və həmçinin bilirik ki, Ermənistanın bəzi Avropa paytaxtlarında çox pis məsləhətçiləri var.

Həmin paytaxtın adını qeyd etmədən belə, məncə, hamı kimi nəzərdə tutduğumu anlayır. Beləliklə, bu, bir təkan rolunu oynaya bilər. Hələlik bunlar təxribatçı məsləhətlərdir, lakin onların dağıdıcı məsləhətlərə çevriləcəyini istisna etmirik. Deməli, iki ölkə arasında daha müharibə olmayacağına, Ermənistanın vəziyyətlə tam razılaşdığına və Azərbaycanın ərazi bütövlüyü ilə bağlı dediklərini həqiqətən nəzərdə tutduğuna dair zəmanətimiz olmalıdır. Onlar keçmiş “Dağlıq Qarabağ respublikası”nı unutmalı, sərhədin delimitasiyası məsələsində konstruktiv olmalıdırlar. Əsl sülh məhz budur.

İmzalanacaq sənəd şübhəsiz ki, əhəmiyyət kəsb edir, amma bizim üçün xüsusilə də 30 ildir ermənilərin torpaqlarımızın bir santimetrini belə azad etmək istəməməsindən sonra vacibdir. 2019-cu ildə Xankəndidə “Qarabağ Ermənistandır və nöqtə” deyəndə prezident olan əvvəlki Qarabağ klanının liderləri yox, Paşinyanın özü nə demək istəyirdi? Heç kim ona bu sualı vermirdi. Onun müdafiə naziri 2019-cu ildə də Azərbaycanı işğalla hədələyən “yeni ərazilər uğrunda yeni müharibə olacaq” deyəndə bu, Köçəryan-Sarkisyan qruplaşması deyildi. Bu, Paşinyan idi, o idi. İndi o, “Qarabağ Azərbaycandır” deyir. Ona görə deyir ki, çünki biz müharibədə qalib gəlmişik, ideologiyasını dəyişdiyi üçün yox. İdeologiya eynidir. Onlar hələ də bu ideologiya ilə yaşayırlar. Ermənistan iqtidarı ilə müxalifətin fərqi yalnız ondan ibarətdir ki, Ermənistan hökuməti aydın başa düşür ki, əgər onlar bizim ərazi bütövlüyümüzə qarşı çıxmağa davam etsələr, arxasında kimin durmasından asılı olmayaraq, biz onları yenidən əzəcəyik, onların arxasında kimin dayanmasından və ya o məşhur, gözəl Avropa paytaxtında kimin onlara nə deməsindən asılı olmayaraq. Müxalifət bunu istəyir, çünki Paşinyanı devirmək istəyirlər. Onlar bunun baş verməsini istəyirlər. Onlar istəyirlər ki, o, bu səhvi etsin, sonra hakimiyyətə gəlsinlər. Deməli, bizim gözümüzlə görə biləcəyimiz zəmanətlər lazımdır. Bu, Qafqazda sülh üçün ən yaxşı amil olacaq.

**Gürcüstanın Strateji və Beynəlxalq Araşdırmalar Fondunun prezidenti Ekaterine Metreveli**: Cənab Prezident, fikirlərinizi bizimlə bölüşdüyünüz üçün Sizə təşəkkür edirəm. Cənab Prezident, mən də dünənki səfəri qiymətləndirmək üçün öz sələflərimə qoşularaq qısaca bildirmək istəyirəm ki, səfər bizdə xoş təəssüratlar oyatdı. Məcburi köçkünlərin problemi başa düşdüyümüz kimi asan proses deyil və biz bu işdə, regionun gələcək inkişafı yolunda şəxsən Sizə və Azərbaycana uğurlar arzu edirik. Mənim sualım daha çox müzakirə etdiyimiz məsələdən fərqli bir istiqamətə aiddir. Çünki Azərbaycan bu gün Avropa İttifaqı üçün geoiqtisadi və geosiyasi cəhətdən əhəmiyyət kəsb edir, Aİ Azərbaycanın əsas ticarət tərəfdaşı, Azərbaycan isə onun mühüm enerji təchizatçısıdır. Bu istiqamətdə daha da irəliyə getmək üçün planlar var. Bu kontekstdə Gürcüstan həm də tərəfdaş kimi mühüm rol oynayır və dost tranzit ölkədir. Təbii ki, bizim dostluğumuz ancaq tranzitə əsaslanmır, bu kontekstdə müxtəlif aspektləri də əhatə edir. Bildiyiniz kimi, biz Aİ-nin bir hissəsi olmağa çalışırıq və ümid edirik ki, dekabrda müsbət cavab alacağıq. Sonra gələcək addımların atılmasına ümid edirik. Azərbaycan Aİ üçün, sadəcə, tərəfdaş olaraq qalır. Bəs siz Gürcüstanın Aİ-yə doğru daha çox yaxınlaşmasının Azərbaycanla Gürcüstan münasibətlərinə necə təsir edəcəyi və ümumilikdə Aİ-nin Cənubi Qafqazda artan rolu barədə nə düşünürsünüz?

**Prezident İlham Əliyev:** Qarabağda gördüyümüz işlərlə bağlı şərhləriniz üçün sizə minnətdaram. Bu gün bizimlə olduğunuz üçün sizə təşəkkür edirəm. Tamamilə haqlısınız ki, Gürcüstan və Azərbaycan yaxın tərəfdaşlardır. Əlbəttə ki, bizim tərəfdaşlığımız enerji sahəsində əməkdaşlıqdan daha da genişdir. Baxmayaraq ki, bu əməkdaşlıq bizə özümüzü Avropada strateji əhəmiyyət kəsb edən güclü komanda kimi təqdim etməyə imkan verdi. Mənim Gürcüstana müntəzəm səfərlərim və Gürcüstanın Baş nazirinin Azərbaycana müntəzəm səfərləri təkcə əməkdaşlığımızı nümayiş etdirmir, bu səfərlər zamanı çox mühüm məsələlər müzakirə olunur.

Gürcüstanın Aİ-yə üzv olmaq istəyi ilə bağlı onu deyə bilərəm ki, biz bunu başa düşürük və Gürcüstana uğurlar arzulayırıq. Gürcü dostlarımızı bu yeni hadisələr və əldə etdikləri status münasibətilə təbrik edirik. Başa düşürük ki, əlbəttə, bu, bir prosesdir. Bəzi ölkələrin uzun illər gözlədiyini bilirik. Mən Türkiyənin adını çəkmək istəmirəm. Çünki Türkiyənin uzun illər namizəd olmasına baxmayaraq, onu Avropadan uzaq tutmaq qətiyyən qəbuledilməz və ədalətsiz yanaşma idi. Həmçinin Balkan regionuna baxsanız görərsiniz ki, ölkələr hələ də gözləməli olurlar. Avropaya gedən yolda müzakirələrlə bağlı indiki vəziyyəti gördüyüm qədər genişlənmə ilə bağlı konsensus yoxdur, amma hər halda bu, mənim müşahidəmdir, hər bir halda uğurlar arzulayıram. Gürcüstan Aİ-yə üzv olduqda əminəm ki, bizim münasibətlərimizdə, eləcə də enerji əməkdaşlığı ilə bağlı heç nə dəyişməyəcək. Çünki siz bilirsiniz ki, Avropa bizim enerji ehtiyatlarımızın əsas istiqamətidir, istər neft, istərsə də qaz olsun. Avropa Enerji Komissiyası Azərbaycanı artıq ümumavropa qaz tədarükçüsü adlandırıb, bu doğrudur. Deməli, artıq bir çox ölkələr bizim qazımızı alır. Onların əksəriyyəti Avropa ölkələridir və digərləri da alacaq. Çünki biz indi nəinki danışıqlar prosesindəyik, həm də Avropa ölkələri arasında fiziki əlaqələr qurur və bəziləri ilə danışıqlar aparırıq, ona görə də heç nə dəyişməyəcək. Düşünürəm ki, Azərbaycanın xarici siyasət konsepsiyasında çox praqmatik səbəblərə görə Aİ-yə üzv olmaq hədəfi yoxdur, çünki bizi heç vaxt qəbul etməyəcəklər. Səbəb də çox aydındır və biz bunu başa düşürük.

Biz virtual deyil, real dünyada yaşayırıq. Əgər qəbul edilməyəcəksinizsə, niyə qapını döyməlisiniz? Əgər onlar sizi istəmirlərsə, siz yalnız ev sahibini qıcıqlandıracaqsınız və yalnız özünüzü alçaldacaqsınız.

Biz münasibətləri necə qurmağın yolunu tapmışıq. Bununla belə, deyərdim ki, cənab Borrelin son bəyanatı tamamilə faydasızdır. Onun Qarabağı tərk etmiş 150 min erməni ilə bağlı dünənki açıqlaması yalandır. Təəssüf edirəm ki, belə bir təcrübəli avropalı diplomat yalan danışır. Hətta ermənilərin özləri Qarabağı tərk edənlərin 150 min yox, 100 min olduğunu deyirdilər. Əgər cənab Borrel bir ay ərzində belə davam etsə, 200 min olacağını söyləyəcək. Bu, onun gördüyü yuxulardan asılı olacaq. Amma yenə də, nəinki rəqəmlərlə olan bu manipulyasiya, heç bizim etmədiyimiz bir şeylə bağlı Azərbaycana qarşı ittihamlar da qətiyyən yolverilməzdir. Xüsusən də qəribədir ki, onun ölkəsi bizim Xarici İşlər Nazirliyinin də artıq elan etdiyi kimi, separatizmdən əziyyət çəkib. Bəs o, separatçıları necə müdafiə edə bilər? Bu, çox qəribədir. Beləliklə, sualınıza daha geniş şəkildə yanaşaraq deyə bilərəm ki, birincisi, mən əminəmi, Gürcüstan Aİ-yə üzv olduqda bizim münasibətlərimizdə heç nə dəyişməyəcək. Əksinə, Aİ-də bizi müdafiə edəcək daha bir yaxın dostumuz olacaq. Ümid edirik ki, Avropa Parlamentinin gürcü deputatları avropalı parlamentarilərini Azərbaycanla bağlı maarifləndirəcək və onlar daha realist olacaqlar.

Niyə belə deyirəm? Çünki Avropa İttifaqı Şurasının Prezidenti cənab Şarl Mişellə telefon danışıqlarımın birində ona demişdim ki, Avropa Parlamentinin sədri xanım Metsola bizim antiterror tədbirlərindən sonra bəyan etmişdi ki, Azərbaycanla qaz sahəsində olan münasibətlərə və qaz müqavilələrinə xitam verilməlidir. Mən cənab Şarl Mişelə dedim ki, yəqin o, bu işlərin necə idarə olunduğunu bilmir. Çünki tərəflərdən biri müqaviləni ləğv edərsə, o, cərimə ödəməlidir. Birincisi, o, Avropa İttifaqının enerji siyasətinə cavabdeh olanlardan soruşmalıdır ki, Rusiyadan tədarükün kəsilməsinə görə keçən il Avropa İttifaqı Azərbaycandan Avropa üçün daha çox qazla kömək göstərməsini necə xahiş edib və biz buna necə cavab verdik? Təəssüf ki, belə insanlar var. Deyərdim ki, Avropada liderlər arasında cənab Borrel, xanım Metsola kimi populist insanlar var. Mən həmişə açıq danışmağa üstünlük verirəm, çünki onların yürütdüyü siyasətlə və Azərbaycana olan münasibəti ilə tamamilə razı deyiləm. Çünki bu, ədalətli deyil və bu, Avropa İttifaqının və Avropa institutlarının maraqlarına uyğun deyil. Ancaq ümumilikdə Avropa Komissiyası haqqında danışanda, bizim çox gözəl münasibətlərimiz var. Biz buna böyük əhəmiyyət veririk, onlar strateji əhəmiyyət daşıyır. Bu, təkcə enerji və neft-qaz sahəsini əhatə etmir. Tezliklə hidrogen sahəsində də əməkdaşlıq edəcəyik. Bilirsiniz ki, Gürcüstanı, Azərbaycanı, Rumıniyanı və Macarıstanı bağlayan bir layihə olacaq. Yəni, oyun qaydalarında böyük dəyişiklik olacaq və bu, artıq icra prosesindədir.

Tezliklə texniki-iqtisadi əsaslandırma ilə bağlı yekun hesabatımız olacaq və ümid edirik ki, tikintiyə başlayacağıq. Bu, nəqliyyatla, bağlılıqla əlaqəlidir. Cozef Borrel kimi insanlar üçün xəritəyə baxmaq və Azərbaycanın harada yerləşdiyini görmək kifayətdir. Əgər onlar Mərkəzi Asiyada fəal olmaq istəyirlərsə və biz görürük ki, onlar istəyirlər, biz hər iki istiqamətdə hərəkətləri görürük. Onlar Azərbaycandan necə yan keçə bilərlər? Orta Asiya ölkələri ilə İran vasitəsilə əlaqə quracaqlar, yoxsa Rusiya vasitəsilə? Yoxsa qanadları var? Ona görə də bu bəyanatları verməzdən əvvəl bu barədə düşünməlidirlər.

**Əzizə Umarova (Özbəkistan):** Zati-aliləri, burada olmaqdan dərin məmnunluq hissi duyuram. Çünki mən Özbəkistandanam və biz ölkələrimiz arasında çoxlu dövlət səfərlərini müşahidə edirik. Amma onu da qeyd etməliyəm ki, iki ölkənin liderləri arasında münasibətlərin dinamikası təqdirəlayiqdir. Onu da bildirməliyəm ki, Özbəkistan Azərbaycanın yenidənqurma səylərini dəstəkləyən ilk ölkələrdən biri olub. Xüsusilə də Füzulidə tikilən məktəb hökumətinizin göstərdiyi böyük səylərə kiçik bir töhfədir. Sualım Qarabağa geri qayıdış fonunda bağlılıq səyləri ilə əlaqəlidir və konkret olaraq aşağıdakılar haqqında fikrinizi soruşmaq istərdim. Beləliklə, biz çox yaxşı bilirik ki, Transxəzər dəhlizi Mərkəzi Asiya üçün imkanlar yaradacaq və o, Qara dənizin Aralıq dənizi ilə, daha sonra isə Avropaya qoşulmaq baxımından çox perspektivli olacaq. Eyni zamanda, Çin, Qırğızıstan və Özbəkistan arasında dəmir yolunun inkişafı üçün milli prioritetimiz var ki, bu Orta dəhlizlə birləşdirilsə, Cənubi Asiyanı Avropaya qədər birləşdirən bütün Mərkəzi Asiya ölkələri üçün faydalı olan bir layihə olar. Biz, həmçinin Qarabağın qayıdışı və Aİ-nin geosiyasi dinamikası fonunda imkanları çox yaxşı başa düşürük, lakin bəzi məhdudiyyətlər də var. Hansı çətinliklərlə üzləşəcəyimiz və bu layihələri həyata keçirmək üçün çətinliklərin öhdəsindən gəlmək istiqamətində birlikdə necə işləyə biləcəyimiz barədə fikrinizi bilmək istərdim. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Sadəcə olaraq, sizin dediklərinizə balaca düzəliş etmək istəyirəm – Özbəkistan ilk ölkələrdən biri deyil, bizə qardaşcasına yardım və dəstək təklif edən ilk ölkədir. Qardaşım Prezident Mirziyoyevlə birlikdə Füzulidə özbək xalqının dahi oğlu Mirzə Uluqbəyin adını daşıyan məktəbin açılışını etdik və bu, yenidənqurma işinə, həm də qardaşlıq münasibətlərimizə böyük töhfə oldu. Çünki təkcə Füzulidə yaşayanlar deyil, bütün Azərbaycan xalqı bunu heç vaxt unutmayacaqdır.

Elə bu yaxınlarda Prezident Mirziyoyev ilə Bakıda görüşmüşük və o da mənə söylədi ki, bu onun bu il ərzində Bakıya artıq 3-cü səfəridir. Mən ona xatırlatdım ki, keçən il mən də Özbəkistana üç dəfə səfər etmişəm. Dediyim odur ki, iki ölkə arasında bizim çox sıx şəxsi əlaqələrimiz mövcuddur, hələ mən nazirliklər səviyyəsində olan əlaqələri demirəm.

Biz nəqliyyat, enerji, investisiyalar, avtomobil sənayesi sahələrində çox geniş əməkdaşlıq gündəliyini hazırlamışıq. Bu, həqiqətən də hər iki tərəfin fəxr edə biləcəyi və gələcək üçün böyük potensiala malik tərəfdaşlıqdır. Beləliklə, biz qarşılıqlı investisiya layihələrimizin başlanğıcında artıq beş yüz milyon dollarlıq ilkin ehtiyatları olan birgə investisiya fondu yaratmışıq. Artıq heyətlərimiz hər iki ölkədə və üçüncü ölkələrdə birgə sərmayə qoyacağımız layihələri müəyyən edirlər.

Kommunikasiya əlaqələri baxımından sizi, həmçinin Qırğızıstan və Çini mühüm dəmir yolu layihəsinə start verilməsi münasibətilə təbrik edirəm. Bilirəm ki, bu, uzun illərdir müzakirə olunub və indi onun başlanması rəsmi olaraq elan edilib. Təbii ki, bu, Orta dəhlizə böyük töhfə və bizim üçün çox cəlbedici olacaq, çünki istiqamət Xəzərə doğrudur. Hətta indi heç dəmir yolu olmadan Özbəkistan şirkətləri üçün Transxəzər marşrutundan istifadə etmək imkanları var və bunu böyük həcmdə olmasa da edirlər. Amma düşünürəm ki, bu, zamanla artacaq və daha cəlbedici olacaqdır. Çünki indi biz nəqliyyat infrastrukturumuzun rəqəmsallaşdırılması ilə bağlı məsələlər üzərində fəal işləyərik, həmçinin tariflər üzrə vahid siyasətlə bağlı işlər aparırıq. Marşrut zaman baxımından şübhəsiz ki, daha cəlbedicidir, lakin açıq şəkildə görünən dəniz marşrutu ilə müqayisədə rəqabətli deyil.

**(ardı 4-cü səhifədə)**

# Naxçıvana yol legitim hüququmuzdur

## Prezident İlham Əliyev "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda iştirak edib

**(əvvəli 3-cü səhifədə)**

Bizim vəzifəmiz marşrutu kommersiya baxımından daha cəlbedici etməkdir. Bu məqsədlə, əlbəttə, tariflər, rəqəmsallaşdırma üzrə birgə siyasət həyata keçirilməlidir ki, yük göndərənlər öz yüklərinin hərəkətini izləyə bilsinlər. Bundan əlavə, infrastruktura fiziki investisiya yatırılmalıdır. Biz Bakıdan Gürcüstan sərhədinə qədər olan dəmir yolunun yenidən qurulmasını artıq tam başa çatdırmışıq. İndi qatarın sürəti saatda 120 kilometrdir və bu da bir neçə il əvvəl ilə müqayisədə (50-60 km/s) daha sürətlidir.

Eyni zamanda, hesab edirəm ki, bir-iki aya Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan seqmentinin genişləndirilməsi də başa çatacaq. Bu da 100 milyon ABŞ dollarından çox olan, 100 faiz Azərbaycan investisiyasıdır. Bu seqmentdə maksimum bir neçə ay ərzində yükdaşımalar bir milyon tondan 5 milyon tona qədər genişlənəcək.

Beləliklə, bu, yeni yüklərin qəbulu üçün yeni imkanlardır. Həm də bu yol işğaldan azad edilmiş ərazilərdən, xüsusən də Zəngilandan keçəcək - yəqin ki, artıq orada olan dəmir yolunu görmüsünüz. Bizim bu yolu Ermənistan ərazisindən davam etdirmək planımız var idi, lakin Ermənistan bundan imtina etdi. Beləliklə, biz İran tərəfi ilə razılaşdıq və biz artıq maşınlar üçün körpü, sonra qatarların Ermənistandan yan keçməsi üçün və Araz çayının cənub sahilində təxminən 50 kilometr dəmir yolu çəkilməsi üçün körpü inşa edirik. Bu yol Naxçıvandan keçir və sonradan Türkiyə dəmir yolu sisteminə qoşulur. Türkiyə tərəfi bizə Qars-Naxçıvan dəmir yolunun da tikintisinin planlaşdırıldığını bildirdi. Beləliklə, bu, Orta Dəhlizin daha bir qolu olacaqdır - biri Gürcüstandan keçərək Qarsa və Aralıq dənizi limanlarına, digəri isə Zəngilan, İran, Naxçıvan və yenidən Türkiyə ərazisindən keçəcək. Bu, fiziki imkanları artırır, lakin, eyni zamanda, biz bu yolu kommersiya baxımından daha cəlbedici etməliyik. Bunun üçün biz artıq Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkiyə arasında çox səmərəli əməkdaşlıq formatı yaratmışıq.

Hesab edirəm ki, Mərkəzi Asiya ölkələrinin, xüsusən də Özbəkistanın bu formata qoşulmağa marağının olması həqiqətən də bizim üçün daha yaxşı ola bilər. Bu, əslində, Avrasiyanın böyük potensiala sahib olan bir yeni nəqliyyat xəritəsidir.

Qarabağın yenidən qurulmasına gəldikdə, təbii ki, əsas maneə zaman və minalardır. Bizim rəqibimiz zamandır, çünki biz bu işləri ən qısa müddətdə həyata keçirmək niyyətindəyik. Bundan əlavə, Qarabağın yenidən qurulması üçün maliyyə vəsaiti toplamışıq və bu, investisiya proqramımızın əsas hissəsini təşkil edəcək. Müqayisə üçün deyim ki, Qarabağın yenidən qurulmasına daha çox vəsait xərcləyəcəyik, - mən dövlət investisiyalarını nəzərdə tuturam, - ölkənin qalan hissəsinə nisbətən daha çox.

Bu, ölkənin qalan hissəsini diqqətdən kənar qoyduğumuz anlamına gəlmir. Uzun illər ərzində biz ölkənin qalan hissəsinə artıq milyardlarla manat investisiya yatırmış və əksər infrastruktur layihələrini başa çatdırmışıq. Lakin hazırda Qarabağ bizim əsas prioritetimizdir. Bölgənin özü və ən əhəmiyyətlisi, evlərinə dönməyi gözləyən insanlardır.

**Beynəlxalq əlaqələr üzrə professor, İspaniya parlamentinin və AŞPA-nın sabiq üzvü Çorduşu Pla:** Hörmətli cənab Prezident, burada olmaq mənim üçün böyük şərəfdir. Azad edilmiş ərazilərə səfər bizim üçün çox həyəcanlı idi. Avropa Şurası nəzdində fəaliyyət göstərən Qarabağ münaqişəsi komitəsinin sədri olduğum vaxtlarda Azərbaycan və Ermənistan parlamentlərinin üzvləri arasında görüşlər təşkil etmək mənim vəzifəm idi. Bu görüşlər çox səsli-küylü keçirdi və nə vaxtsa bu işğalın beynəlxalq hüququn normaları və ərazi bütövlüyü çərçivəsində, habelə cəmiyyətin müxtəlifliyi baxımından sona çatmasını xəyal etmək belə çox müşkül məsələ idi. Odur ki, bu işğala son qoymağınız həqiqətən də tarixi bir məqamdır. Sualım isə Azərbaycan ilə Avropa arasında yeni qarşılıqlı əlaqələr barədədir. Güman edirəm ki, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Avropa Komissiyasının sədri Ursula fon der Lyayen Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərə realistik və sağlam düşüncə tərzi ilə yanaşırlar. "Şərq tərəfdaşlığı" kimi uyğunlaşdırılması mürəkkəb olan formatı kənara qoyaraq Avropa tərəfdaşlığına əsaslanaraq etibarlı tərəfdaş tapıblar – təkcə energetika sahəsində deyil, həm də geosiyasi vəziyyətə uyğun iqtisadi layihələr baxımından. Digər tərəfdən, Avropa Parlamenti və AŞPA-nın müxtəlif qurumları beynəlxalq əlaqələrdə sıfır səviyyəsində olan səriştəsi ilə çox asanlıqla digər siyasi səviyyədə olan bəyanatlar verir. Sanki Avropa Şurası və Avropa Komissiyası real yanaşmadan irəli gələrək bir səviyyədə fəaliyyət göstərir, digərləri isə başqa səviyyədə. Buna rəğmən, Azərbaycan ilə Avropa arasında yeni əməkdaşlıq çərçivəsinin balansı müsbət ola bilər. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Sizin təhlilinizlə tamamilə razıyam. Sizin dedikləriniz bizim üçün əhəmiyyətlidir, çünki siz bu məsələyə içəridən baxırsınız, siz bu işin içərisindəsiniz və bu, mənim təsəvvürümlə üst-üstə düşür. Qeyd etdiyiniz kimi, Avropa İttifaqı Şurası və Avropa Komissiyası ilə müsbət kontaktlar var. Avropa İttifaqı Şurasının Prezidenti və Avropa Komissiyasının sədri, hər ikisi Azərbaycana səfər etmişdilər və biz aramızdakı əlaqələrə dair geniş müzakirələr aparmışıq. Bu, yalnız energetika sektoruna aid deyil, baxmayaraq ki, bu, əsas mövzu idi. Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır. Bizim xarici ticarətimizin təqribən 50 faizi Avropa İttifaqının payına düşür. Azərbaycan və Avropa İttifaqının doqquz üzvü arasında strateji tərəfdaşlığa dair bəyanatlar imzalanıb və ya qəbul edilib ki, bu da Avropa İttifaqının üçdəbiri deməkdir. Bu onu nümayiş etdirir ki, milli səviyyədə və təsisatlar səviyyəsində bizim əlaqələrimiz çox yaxşıdır. Strateji tərəfdaş olmaq çox şey deməkdir, bu, əməkdaşlıq üçün böyük məsuliyyətdir.

Şarl Mişelin Azərbaycan ilə Ermənistan arasında olan münaqişənin uzunmüddətli həllini tapmaq səylərinə gəldikdə, şəxsən mən və Azərbaycan Şarl Mişelin səylərini hər zaman dəstəkləmişik. Onun tərəfindən Brüsseldə bir neçə görüş təşkil edilib. Biz indi mümkün yeni görüşü müzakirə edirik. Mənim köməkçim Hikmət Hacıyev Şarl Mişelin komandası ilə daimi əlaqədədir. Artıq 5-dən çox görüş keçirmişik. Növbəti görüşümüz isə nəticəyönümlü olmalıdır. Biz əvvəlcədən bəyanat layihəsini razılaşdırmalıyıq. Bu, Azərbaycan, Ermənistan və Avropa İttifaqı arasında razılaşdırılmalıdır. Bu görüş yaxşı hazırlanmalı və nəticəyönümlü olmalıdır. Çünki nəticəyönümlü olmasa, həm xalqlarımıza, həm də beynəlxalq aləmə yanlış mesaj vermiş olarıq. Bu, bizim mövqeyimizdir və hesab edirəm ki, bu, Brüsseldə anlayışla qəbul olunur.

Həmçinin Avropa Komissiyası ilə biz müxtəlif sahələrdə işləyirik. Biri genişlənmə komissiyasıdır, burada çox fəal əməkdaşlığımız var, digəri isə enerji komissiyasıdır. Avropa Enerji Komissiyasının və Azərbaycanın energetika nazirinin sədrliyi ilə Cənub Qaz Dəhlizi üzrə mütəmadi olaraq Məşvərət Şurasının iclasları təşkil edilir. Növbəti görüş 2-3 aydan sonra yenidən Bakıda olacaq. Enerji qıtlığını nəzərə alaraq Avropa Komissiyasından Avropaya qaz tədarükünün artırılması ilə bağlı bizə xahiş daxil oldu. Biz mövcud qaz yataqlarının hasilatını artırmaq üçün böyük məbləğdə - demək olar ki, yüz milyonlarla, hətta milyardlarla avro vəsait ayırdıq. Həmçinin Avropaya daha çox qaz tədarük etməyimizə kömək edəcək amillərdən biri də enerji səmərəliliyi və bərpaolunan mənbələrdir. Nə qədər çox bərpaolunan enerji mənbələrimiz varsa, elektrik enerjisi istehsalı üçün istifadə etdiyimiz qaza bir o qədər qənaət edirik. Tezliklə Serbiya və Bolqarıstan arasında yeni mühüm bir interkonnektor olacaq və o, artıq hazırdır. Serbiya tezliklə Azərbaycan qazını qəbul edə biləcək, Macarıstan artıq Azərbaycan qazını qəbul edir, o cümlədən Rumıniya. Tərəfimizdən Albaniyada maliyyələşdirilən qazlaşdırma layihəsi başa çatdıqda, bu ölkə də Azərbaycan qazını alacaq. Avropa İttifaqının üzvü olan ölkələr – İtaliya, Bolqarıstan, Yunanıstan artıq bir neçə ildir ki, Azərbaycan qazını alır.

Bunlar hamısı çox müsbət amillərdir. Biz bağlılıq, ticarət və sərmayələr haqqında danışıqlar aparırıq. Lakin mən də sizinlə razıyam, Avropa Parlamentində bir qrup məsuliyyətsiz insan var ki, onların özlərini manyak kimi aparırlar. Onların anti-Azərbaycan hissləri və bəyanatları insanın normal psixoloji durumundan kənardır. Maksimum diplomatik lüğətdən istifadə etmək istəyirəm. Bəs biz nə edə bilərik? Onlar Azərbaycana qarşı olan 10-dan artıq qətnamə qəbul ediblər ki, onların da bizim üçün heç bir əhəmiyyəti yoxdur – biri az, biri çox – nə etməli? Biz bunu təəssüf hissi ilə qarşılayırıq. Anti-Azərbaycan orkestrinin təşkilatçıları digər insanların düşüncələrinə təsir göstərirlər, onların beyinlərini "yumağa" çalışırlar. Digər insanlar da Azərbaycanı onların təsvir etdiyi kimi qəbul edirlər. Anti-Azərbaycan fəallarından bəziləri xoşbəxtlikdən artıq yoxdur, anti-Azərbaycan cəbhəsinin fəalı olan xanım Eva Kayli kimi. Onun başına gələnləri bilirik. Bu, mediada geniş işıqlandırılmışdır. Düşünürəm ki, bu, həm də onu göstərir ki, Avropa Parlamenti kimisə hər hansı yanlışlıqda ittiham etməzdən əvvəl korrupsiya ilə bağlı öz problemlərini həll etməlidir.

Əlbəttə ki, burada söhbət yalnız Azərbaycan dövlətindən getmir, biz, həmçinin Azərbaycan xalqını düşünməliyik. Onlar Qafqazdakı vəziyyəti yanlış şərh edəndə, işğala, dağıntılara, soyqırımına məruz qalmış ölkəni, suverenliyimizi, ərazi bütövlüyümüzü bərpa etməkdə günahlandıranda 10 milyonluq Azərbaycan xalqının əleyhinə danışırlar. Onlar bunu başa düşməlidirlər. Əgər məni hədəf seçirlərsə və mənim haqqımda təhqiramiz ifadələr işlədirlərsə, bu, mənim üçün heç bir şey deyil. Amma İkinci Qarabağ müharibəsində, antiterror tədbirlərində arxamda duran və indi də arxamda olan Azərbaycan xalqı üçün bir siqnaldır ki, bu, Azərbaycana düşmən kimi baxan bir qrup insanlardır. Bu, təəssüf doğurur. Onların çıxardıqları səs-küy heç də xoş deyil, zərərli də deyil, yaşamaq olar. Amma heç də xoş deyil.

Yeri gəlmişkən, biz artıq uzun illərdir ki, Avropa Parlamenti ilə hər hansı rəsmi əlaqəni dayandırmışıq və bunu rəsmən bəyan etmişik. Hazırda qarşılıqlı əlaqəmiz yoxdur. Lakin Avropa Komissiyası ilə vəziyyət tamamilə fərqlidir, sizin də qeyd etdiyiniz kimi, müsbət istiqamətdə irəliləyir, təəssüf ki, qeyd etdiyim kiçik epizodlar xaric olmaqla, yeri gəlmişkən, sizin həmvətəninizlə əlaqədar olan epizod.

**Almaniya Beynəlxalq Əlaqələr və Təhlükəsizlik İnstitutundan Darya İşçenko**: Yaratdığınız fürsət üçün təşəkkür edirəm. Mənim sualım Ermənistanla Azərbaycan arasında sülh danışıqları üçün Qərb platformaları ilə bağlı hazırkı mövqeyinizə dairdir. Hazırda hansı mövqedəsiniz? Çünki Bakı son vaxtlar Qranada, Brüssel və Vaşinqton danışıqlarında iştirak etməməyi seçib. Beləliklə, gələcək potensialı necə görürsünüz? Siz artıq Avropa İttifaqının roluna toxunmusunuz və mən Sizdən xahiş etmək istərdim ki, onun enerji və kommunikasiyalara olan marağını nəzərə alaraq bu mövzuya xüsusi diqqət yetirəsiniz. Bakının ilkin olaraq başladığı və bu yaxınlarda canlandırdığı "3+2" platformasının gələcək potensialını necə qiymətləndirirsiniz? Regional tərəfdaşlarla regional problemlərin həlli üçün bu regional platformanın gələcəyini necə görürsünüz? Çox sağ olun.

**Prezident İlham Əliyev**: Təşəkkür edirəm. Mən artıq bir az Aİ vasitəçiliyindən danışdım, bu, əsasən Avropa İttifaqı Şurasının Sədrinin vasitəçiliyi idi. Keçən il "Avropa Siyasi Birliyi"nin Praqada keçirilən Zirvə toplantısı çərçivəsində Prezident Mişel, baş nazir Paşinyan və mənim aramda keçiriləcək görüşə Fransa Prezidentinin dəvət edilməsi təklif olunanda etiraz etmədim. O vaxt düşündüm ki, faydalı ola bilər. Oktyabrın 6-da keçirilən bu görüşdə baş nazir rəsmi surətdə Qarabağı Azərbaycan ərazisi olaraq tanıdı. Düzdür, sonradan o, digər bəyanatlar verdi, həmçinin qeyd etdiyim bəyanat - bu ilin sentyabr ayında "Dağlıq Qarabağ respublikası"na təbrikin göndərilməsi. Amma yenə də mən Praqa görüşünün nəticəsini müsbət kimi qəbul etdim. Biz bu formatda davam etməyə hazır idik.

Təəssüflər olsun ki, bir həftə sonra Fransa Prezidenti televiziyaya verdiyi müsahibələrindən birində Azərbaycanın ünvanına və bizim gördüyümüz işlər barəsində müəmmalı və qəbuledilməz sözlərdən, ifadələrdən istifadə etdi. Biz nə etmişik ki? Beləliklə, özünü prosesdən ayırdı. Bizim mövqeyimiz tam aydındır - əgər siz neytrallığınızı itirirsinizsə, artıq vasitəçi ola bilməzsiniz, bu şansı əldən buraxırsınız. Biz ölkələrə tərəf tutmamaq üçün təsir edə bilmərik. Bunun müxtəlif səbəbləri var. Bu halda artıq vasitəçi olmaq şansı əldən buraxıldı. Biz rəsmən bəyan etdik, artıq münasib hesab etmirik ki, Fransanın hər hansı bir nümayəndəsi Ermənistanla Azərbaycan arasında normallaşma prosesində iştirak etsin. Buna görə, bu məxsusi səbəbə görə mən Qranadaya getmədim.

Lakin Qranadadan əvvəl Kişineu var idi. Kişineuda Almaniya Kansleri Olaf Şolts da iştirak edirdi. Mən xatırlayıram, o dedi ki, "bizə ehtiyacınız olarsa, müraciət edin". Əslində, bu, çox müdrik yanaşmadır. Kimsə istəmədiyi halda sən özünü necə vasitəçi olmağa məcbur etdirə bilərsən?

Qranada görüşü oktyabrın 5-nə təyin edilmişdi və əvvəlki məsələyə qayıdıram, elə həmin gün Avropa Parlamenti Azərbaycanla bağlı müzakirələr təşkil etdi. Ona görə də qəsdən bu anti-Azərbaycan qətnaməni mənim Qranadada olmalı olduğum gün qəbul etməyi planlaşdırdılar ki, Azərbaycanla bağlı öz mövqelərini nümayiş etdirə bilsinlər. Getməməyimin bir səbəbi də bu idi. Birinci səbəb Fransa, üçüncü səbəb isə bu görüşün lazımi qaydada təşkil edilməməsi. Bu görüş antiterror tədbirlərindən iki həftə sonra baş tutmalı idi. Yerdə vəziyyətin tamamilə dəyişdiyi andan iki həftə sonra. Bu səbəbdən görüşə hazırlıq aparılmalı idi. Hansı sənədləri qəbul etməyi planlaşdırırdıq? Hansı bəyanatlar veriləcək? Bəyanatlar necə razılaşdırılmalı idi? Buna dair heç bir məlumat yox idi. Mən bu səbəbdən iştirak etmədim. Lakin təəccüblüsü o idi ki, mən olmadan bu görüş keçirildi. Bir rus deyimi var – "Без меня, меня женили" – "qız evində toydur, oğlan evinin xəbəri yoxdur". Beləliklə, mən olmadan onların dördü Azərbaycan və Ermənistan ilə əlaqədar necə qətnamə qəbul edə bilirlər ki, hələ də anlamıram.

Hazırki vəziyyət belədir - Avropa İttifaqı Şurası tərəfindən təşkil olunan vasitəçilik prosesi var. Bundan əlavə, "Moskva istiqaməti" adlandırdığımız xarici işlər nazirləri arasında müzakirələr mövcuddur. ABŞ Konqresində məşhur dinləmələr baş tutana qədər "Vaşinqton istiqaməti" adlanan proses var idi ki, xarici işlər nazirləri Vaşinqtonda görüşürdülər. Belə görünür ki, Vaşinqton istiqaməti artıq aktual deyil. Çünki bu gün Bakıda olan Dövlət Departamentinin rəsmi nümayəndəsi Azərbaycanla "işlər əvvəlki kimi ola bilməz" deyir və Azərbaycanı görmədiyi işlərdə ittiham edir. Belə ki, "əvvəlki kimi işlər" yoxdursa, deməli, hər sahədə "əvvəlki kimi işlər" yoxdur. Eyni zamanda, Azərbaycanın yüksək vəzifəli rəsmilərinin ABŞ-a səfərlərinə məhdudiyyətin qoyulduğu elan edildi. Bu, ABŞ-la strateji əhəmiyyətə malik olan münasibətlərimizin tarixində ilk dəfə baş verdi. Bu administrasiya bu münasibətləri məhv etməyə çalışır, hansı səbəbdən bilmirəm.

Biz dedik, yaxşı, əgər Azərbaycandan ABŞ-a yüksək vəzifəli rəsmilərin səfərləri olmayacaqsa, o zaman xarici işlər nazirimiz oraya necə gedə bilər? Siz deyirsiniz ki, səfərlər olmayacaq, amma xarici işlər nazirimizi dəvət edirsiniz. Bunu izah edə bilərsiniz?

Beləliklə, dedik ki, əgər Azərbaycandan ABŞ-a yüksək səviyyəli rəsmi səfərlər olmayacaqsa, bizim xarici işlər nazirimiz oraya necə gedə bilər? Siz dediniz - səfər yoxdur, ancaq xarici işlər nazirimizi dəvət etmisiniz?

Bizə izah edə bilərsinizmi? Təfərrüatlara çox varmaq istəmirəm. Beləliklə, əgər həmişəki kimi, heç bir iş yoxdursa, bunu qəbul edirik. Bu o deməkdir ki, Vaşinqton aktual deyil. Ya deməlidirlər ki, iş həmişəki kimi davam edir, - mən ümid edirəm ki, bu gün bunu eşidəcəyəm və biz Vaşinqton prosesini bərpa edəcəyik, - ya da yalnız Brüssel və Moskva prosesi olacaq. Ola bilər ki, ikitərəfli danışıqlar olsun. Çünki məsələn, mən sizə deyə bilərəm ki, aprelin 30-da bizim şərti sərhədimizdə həmsədrlər delimitasiya komissiyalarını toplayıb delimitasiya məsələlərini müzakirə ediblər. Deməli, Azərbaycanla Ermənistan arasında heç bir vasitəçilik olmadan ikitərəfli format ola bilər. Vasitəçilik hər iki tərəfin izah edə bilmədiyi bəzi ideyaların vasitəçi tərəfindən işlənib hazırlanması baxımından faydalı ola bilər. Beləliklə, vasitəçilik prosesi başa çatsa, bu, ikitərəfli formatda olacaq. Yəni, bu, danışıqlar prosesinə aiddir. Bundan başqa, qeyd etdiyim kimi, Avropa İttifaqı ilə münasibətlərimiz yaxşı balanslaşdırılmışdır, əsasən müsbətdir. Biz yeni əməkdaşlıq sənədi üzərində fəal işləyirik. O, hazırda gözləmə rejimindədir, lakin ümid edirəm ki, tezliklə yekunlaşdırmaq üzrə birgə fəaliyyətimizə yenidən başlaya bilərik. Çünki həmin yeni əməkdaşlıq üzrə sənədin 90 faizindən çoxu artıq razılaşdırılıb.

**Hikmət Hacıyev:** Sağ olun. Növbəti sual - Stefani Fenkart.

**Beynəlxalq Sülh İnstitutunun direktoru Stefani Fenkart (Avstriya):** Cənab Prezident, bizi burada qəbul etdiyinizə görə çox sağ olun. Mən ilk dəfədir bu forumda iştirak edirəm. Sualım bir az əvvəlcə söylədiklərinizə qayıdır. Mən Avstriyadanam və Beynəlxalq Sülh İnstitutunda çalışıram. Bir sözlə, sualım sülh haqqında olacaq. Bilirsiniz, Ermənistan ilə Azərbaycan arasında münaqişənin uzun tarixi, bu qədər əziyyətləri, inamın bu dərəcədə çatışmaması, eləcə də xüsusən və təbii olaraq, ədalətsizlik hissləri göz qarşısındadır. Siz də qeyd etdiyiniz, tədqiqatlar və məlumatlar da göstərir ki, sülh sazişləri o zaman dayanıqlı olur ki, onları bütün iştirakçı tərəflər qavrasın. Bu, məsələnin bir hissəsidir. Beləliklə, sualım belədir: Əgər ədalət bunun üçün çox əhəmiyyətlidirsə, birincisi, bütün müharibələrdən, ikincisi, antiterror əməliyyatından sonra əgər keçid dövrünə aid düzgünlük, həqiqət və barışıq kimi məsələlərin hamısını nəzərə alsaq, onlar daha uğurlu və dayanıqlı sülhə və hətta sülh prosesinə apara bilərmi? Əgər belədirsə, mən burada Almaniya–Fransa yaxınlaşmasından misallar haqqında düşünürəm. Beləliklə, çox uzun perspektivdə, ola bilsin, hətta Cənubi Afrika misalını götürsək, əgər hətta bu işlərdə standart olmasa belə, barışıq mümkündürmü? Bunu necə dəyərləndirirsiniz və kim bu işdə vasitəçi və ya aparıcı rolunu oynaya bilər? Mən Avstriyadan olduğuma görə, bu rolda Avstriya haqqında nə düşünürsünüz? Bəlkə biz neytral ölkəyik, çünki bütün beynəlxalq təşkilatlar ölkəmizdə yerləşir. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun. Düşünürəm ki, Avstriya qeyd etdiyiniz əyani səbəblər sayəsində yaxşı vasitəçi ola bilər. Çünki biz hamımız beynəlxalq tədbirlərdə əlifba sırasına görə bir-birimizə yanaşı otururuq. Beləliklə, bizim avstriyalı və ermənistanlı həmkarlarımızla hər zaman fikir mübadiləsi aparmaq üçün beynəlxalq tədbirlərdə bir yerdə oturmaq imkanımız var. Sülh sazişinə gəldikdə, artıq qeyd etdiyim kimi, düşünürəm ki, hazırda biz buna yaxınıq, çünki prosesi başladığımız zaman narazılıq doğuran məsələlərdən biri erməni tərəfinin dırnaqarası dağlıq qarabağ respublikasına sülh sazişində istinad etmək cəhdləri ilə bağlı idi və bunu biz, əlbəttə ki, qəbul edə bilməzdik. Onlar istəyirdilər ki, həmin məsələni müxtəlif söz birləşmələri vasitəsilə sazişə salsınlar, lakin onlar yenə də təxminən eyni alınırdı. Bizim yanaşmamız belədir ki, biz onu qeyd edə bilmərik və iki ölkə arasında razılaşma tam qarşılıqlı olmalıdır. Buna görə, əgər onlar saziş layihəsində Azərbaycanda yaşayan erməniləri milli azlıq kimi qeyd etmək istəyirlərsə, onda bu, qarşılıqlı olmalıdır və Ermənistandan güclə deportasiya olunmuş azərbaycanlıların Ermənistana qayıtmaq və orada yaşamaq hüquqları da əks olunmalıdır. Onların hüquq və təhlükəsizliyi Qarabağdakı ermənilərin hüquq və təhlükəsizliyi kimi eyni qaydada qorunmalıdır. Əfsuslar olsun ki, erməni tərəfi bundan hər zaman imtina edib və bu addım o qədər məntiqi görünmürdü, çünki biz qeyri-adi heç nə təklif etmirik, sadəcə, qarşılıqlıq istəyirik. Digər variant bu mövzunu ümumiyyətlə qeyd etməmək idi. Beləliklə, sentyabrın 19-da keçirilmiş antiterror əməliyyatından sonra görünür, bu maneə də aradan qalxdı. Biz ya hər iki milli azlığı sülh müqaviləsində qeyd edirik, yaxud həmin məsələ ümumiyyətlə qeyd olunmur. Sülh sazişinin digər bəndləri və ya maddələri az problematikdir. Deməzdim ki, onların hamısı artıq razılaşdırılıb, lakin düşünürəm ki, cümlələrə, ifadələrə gəldikdə, əlbəttə ki, hər sözün müəyyən siyasi mənası var. Lakin bunları razılaşdırmaq olar. Bu, yalnız siyasi iradə məsələsidir. Qeyd etdiyim kimi, biz erməni tərəfindən cavabı 70 gün gözlədiyimiz halda, məsələn, deyə bilərəm ki, bizim Ermənistana şərhlərimizin göndərilməsi, adətən 14-15 gündən çox çəkmir. Əgər onlar cavabı 70 gün yubadırlarsa, onda bunun müəyyən mənası var. Əlbəttə ki, bu, biristiqamətli proses deyil. Əgər Ermənistan hesab edir ki, bizə sülh onlardan çox lazımdırsa, fikrimcə, onlar yanılırlar. Biz sülhü onlar istədiyi qədər istəyirik. Əgər onlara bu lazımdırsa, onda bizə də lazımdır. Əgər onlara lazım deyilsə, onda bizə də lazım deyil. Mənim istər Şura Prezidenti Şarl Mişelin iştirakı ilə Brüsseldə erməni tərəfi ilə təmaslarımda, istərsə də bəzi beynəlxalq tədbirlər çərçivəsində söhbətlərdə mən demişəm ki, əgər siz Azərbaycanın Qarabağ da daxil olmaqla ərazi bütövlüyünü tanımayacaqsınızsa, onda biz də sizin ərazi bütövlüyünüzü tanımayacağıq. Əgər siz ərazi bütövlüyümüzü sual altına çəkməkdə davam edəcəksinizsə, onda biz də sizin ərazi bütövlüyünüzü sual altına çəkəcəyik. Mən ona dedim, inanın ki, bizim ərazi bütövlüyünüzü tanımamaq üçün daha çox hüququmuz, daha çox tarixi hüquqlarımız var, çünki hamımız bilirik, XX əsrin əvvəlində Cənubi Qafqaz xəritələri necə olub. Onlar mövcuddur. Hamımız bilirik ki, bolşeviklər 1920-ci ilin noyabrında Zəngəzuru Azərbaycandan götürərək Ermənistana veriblər və bu, Azərbaycanın sovetləşdirilməsindən altı aydan az müddətdə baş verib. Həmin ərazi hissəsi bizdən götürülmüşdür. Beləliklə, mən ona dedim ki, sizin ərazi bütövlüyünüzü sual altına çəkməkdə bizim daha çox tarixi, siyasi və qanuni hüquqlarımız var. Buna görə, bu davranışı sizə məsləhət görmürəm. Hazırda isə məsələ eynidir. Əgər onlar Azərbaycanın ərazi bütövlüyünü bəyanatla deyil, imzası ilə tanıyacaqlarsa, onda biz də eyni addım atacağıq. Mən dəfələrlə demişəm ki, bizim Ermənistan ərazisini ələ keçirmək kimi heç bir planımız yoxdur, çünki bəzən bizi bu məsələdə əsassız olaraq ittiham edirlər. Əgər biz bunu etmək istəsəydik, edərdik. Mən sizə əmin, açıq və bütün nöqteyi-nəzərindən söyləyə bilərəm ki, bu, böyük problem deyil. Bir gün ərzində onlar Qarabağda təslim oldular və bayrağımız Xankəndidə ucaldı. Bir sözlə, biz yenidən həmin tədbirləri görmək istəmirik və fakt ondan ibarətdir ki, əgər biz bu addımı atmırıqsa, demək, mən dediklərim düzdür. Lakin, eyni zamanda, biz istəyirik ki, gələcəkdə Azərbaycana potensial risk yaranmasın. Buna görə, biz Ermənistanın silahlanması məsələsini hər zaman qaldırırıq və hesab edirik ki, bu, əks nəticə verə bilər və təxribata sürükləyə bilər. Çünki Ermənistana silah təchiz edən Fransa və Hindistan kimi ölkələr hazırda odun üstünə yağ tökür və Ermənistanda reallıqdan uzaq xülyalar yaradır ki, guya onlar həmin silahlardan istifadə edərək Qarabağı geri ala bilərlər. Mən həmin silahların keyfiyyəti ilə bağlı təfərrüatlara varmaq istəmirəm, baxmayaraq ki, onların hansı növ silah olmasını bilirəm. Lakin hətta əgər çox müasir silahlar olsa belə, onların şansı olmayacaq, çünki müharibə və onun nəticəsi silahla deyil, insanlar və onların əzmkarlığı ilə həll edilir. İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın öz bəyanatlarına görə, erməni ordusunda döyüş meydanında 12 min fərari oldu, Azərbaycan Ordusunda isə sıfır. Beləliklə, onların şansı yoxdur. Bir sözlə, mənim onlara mesajım ondan ibarətdir ki, qoy burada, regionda elə vəziyyət yaratmasınlar ki, bizə hər hansı ziyan vurmağın planlaşdırılmamasından əmin olaq! Hələ ki, biz əmin deyilik. Bu səbəbdən, biz reaksiya vermirik. Fransanın Ermənistana heç kəsin almaq istəmədiyi zirehli maşınların təchiz olunmasını müşahidə edirik. Onlar bizə hər hansı təhlükə ehtiva etmir. Lakin əgər görsək ki, zərərli ola biləcək hər hansı ciddi qurğu olarsa, biz cavab verməli olacağıq və mən bu haqda hər kəsi məlumatlandırmışam ki, sonradan şikayət olmasın. Biz cavab verməli olacağıq, çünki hər ölkə öz xalqını müdafiə etməlidir və ümid edirəm ki, bu cür cavaba ehtiyac qalmayacaq. Lakin bunun üçün yeni böyük qardaş rolunu oynamaq istəyən Ermənistanın yeni havadarlarına öz gözəl paytaxtında oturub dincəlməsi, rahat olması məsləhətlidir.

**(ardı 5-ci səhifədə)**

# Naxçıvana yol legitim hüququmuzdur

## Prezident İlham Əliyev “Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər” Forumunda iştirak edib

(əvvəli 4-cü səhifədə)

**Münaqişələrin Qarşısının Alınması və Erkən Xəbərdarlıq Mərkəzinin prezidenti İulian Kifu (Rumıniya):** Cənab Prezident, çox sağ olun. Regionu yenidən görmək, münaqişədən sonra yenidənqurma işlərinizlə tanış olmaq və Azərbaycanın göstərdiyi bütün səyləri öyrənmək üçün əla fürsət oldu. Sualım azərbaycanlıların, əgər istəyirlərsə, Ermənistana qayıdışı ilə bağlıdır. Bəlkə bu, sülh razılaşmasının bir hissəsi olsun, yaxud həmin razılaşmadan sonra bəlkə digər müqavilə olsun. Ermənilərin Azərbaycan vətəndaşları kimi Qarabağa qayıtması üçün artıq imkan yaradılıb. Siz bunları artıq qeyd etdiniz. Bununla belə sualım belədir: Qarabağda yaşamış erməniləri qayıdışa cəlb etmək məqsədilə Azərbaycanın hər hansı siyasəti varmı? Bəlkə onlara elə şəraitlər təklif edilsin ki, onlar mənalı, cəlbedici olsun və bu, siyasi mənada böyük təəssürat bağışlaya bilər. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Artıq qeyd etdim ki, qayıtmaq istəyən şəxslər bunu edə bilər. Zəngilanda və digər yerlərdə gördüyünüz tamamilə dağıdılmış yerlərdən fərqli olaraq, onların mənzilləri, evləri toxunmaz olaraq qalır. Erməni tarixi irsi tam qorunur. Hərbi polisimiz çox mühüm yerləri, o cümlədən insanların mülkiyyətini qoruyur. Beləliklə, əgər onlar Azərbaycan vətəndaşı olmaq istəyirlərsə gəlsinlər. Bunu artıq qeyd etdim. Digər variant, hər ölkədə olduğu kimi ümumi təcrübəyə əsaslanaraq və hər ölkənin miqrant əmək qüvvəsinə tətbiq etdiyi kvota kimi bizim kvotalardan irəli gələrək işə icazə və yaşamaq icazəsidir. Bu, təşkil oluna bilər.

Əlbəttə ki, azərbaycanlıların Ermənistan ərazisinə qayıdışına gəldikdə, biz Ermənistandan da eyni yanaşmanı gözləyirik. Ən azı eyni addım atsınlar və həmçinin kəndlərimiz haqqında məlumatı əldə etmək üçün elektron reinteqrasiya portalını yaratsınlar. Azərbaycanlıların yaşadıqları kəndlərin əksər hissəsi ya dağıdılıb, ya boş qalıb. Ermənistanda çətin demoqrafik vəziyyətdən irəli gələrək, onlar istədiyi kimi Azərbaycan kəndlərində məskunlaşmanı təşkil edə bilmirlər. Bəzilərində onlar yaşayır və lakin onların əksər hissəsi boşdur. Yəni, ən azı azərbaycanlılara həmin yerlərə getmək, görmək və ziyarət etmək imkanını yaratmalıdırlar. Hesab edirəm ki, bu, barışığın mühüm işarəsi ola bilərdi, çünki suallarda və ya şərhlərdə Fransa ilə Almaniya arasında yaxınlaşma ilə bağlı bəzi tarixi paralellər verildi. Demək istərdim ki, qanlı İkinci Dünya müharibəsindən sonra sovetlər və almanlar da barışığa getdilər. Beləliklə, iki onillikdən az müddətdə Sovet İttifaqı və Almaniya Federativ Respublikası sıx tərəfdaşa çevrildi. Mən hələ Almaniya Demokratik Respublikasını demirəm və orada yaşayan insanlar dərhal Sovet İttifaqında yaşayan insanlarla çox yaxın dosta çevrildilər. Bir sözlə, düşünürəm ki, Sovet İttifaqı və Almaniya arasında baş vermiş barışıq çox yaxşı nümunədir. Buna görə, biz düşünməliyik və bilirik ki, Ermənistanın bugünkü ərazisində kökləri olan azərbaycanlılar qayıtmağı çox arzu edirlər. Onların bəzilərinə elə gəlir ki, orada kəndlərdə məskunlaşma tam realdır və mən də bu cür düşünürəm. Bəziləri isə ulu babalarının məzarını, sadəcə, gedib ziyarət etmək istəyir. Digərləri, sadəcə, səfər edib qayıtmaq istəyir. Bir sözlə, buna icazə verilməlidir. Ermənistan oradan deportasiya olunmuş yüz minlərlə azərbaycanlının təbii humanitar tələbatlarının qarşısını almalı deyil. Biz bunun necə olduğunu nümayiş etdirdik. Biz göstərdik ki, mülkiyyət, dini yerlər necə qorunmalıdır və əhalisinin çoxu erməni olmuş Xankəndinə və digər yerlərə gedən hər kəs bunları görə bilər. Beləliklə, biz onlardan eyni addımı gözləyirik və bu, onların sülhə olan iradəsini nümayiş etdirəcək.

**Hikmət Hacıyev**: Təşəkkür edirəm. Fərhad Pirinççi. Növbəti sualımız.

**SETA Akademiyasının direktoru Fərhad Pirinççi (Türkiyə)**: Cənab Prezident, bizi qəbul etdiyinizə görə sağ olun. Burada olmaq şərəfdir. Əslində, mən Zəngəzur dəhlizi adlandırdığımız və üçtərəfli Bəyanatda qeyd edilmiş doqquzuncu maddə barədə soruşmaq istərdim. Mən öz qərbli həmkarlarımla və Qərb mətbuatında hətta bəziləri ilə danışanda, onlar iddia edirlər ki, Azərbaycan bu maddəni icra etmək üçün Ermənistanı hərbi yolla məcbur edəcək. Həmin dəhlizin reallaşması prosesi barədə nə deyə bilərsiniz? Bu haqda tərəfdaşınızla, ümumiyyətlə, söhbət aparmısınızmı? Mən bu prosesin icrasında Paşinyan hökumətini nəzərdə tuturam. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Bəli, mən Ermənistanın baş naziri ilə dəfələrlə söhbət etmişəm və soruşmuşam ki, niyə onlar öz öhdəliklərini yerinə yetirmirlər. Çünki qeyd etdiyim kimi, doqquzuncu maddədə aydın şəkildə qeyd olunur ki, Azərbaycanın qərb rayonları və Naxçıvan arasında bağlantı təmin edilməlidir və hətta yazılır ki, orada nəzarət və təhlükəsizliyi kim təmin edəcək. Söhbət Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin bir hissəsi olan sərhədçilərindən gedir. Bunu cənab Paşinyanın özü imzalayıb. İndi isə o, nə bu marşrutu, nə də ki, Rusiyanın bu işdə iştirakını istəyir. Əslində, hüquqi nöqteyi-nəzərindən, bunun artıq mahiyyəti çox deyil. Bu, onun öhdəliyidir. Biz nə edə bilərik? Biz yalnız onu deyə bilərik ki, onlar öhdəliyini pozurlar. Azərbaycan öz beynəlxalq öhdəliklərinə hər zaman hörmətlə yanaşıb, lakin Ermənistan tərəfindən biz eyni yanaşmanı görmürük. Ermənistanın baş naziri ilə Brüsseldə keçirdiyim çoxsaylı görüşlər zamanı ona demişəm ki, hətta bir neçə il əvvəl biz artıq dəmir yolu xəttini çəkməyə başladıq. Siz heç olmasa texniki əsaslandırma işlərini niyə başlamırsınız? Buna cavab gəlmədi. Bir sözlə, sizə deyə bilərəm ki, sovet vaxtında mövcud olmuş 42 kilometrlik dəmir yolu nəinki tikinti üçün hazır deyil, onun heç texniki əsaslandırma işləri başa çatdırılmayıb. Bəlkə, ümumiyyətlə başlamayıb. Bu, o deməkdir ki, onlara bu yol lazım deyil. Yaxşı, onda biz gözlədik və ittiham olunduq ki, biz bunu güc hesabına edəcəyik. Mən artıq deməkdən yorulmuşam ki, bizim belə məramımız yoxdur. Sonra biz digər variantlara baxmalıyıq. Bizə Naxçıvanla, onun vasitəsilə Türkiyə ilə əlaqəmiz lazımdır. Beləliklə, keçidin tikilməsi məqsədilə İran tərəfi ilə razılığa gəldik. Bəli, bu variantın xərcləri çox olacaq. Lakin biz artıq tikintiyə başladıq. Artıq hər iki ölkənin hökumət rəsmiləri avtomobil körpüsünün tikintisi ilə əlaqədar Zəngilan rayonunun Ağbənd kəndində təməlqoyma mərasimində iştirak ediblər. Sonradan dəmir yolu körpüsü də salınacaq. Ermənistan çox şeyi itirir. Birincisi, bu, nəinki Azərbaycan ilə ölkəmizin Naxçıvan Muxtar Respublikası arasında yol olacaq, o cümlədən bu, beynəlxalq daşımalar dəhlizinə çevriləcək. Bir çox yüklər Mərkəzi Asiyadan gələcək. Gözləyirik ki, Çindən çox yüklər gəlsin. Beləliklə, qeyd etdiyim kimi, Azərbaycan ilə Türkiyə arasında mövcud bağlantılar, Bakı-Tbilisi-Qars dəmir yolu hətta genişlənsə belə, bütün yükləri əhatə edə bilməyəcək. Bir sözlə, cənub marşrutu ilə başlanğıcda il ərzində minimum 5-7 milyon ton yük daşınacaq və bu da kifayətdir. Beləliklə, Ermənistan özünü Azərbaycanla bütün digər kommunikasiyaların açılmasından məhrum edir, çünki hazırda onların Rusiya ilə dəmir yolu bağlantısı yoxdur. Gürcüstan yolu isə separatçı Abxaziya regionuna görə bağlıdır. Onların Azərbaycan vasitəsilə də yolu yoxdur. Türkiyə ilə dəmir yolu və sərhədi də bağlıdır. Bir sözlə, onlar yenidən dalandadırlar. Düşünürəm ki, onlar üçün hazırda iki variant var. Ya onlar öz hesabına, yaxud bəzi Avropa fondlarının puluna onların suveren ərazisi hesab edilən 42 kilometrlik zəruri dəmir yolunu çəkirlər. Bizim onların suverenliyi ilə bağlı hər hansı şərtlərimiz yoxdur, lakin Azərbaycanın əsas ərazisindən Naxçıvana asan çıxış olmalıdır. Baş nazir Paşinyana artıq söylədiyim kimi, bu, Azərbaycandan Azərbaycana gediş olacaq və ona görə hər hansı gömrük rüsumları, yoxlamalar, sərhəd yoxlanışı olmalı deyil, çünki gediş əsas ərazidən Naxçıvana həyata keçirilir. Əgər bunlar Xəzər dənizinin şərq sahilindən Ermənistana və digər yerlərə gedirsə, siz onda, əlbəttə, bütün gömrük rüsumlarını digər ölkələr etdiyi kimi tətbiq edə bilərsiniz. Lakin Azərbaycandan Azərbaycana yoxlamalar, müdaxilə olmalı deyil və bu, bizim legitim hüququmuzdur. Əslində, sizə deyə bilərəm ki, Brüsseldə Prezident Mişel tərəfindən təşkil olunmuş görüşdə müzakirə etdiyimiz məsələlərdən biri Rusiya-Kalininqrad dəmir yolu xətti kimi təcrübənin istifadəsi idi. Bir sözlə, hər şey mümkündür, sadəcə, Ermənistan istəmir. Onlar bizi bu qütbdən məhrum etmək istədilər və indi isə başa düşdülər ki, bu, bizə heç lazım deyil! Onda onlar şikayətlənməyə başladılar və hətta biz ABŞ Dövlət Departamentinin rəsmilərindən çox müəmmalı məlum bəyanatı eşitdik ki, Birləşmiş Ştatlar əgər yol Ermənistandan keçməsə, buna imkan verməyəcəklər?! Onda mən nə deyə bilərəm? Sadəcə deyə bilərəm ki, bu nədir? Biz bunu üç ildir ki, Ermənistan vasitəsilə etmək istəyirdik. Əgər siz istəyirsiniz ki, yol Ermənistandan keçsin və onda öz yeni erməni dostlarınıza bunu söyləyin! Axı siz bizim İranla münasibətlərimizə necə müdaxilə edə bilərsiniz? Deyirsiniz ki, siz yolun çəkilməsinə imkan verməyəcəksiniz. Nə edəcəksiniz? Bombardman edəcəksiniz, nə edəcəksiniz?! Əslində, bu cür məsuliyyətsiz bəyanatlar onları söyləyənlərə heç bir yaxşı fayda gətirmir və əlbəttə ki, regionda sabitliyi və proqnozlaşdırmanı, o cümlədən bağlantı layihələrini ciddi şəkildə sual altına qoyur. Yeri gəlmişkən, mən artıq bu haqda danışdım ki, Türkiyədəki tərəfdaşlarımızdan məlumat almışıq və onlar Qars–Naxçıvan dəmir yolunun çəkilməsini planlaşdırır. Beləliklə, qeyd etdiyim kimi, bu, bir çox ölkələrin rifahına xidmət edəcək nəqliyyat dəhlizi olacaq.

**Hikmət Hacıyev:** Cənab Prezident, biz artıq Sizin çox vaxtınızı aldıq və ayrılmış vaxt çərçivəsinin sonuna yaxınlaşırıq, lakin siyahımızda hələ 10 natiq qalır. Əgər icazə versəniz, biz üç sualı bir qrupda birləşdirək və sualları qrup şəklində verək.

**Prezident İlham Əliyev:** Gəlin əvvəlki kimi davam edək, sonra baxarıq.

**Hikmət Hacıyev:** Onda, Raçel Rudolf.

**Pekin Texnologiyalar İnstitutunun professoru Raçel Rudolf:** Sağ olun cənab Prezident. Əslən Birləşmiş Ştatlardanam, lakin Çin Xalq Respublikasının Quandon əyalətinin Böyük Buxta adlanan bölgəsində yüksək texnologiyalar zonasında yaşayıram. Mən iki universiteti təmsil edirəm: Smisfield Rod Aylənd Universiteti və Pekin Texnoloji İnstitutu. Sualım belədir: Əgər əsl sülh ədavətli mühitin transformasiyasını tələb edirsə, azərbaycanlıların azad edilmiş yerlərə qayıdışını asanlaşdırmaq üçün hökumətinizin hansı cəlbedici üsulları var və münaqişədən sonra dinc mühitini necə qurmaq istəyirsiniz?

**Prezident İlham Əliyev:** Böyük yenidənqurma layihəsinə başlamazdan əvvəl göstəriş verdim ki, keçmiş məcburi köçkünlər arasında sorğu aparaq. O, çap edildi və biz onu daxili istifadəmiz üçün hazırladıq. Çünki istəyirdik bilək ki, nə qədər insan qayıtmağı planlaşdırır. Biz aydın şəkildə anlayırdıq ki, 30 il keçib və deportasiya edilmiş əksər insan, əfsuslar olsun ki, dünyasını dəyişib. Qalırdı uşaqlar və gənc nəsil. Onlar həmin yerləri heç vaxt görməyiblər və keçmiş məcburi köçkünlərin çoxunun iş yerləri var idi. Beləliklə, biz bilməli idik və mən məmnun oldum ki, gözlədiyim kimi tam əksəriyyət qayıtmaq istədiyini dedi. Lakin, əlbəttə, yaxşı anlayırdıq ki, necə və hara qayıtmalıyıq. Qayıtmağa yol varmı?! Biz onlar üçün elə şərait yaratmalı idik ki, həmin şərait nəinki eyni, hətta əvvəlkindən də yaxşı olmalı idi. İndi isə mən nəinki hələ də yataqxanalarda və çox ağır vəziyyətdə yaşayan şəxslər haqqında danışıram, o cümlədən yeni evlər tikdiyimiz və mənzil verdiyimiz 300 min keçmiş məcburi köçkünü də nəzərdə tuturam. Beləliklə, Qarabağda və Zəngəzurda şəraitlər daha yaxşı olmalıdır. Prosesin başlanmasının əlamətini və onun mən gözlədiyimdən də geniş olmasını, fikrimcə, siz Zəngilanda, Ağalıda gördünüz. Siz həmin yerləri heç zaman görməyən uşaqları və gəncləri gördünüz. Onlar qayıtdılar. Mən orada dəfələrlə olmuşam və soruşmuşam ki, Bakı və ya Sumqayıt üçün darıxırsınız? Siz böyük şəhərlərdə yaşamısınız. İndi isə kəndə gəlmisiniz və o, hələ də ayrıca salınmış kənddir və ətrafında heç nə yoxdur. Onlar dedilər: Xeyr! Onlar həyatından razıdırlar. Qayıdanlar təkcə orada vaxtilə yaşayan insanlar deyil. Bəli, həmin insanları başa düşmək olar. Onların xüsusi hissləri var. Hətta uşaqlar və nəvələr də gəldilər. Bir sözlə, deyərdim ki, bu, çox mühüm mənəvi və psixoloji amil idi, çünki bunlarsız, biz orada nə edirik edək, onun təsiri sıfır olacaq. Buna görə, vacib olan odur ki, onlar qayıtmaq istəyirlər. O ki qaldı onların haraya qayıtmasına, yəqin ki, siz bunu dünən mənim nümayəndələrimdən Zəngilanda şəhərləri, ekoloji vəziyyəti necə planlaşdırdığımız barədə eşitdiniz. Həmin yerlər tam şəkildə ekoloji, yaşıl enerji zonası olacaq və əlbəttə ki, məşğulluq təmin ediləcək. Yəqin ki, onlar sizə, həmçinin Ağdam, Cəbrayıl və Laçında yaradılmış sənaye yerləri haqqında söylədilər. Tövsiyə edirəm ki, gələn dəfə forumunuzu keçirəndə Laçına gedin, çünki o, hazırda bütün azad edilmiş ərazilərdə ən çox məskunlaşmış şəhərdir. Bilirəm ki, forumlarınız ildə iki dəfə olur və gələn ilin yazında orada artıq minlərlə insan yaşayacaq. Planımız belədir və bu vaxtda qədər uğurlu olub. Rəqəmləri bilirsiniz. 2026-cı ilin sonuna qədər 140 min insan olacaq. Bu, tam real görünür.

Azad edilmiş ərazilərə gəldikdə, digər mühüm məsələ də var. Biz, həmçinin yeni idarəçilik modelini sınaqdan keçiririk. Artıq gördüyünüz kimi, biz prezidentin xüsusi nümayəndələr institutunu yaratmışıq. Bu vaxta qədər dörd nümayəndə var. Onların sayı daha çox olacaq. Bu, tamamilə yeni idarəçilik üsuludur və həmin müsbət təcrübə, ola bilsin, ölkənin qalan hissəsində də tətbiq edilsin. Texnoloji inkişaf, ekoloji baxımdan münbit biznes mühiti – bütün bunlar tətbiq ediləcək. Bir sözlə, bizim həmin planlarımız artıq var. Hələ onları kağız üzərinə köçürməmişik, çünki biz əsasən keçmiş məcburi köçkünlərin əsas hissəsini qaytarmalıyıq və bu, Azərbaycanın qalan hissəsinin yenidən qurulmasına və inkişafına dair yol xəritəsi olacaq. Məsələn, Qarabağ və Şərqi Zəngəzuru yaşıl enerji zonası kimi elan etdikdən sonra növbəti addım Naxçıvan Muxtar Respublikasında atıldı. Hazırda biz Naxçıvanda 1500 bərpaolunan enerji mənbəyinin tikintisi planını tərtib etmişik. Biz Naxçıvan Muxtar Respublikası üçün xüsusi dövlət inkişaf proqramını qəbul etmişik. Həmin proqram bir növ “Böyük Qayıdış” adlanan Qarabağ və Şərqi Zəngəzur proqramına bənzəyir. Biz Qarabağda şəhərsalmanın planlaşdırılmasına kömək etmiş beynəlxalq şirkətləri eyni işləri Naxçıvanda da görməsi üçün artıq seçmişik. Mövcud şəhər infrastrukturunu nəzərə alaraq, bu addım atılır, çünki coğrafi və mədəni baxımdan Qarabağ, Zəngəzur və Naxçıvan müəyyən dərəcədə eyni bölgəyə aiddir. Onların coğrafi və mədəni mühiti demək olar ki, eynidir. Bu, Azərbaycan ərazisinin böyük hissəsini əhatə edəcək və bütövlükdə Azərbaycanın dörddəbir hissəsini, eləcə də ölkənin qalan hissəsini təşkil edəcək. Həmin yenidənqurma iqtisadi inkişafa, məşğulluğa, əmək qüvvəsinin yerdəyişməsinə təkan verəcək. Bu, həmçinin əhalisi artan Bakı və Sumqayıt kimi şəhərlər üçün vacibdir. Onun çoxtərəfli müsbət təsiri olacaq. Lakin bir daha, birinci yerdə keçmiş məcburi köçkünlər və onların həyatı, onların yurdları və həyat tərzi, öz torpaqlarında layiqli yaşaması məsələsi dayanır.

**Hikmət Hacıyev:** Növbəti sualımız, Cekob Korejba.

**Avrasiya Tədqiqatlar Mərkəzindən Cekob Korejba (Polşa):** Zati-aliləri, adım Cekob Korejbadır. Mən Polşadanam, lakin Avrasiya Tədqiqatlar Mərkəzini təmsil edirəm. Burada olmaqdan məmnunluq və böyük şərəf hissi duyuram. May ayında keçirdiyimiz görüş zamanı mülahizələrinizi dinlədikdən sonra əldə etdiyim təəssüratı xüsusilə xatırlayıram. Belə hisslər, təəssürat yarandı ki, növbəti görüş çox nikbin şəraitdə keçəcək. Beləliklə, mən Sizi və Azərbaycan xalqını Zəfər münasibətilə təbrik edirəm. Sualım regiona inteqrasiya ilə bağlıdır. Şərq tərəfdaşları, qonşularınız və bizim qonşular arasında bəzi ideal nikbinliyə baxmayaraq, Avropa inteqrasiyasının da siyasi, texniki və ideoloji hüdudları var. Avropa İttifaqı bəlkə də Şərq tərəfdaşlarına gəldikdə uzunmüddətli strateji qərarları hazırlamaq və həyata keçirmək üçün ən yaxşı durumda deyil. Bu səbəbdən mən bilmək istərdim, Siz Cənubi Qafqazda bir növ Benilüks yaratmaq üçün regional inteqrasiyanın hər hansı mənasını və fürsətini görürsünüzmü? Əgər belədirsə, buna Tbilisi və xüsusən də İrəvanda reaksiyanı necə görürsünüz və gözləyirsiniz?

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Məncə, söylədikləriniz tamamilə realdır. Qələbəmizlə bağlı dediyiniz sözlərə görə təşəkkür edirəm. Şuşadakı görüşümüzü xatırlayıram. Təkrarən buraya gəldiyiniz üçün təşəkkür edirəm. Hesab edirəm ki, bu, tamamilə realdır və bu məsələ mənim gürcü həmkarım, Baş nazir İrakli Qaribaşvili ilə apardığımız müzakirələrin bir hissəsini təşkil edirdi. Hazırda Cənubi Qafqazda ən azı məsləhətləşmələr səviyyəsində prosesə başlamaq imkanımız var. İnteqrasiyadan danışmaq hələ tez ola bilər, amma məsləhətləşmələrdən başlamalıyıq. Məncə, ilk məsləhətləşmələr bu yaxınlarda Gürcüstanda keçirilən beynəlxalq bir tədbir çərçivəsində Cənubi Qafqazın üç ölkəsinin - Ermənistanın, Azərbaycanın və Gürcüstanın Baş nazirlərinin görüşü zamanı baş tutmuşdur. Bu, müsbət əlamətdir. Düşünürəm ki, bu əməkdaşlıq çox praktiki səmərə verə bilər. Çünki son 30 illik müstəqillik dövründə Gürcüstanın və Azərbaycanın inkişafı hər iki ölkənin inteqrasiya səviyyəsini, hər iki ölkədə ümumi qarşılıqlı və faydalı layihələrin həyata keçirilməsini və hər iki ölkənin ayrı-ayrılıqda hərəkət etmək əvəzinə, birlikdə Avropa üçün necə daha vacib olmasını göstərir. Artıq mövcud olan bu layihələrə Ermənistan qoşula bilərmi? Bəli, sülh müqaviləsi imzalanarsa, əlbəttə. Ermənistanın bu əməkdaşlığa nə kimi töhfə verəcəyi məsələsi isə açıq qalmaqdadır. Çünki o, yalnız hüquqlara malik olmamalı, habelə məsuliyyət daşımalıdır. Bu gün neft və qaz kəmərləri, dəmir yolları daxil olmaqla, Gürcüstan və Azərbaycanın böyük sərvətləri var, elektrik xətləri çəkiləcək, ticarət əlaqələri inkişaf edir, təhlükəsizliklə bağlı məsələlər həll olunur.

Bu yaxınlarda Bakıda Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin ənənəvi görüşü keçirilmişdir. Biz yalnız müdafiə sahəsində deyil, iqtisadiyyat və digər sahələrdə də üçtərəfli əməkdaşlıq aparırıq. Ermənistan mehriban qonşu olmağa və bu işə yardım göstərmək niyyətini nümayiş etdirəcəkmi? Yenə də bu, açıq məsələdir. Hesab edirəm ki, əgər onlar strateji düşünsələr, Ermənistanın suverenliyini qoruyub saxlamağın yeganə yolu budur. Çünki hazırda Ermənistan hakimiyyətində baş verənlərə Bakıdan nəzər saldıqda orada bir qütbdən digərinə xaotik keçidin olduğunu müşahidə edirik. Onlar başqa qütbün onlar üçün bir növ qurtuluşa səbəb olacağını düşünürlər. Əsla! Bu, başqa bir böyük qardaşdan savayı heç nə deyil. Mən isə açığı, bu böyük qardaşın əvvəlkindən daha yaxşı olacağına şübhə edirəm. O, həm çox uzaqda yerləşir, regiona bir o qədər də bağlı deyil, həm də istənilən nöqteyi-nəzərdən baxıldıqda öz siyasi, bəlkə də şəxsi iddialı məqsədlərini güdür. Beləliklə, Ermənistan baş verən inteqrasiya prosesinin bir hissəsi olmaq istəyirsə, bunda niyyəti olduğunu nümayiş etdirməlidir.

Dediyim kimi, sülh sazişi, əlbəttə ki, əsas şərtdir, lakin yeganə şərt deyil. Onlar bizim indi bir-birimizi tərəfdaş kimi qəbul etdiyimizi nümayiş etdirməlidirlər. Bu mümkündür. Paralel olaraq barışıq prosesi getməlidir. Ziyalılar, ictimai rəyə təsir edə biləcək insanlar arasında təmaslar daha çox olmalıdır və daha az nifrət nümayiş etdirilməlidir. Əgər İrəvanda keçirilən idman tədbirində iştirak etmək üçün komanda göndəririk və baş nazir Paşinyanın gözləri qarşısında Azərbaycan Bayrağı yandırılırsa, onlar bununla nə demək istəyirlər?! Nəticədə dərhal planlarımızdan geriyə böyük bir addım atılmış oldu. Hətta bəlkə onların da planlarında geriləməyə səbəb oldu.

Ancaq bunlar çox həssas, emosional, eyni zamanda, çox əyani məqamlardır. Qarşılıqlı səfərlər zamanı biz özümüzü, yəni, hər iki tərəf özünü təhlükəsiz hiss edə bilərmi? Bu, cavabsız qalan böyük suallardan biridir. Amma bunun üçün potensial var. Bilirəm ki, Gürcüstan hökuməti də bu fikri tamamilə bölüşür. Hələ ki, Ermənistanın öz mövqeyini aydın şəkildə nümayiş etdirməsini görmürük. Amma bu baş verərsə, işə başlaya bilərik. Nəticədə onlar özlərini daha təhlükəsiz hiss edəcəklər. Buradakı gürcü dostlarımız bilirlər ki, bu gün Gürcüstanın enerji təhlükəsizliyi tamamilə təmin olunur. Böyük oyunçular arasında nə olursa-olsun, şəraitin necə olmasından asılı olmayaraq, o, etibarlı təchizat mənbəyidir. Biz bilirik ki, Azərbaycan üçün etibarlı tranzit marşrutu Gürcüstandan keçir. Bu, qarşılıqlı əlaqə, belə demək mümkündürsə, qarşılıqlı asılılıq deməkdir ki, bu da yaxşı bir şeydir, dostluğu gücləndirir. Bu, elektrik istehsalı, təbii qaz, yanacaq, maneəsiz tranzit imkanlarının yaradılması ilə bağlı bir layihə ola bilər. Amma üç ildir ki, biz yox, məhz Ermənistan Zəngəzur dəhlizinin açılmasına mane olur. Bu dəhlizin təşviq olunmasında Türkiyə ilə yanaşı, Azərbaycan və bir çox başqa ölkələr də fəal surətdə iştirak edirdi. Amma onlar buna mane olurdular. Yəni, məncə, onlar vəziyyəti yenidən nəzərdən keçirməlidirlər və həmçinin başa düşməlidirlər ki, böyük qardaşın nə qədər güclü olsa da, burada yaşayan yenə də sən olacaqsan, buradakı ölkələr arasında özünə yer tapmalı olacaqsan.

**Argentina Beynəlxalq Münasibətlər Şurasının nümayəndəsi Xuan Bataleme (Argentina)**: Təşəkkürlər, Zati-aliləri. İcazə verin, həmkarlarımla birlikdə ölkənizin qonaqpərvərliyinə görə Sizə öz təşəkkürümü bildirim. Sualım olduqca sadədir. Ərazi bütövlüyünüzü bərpa etmək üçün hərbi imkanları hazırlamaq nə qədər çətin başa gəldi və nə qədər vaxtınızı apardı? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Açığı, bu, başqa bir konfransın mövzusu ola bilər. Sual qısadır, amma cavabı ya çox qısa, ya da çox uzun ola bilər. Bilmirəm, vaxtımız çatacaqmı, çünki bizə ayrılan müddət tükənmək üzrədir. Bəli, bu, uzunmüddətli bir hazırlıq prosesi idi. İlk növbədə, iqtisadi cəhətdən hazırlıq idi. Biz özümüzü təmin edəcək iqtisadiyyata malik olmalı idik və başqa heç bir ölkədən asılı olmamalı idik. Həmçinin siyasi cəhətdən müstəqil olmalı idik, qərarlar bəzən bəzi ölkələrdə olduğu kimi, başqa paytaxtlarda deyil, məhz Bakıda qəbul edilməli idi. Cəmiyyətin möhkəmləndirilməsi, gənc nəslin vətənpərvərlik ruhunda yetişdirilməsi tələb olunurdu. Xeyli hazırlıq işi bilavasitə ailələrdə görülürdü. Hətta deyərdim ki, ən vacib məsələ ailələrdə vətənpərvərlik əhvali-ruhiyyəsinin yaradılması idi. Təkcə keçmiş köçkünlərin ailələrində deyil, bütün ailələrdə və eləcə də məktəblərdə. Bunlar əsas amillərdir. Düzdür, silah və texnologiya itkiləri minimuma endirmək üçün çox vacibdir, itkiləri minimuma endirməyə kömək edə bilər. İkinci Qarabağ müharibəsində təpələrdə mövqe tutub altı müdafiə xətti ilə əhatələnərək özünü müdafiə etməyə çalışan Ermənistandan fərqli olaraq, dağlara dırmaşan bir tərəf kimi ən azı iki dəfə az itki verməyimizin səbəbi məhz müasir silahlara malik olmağımız idi. Amma, eyni zamanda, ən mühüm məsələ hərbi qulluqçuların hazırlığı və ruh məsələsidir. Şuşaya səfər edənlər şəhəri azad etmək üçün üzərində, sadəcə, yüngül silah və sursat olan döyüşçülərimizin nə cür qayalara dırmaşdığını yəqin ki, görüblər.

Bəli, bu amillərin reallaşdırılması çox vaxt apardı, amma onlar olmasaydı və təbii ki, bütün cəmiyyətin bu milli ideya ətrafında cəmləşməsi baş verməsəydi, Qələbə mümkün olmazdı. Mümkün qədər qısa olmağa çalışıram. Növbəti dəfə konfransı bu məsələyə həsr edib saatlarla bu barədə danışmaq olar.

**Ekoloji fəal və siyasətçi Brays Lalond (Fransa)**: Cənab Prezident, dəvətinizə görə təşəkkür edirəm. Mən həmin gözəl Avropa ölkələrindən birindən gəlirəm. Düşünürəm ki, geri qayıdanda özümlə aparmalı olacağım bəzi mesajlar var.

**Prezident İlham Əliyev**: Nə üçün ikinci sırada əyləşmisiniz? İndi başa düşdüm niyə ikinci sırada oturmusunuz.

**Brays Lalond:** Cənab Prezident, bilirsiniz ki, hamı heç də mükəmməl deyil. Doğru buyurursunuz ki, ortada yanlış təsəvvürlər, anlaşılmazlıqlar var. Bu anlaşılmazlıqları necə aradan qaldıra bilərik? Bu, mənim əsas suallarımdan biridir. Hazırda bu anlarda Dubayda iqlim məsələlərinə dair böyük bir konfrans keçirilir. Bu konfrans 70 min insanı, xüsusən gəncləri indi və gələcəkdə bir araya gətirir. Gələn il bu konfransın harada keçiriləcəyini bilmirik. Ancaq o, burada keçirilə bilər. Sizin deyəcək çox sözünüz var, cənab Prezident. Siz hidrogendən, bərpaolunan enerji mənbələrindən danışdınız, Bakının cənubunda böyük bir günəş elektrik stansiyası tikmisiniz. Məncə, bu konfransın Bakıda keçirilməsi yaxşı olardı, həm də ona görə ki, qaz hasil edən ölkələrin digər ölkələrə kömək etmək üçün çox işi var, məsələn, kömürü qazla əvəz etmək üçün. Ona görə də növbəti sualım budur: Necə düşünürsünüz, mümkün ən qısa zamanda Bakıda bir iqlim konfransı təşkil etmək yaxşı fikirdirmi?

**Prezident İlham Əliyev:** Məncə, bu, əla fikir olacaq. Biz bunun üzərində işləyirik. Hadisələri qabaqlamaq istəmirəm, amma ümid edirəm ki, tezliklə Azərbaycanın COP29 konfransına ev sahibliyi edəcək ölkələrdən biri kimi müsabiqədə iştirak üçün ərizə verməsi barədə yaxşı xəbərimiz ola bilər. Konfransın Bakıda keçirilməsi ilə bağlı müəyyən problemlər var. Ümidvaram ki, bu problemlərin qənaətbəxş həlli tezliklə tapılacaq. Bu isə öz növbəsində indicə haqqında danışdığımız sülhə doğru atılmış daha bir mühüm addım olacaq.

Azərbaycan COP29-a ev sahibliyi etməyə hazırdır. Məruzə edə biləcəyimiz bir çox məsələlər var. Sovet İttifaqının süqutu ilə Azərbaycanda neft-qaz infrastrukturu tamamilə dağıldı, neft hasilatında kəskin azalma oldu, Bakıətrafı ərazilərdə sanki ekoloji fəlakət baş vermişdi. İndi isə Olimpiya Stadionuna, Su İdmanı Sarayına baxanda onların yerləşdiyi ərazilərdə vəziyyətin əvvəl necə olduğunu təsəvvür etmək çox çətindir. O ərazilərin hamısını neft gölləri basmışdı. Onları təmizləmək üçün çoxlu vəsait xərcləməli olduq və nümayiş etdiririk ki, biz yalnız istehsal etmirik, həm də ərazini təmizləyirik. Qarşıda görüləsi hələ çox işimiz var. Amma bu, məsuliyyətli olmağın yaxşı bir göstəricisidir.

Eyni zamanda, bizim ətraf mühitə məsuliyyətli yanaşmamıza dəlalət edən amillər arasında 2,6 trilyon kubmetr həcmində təbii qaz yataqlarının olmasını, mövcud boru kəmərləri şəbəkəsi və neft yataqları sayəsində enerji təhlükəsizliyimizi tam təmin etdiyimizə baxmayaraq, bərpaolunan enerji mənbələrinə sərmayə qoymağımızı da söyləyə bilərəm. Artıq qeyd etdiyim kimi, bütün bunlar çox böyük praktiki təsirə malik olacaqdır. Əgər biz elektrik enerjisi istehsalı üçün təbii qaz istehlakını yalnız bərpaolunan enerji resursları hesabına 50 faiz azaltsaq, daha 2,5-3 milyard kubmetr qazı bu saat ehtiyacı olan Avropaya göndərə bilərik. Bu, hər iki tərəf üçün faydalı bir vəziyyətdir. Növbəti COP konfransı gələn il keçirilməlidir. Əgər bu son maneə də aradan qaldırılsa, ADA Universiteti məxsusi olaraq bu məsələyə həsr olunmuş yaxşı bir konfrans keçirəcəkdir.

**Roma Sapienza Universitetinin nümayəndəsi Valentina Şabert:** Təşəkkür edirəm, cənab Prezident. Şuşadakı görüşümüzdən sonra Sizinlə burada görüşməkdən şərəf duyuram. Sualım Qarabağda 30 illik işğalın yan təsirlərindən biri olan ekoloji ziyanla bağlıdır. İşğal olunmuş bütün ərazilər ötən ilin sentyabrında azad edildikdən sonra orada ekoloji vəziyyəti necədir? İşğal müddətində ətraf mühitə ziyan vurmuş Ermənistanın və özəl şirkətlərin beynəlxalq məsuliyyətini hüquqi cəhətdən qiymətləndirməklə bağlı planlarınız varmı? Çox sağ olun.

(ardı 6-cı səhifədə)

# Naxçıvana yol legitim hüququmuzdur

## Prezident İlham Əliyev "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda iştirak edib

(əvvəli 5-ci səhifədə)




**Prezident İlham Əliyev:** İşğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyət göstərən şirkətlərlə bağlı hüquqi prosedurlar İkinci Qarabağ müharibəsi başa çatdıqdan dərhal sonra başlanılıb. Xüsusilə mədənçilik, qızıl və digər qiymətli metalların hasilatı ilə məşğul olan şirkətlərlə bağlı prosedurları nəzərdə tuturam. Məlumdur ki, hüquqi proseslər kifayət qədər vaxt aparır. Amma təbii sərvətlərimizi qanunsuz şəkildə mənimsəyənlərin məsuliyyətə cəlb edilməsi üçün artıq üç ilə yaxındır ki, müxtəlif hüquq şirkətləri ilə fəal iş aparırıq. Hazırda işğaldan yeni azad edilmiş ərazilərdə vəziyyətin qiymətləndirilməsi üzrə iş gedir. Müxtəlif dövlət qurumlarının nümayəndələrindən ibarət xüsusi qrupumuz kəndbəkənd, sahəbəsahə gəzərək ərazilərin monitorinqini davam etdirir, ekoloji ziyanı qiymətləndirir. Sentyabrda işğaldan azad edilmiş ərazidə ekoloji ziyanın həcminin böyük olacağını gözləmirəm, çünki həmin ərazidə əsasən erməni əhalisi yaşayırdı. Onlar əsasən azərbaycanlı əhalinin yaşadığı ərazilərə ziyan vurublar, xüsusilə Kəlbəcər, Laçın və Zəngilan meşələrinə daha çox ziyan dəyib. 60 min hektardan çox ərazidə ağaclar kəsilib. Bunu həmin ərazilərin əvvəlki və sonrakı vəziyyətini əks etdirən peyk şəkilləri, habelə fiziki monitorinqimizə əsaslanan təhlil də göstərir. Təbii ki, transsərhəd çayların, xüsusən də Zəngilan ərazisindən keçən Oxçuçayın bəzən sarı rəngə boyanması böyük narahatlıq doğurur. Bu, həqiqətən də ekoloji fəlakətdir. Hazırda əsas qayğımız 2020-ci ildə işğaldan azad edilmiş ərazilərə dəyən ekoloji zərərin düzgün qiymətləndirilməsidir. İşğaldan yenicə azad edilmiş ərazilərdə biz əsas diqqəti mülkiyyətin düzgün qiymətləndirilməsinə, eləcə də qanunsuz sahibkarlıq fəaliyyəti ilə bağlı faktların araşdırılmasına yönəltmişik. Oradakı zavodların sahibləri yalnız yerli separatçı liderlər deyil, habelə müxtəlif ölkələrdəki erməni diasporunun nümayəndələri idilər. Onlar məsuliyyətə cəlb olunmalıdırlar. Prosesin uzanacağını başa düşürük, lakin, eyni zamanda, onları təqib etməyə davam edirik.

**Brüssel Diplomatik Akademiyasının müşaviri Jean de Brabander**: Zati-aliləri, ilk növbədə, məndən əvvəl çıxış edən həmkarlarıma qoşularaq Sizi Qarabağ məsələsinin həlli münasibətilə təbrik etmək istərdim. Sualım daha çox bundan əvvəl qaldırılmış və artıq qismən cavablandırılmış Orta Dəhliz mövzusu ilə bağlıdır. Mən bu bölgəyə Peter Frankopanın kitabını oxuduqdan sonra diqqət yetirməyə başladım və dərhal bölgənin, xüsusən də Xəzər hövzəsinin nə dərəcədə əhəmiyyətli olduğunun şahidi oldum. Lakin heç vaxt gözləmirdim ki, Orta Dəhliz mövcud şəraitdə bu qədər böyük əhəmiyyət kəsb edəcək. Dənizçilik fəaliyyəti ilə əlaqədar olaraq Aktau, Bakı və Türkmənbaşı şəhərləri arasında üçtərəfli əlaqəni təmin etmək üçün mövcud potensialdan istifadə və kadr hazırlığı ilə bağlı təşəbbüslər mövcuddurmu? Növbəti sualım isə Türkmənistanla bağlıdır, bu sual hələ verilməmişdir. Türkmənistanla mümkün əlaqəni necə görürsünüz?

**Prezident İlham Əliyev:** Hazırda Azərbaycan Mərkəzi Asiya ölkələrinə, ilk növbədə, Qazaxıstana və Türkmənistana tranzit xidməti göstərir. Xəzərin şərq hissəsindən gələn tranzit yüklərin böyük hissəsi bu iki ölkədən, həmçinin Mərkəzi Asiyanın digər ölkələrindən, qismən də Çindən gəlir. Uzun illərdir ki, Türkmənistan nefti bizim tankerlərlə nəql edilərək Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinə daxil olur. Bu ildən cüzi miqdarda olsa da, Qazaxıstan neftinin də nəqlinə başlanılıb. 1,5 milyon ton neftin daşınması üzrə müqavilə imzalanıb. O da Azərbaycana gətirilərək BTC boru kəmərinə daxil olur. Bu, çox yaxşı bir layihədir, həm də ona görə ki, BTC-nin əvvəlkindən daha böyük həcmdə doldurulmasına imkan verir. Xəzəryanı tərəfdaşlarımız üçün bu, həmçinin tədarük marşrutlarını şaxələndirmək imkanı yaradır ki, bu da tamamilə anlaşılandır.

Hazırda gəmiqayırma zavodumuzun genişləndirilməsi potensialının qiymətləndirilməsi üzrə iş aparılır. Əldə olunan çox nikbin məlumata görə, bu zavodda artıq bütün növ gəmilər istehsal etmək mümkündür. Müqayisə üçün deyim ki, hazırda burada ildə 12 min ton tutumlu 6 tanker istehsal etmək olar. Təkmilləşdirmə işləri nəticəsində bu göstəricini 10-15 tankerə çatdırmaq mümkün olacaq. Düzdür, istehsal edilən gəmilərin hamısı tanker olmayacaq, arasında quru yük gəmiləri, bərə qayıqları da olacaq. Mən bu misalı mənzərəni daha yaxşı təsvir etməyiniz üçün çəkdim. Bu, Orta Dəhlizin əhəmiyyətinin və potensial yüklərin həcmi barədə təsəvvürümüzün göstəricisidir. Aydındır ki, Xəzər dənizi ilə daşınan yüklərin həcmi və marşrutların sayı artacaq. Bu məqsədlə biz bir milyon TEU daxil olmaqla, dəniz ticarət limanımızın ötürücülük qabiliyyətinin mövcud 15 milyon tondan 25 milyon tona qədər artırılması mərhələsini həyata keçiririk. Bu isə qarşıdakı 2-3 il ərzində bizim Orta Dəhlizə töhfəmiz olacaqdır. Eyni zamanda, biz Azərbaycan, Türkiyə, Qazaxıstan və Gürcüstanın müvafiq nəqliyyat strukturlarının rəsmilərinin çoxtərəfli görüşünün keçirilməsi təşəbbüsü ilə çıxış etdik, bunun üçün əməkdaşlıq formatı yaratdıq. Tariflər və rəqəmsallaşma, eləcə də gömrük məsələlərinin həlli ilə bağlı işlər görürük. Çünki gömrükdə vaxt itkisi çox olur. Cəlbedicilik baxımından vaxt əsas meyardır. Bütün ölkələrin gömrük qurumları daha çox səfərbər olarsa, yaxud öz işlərini daha çox əlaqələndirərsə, proses daha sürətlə gedəcəkdir. Üstəlik, dediyim kimi, dəmir yollarının fiziki genişləndirilməsi. Bütün bu işlər hazırda Azərbaycan ərazisində görülür. Hətta bu işləri tamamladıq.

Eyni zamanda, biz Azərbaycan ərazisindən də keçən və bizim ərazimizdə tam hazır olan Şimal-Cənub nəqliyyat dəhlizi üzərində fəal işləyirik. Hazırda bizə yalnız Şimal-Cənub xəttinin ötürücülük qabiliyyətini artırmaq lazımdır. Yəni, necə ki, Bakıdan Gürcüstan sərhədinə qədər olan dəmir yolu xəttini modernləşdirdik, eyni işi indi də Rusiya ilə sərhədimizdən İranla sərhədimizə qədər olan hissədə etməliyik. Təkmilləşdirmə işləri görülməlidir. Lakin fiziki olaraq dəmir yolları mövcuddur. Bu marşrut da Körfəzdən Azərbaycana, buradan da Gürcüstana qədər uzanan Cənub-Qərb marşrutu kimi Orta Dəhlizin bir hissəsi ola bilər. Yəni, Şimaldan, Rusiyadan gələ bilər. Yeri gəlmişkən, marşrut artıq bir neçə Rusiya şirkəti tərəfindən istifadə olunur. Azərbaycandan Gürcüstana, oradan isə Avropaya uzanan bir marşrut. Bir sözlə, böyük potensial mövcuddur. Müsbət amillərdən biri də iştirakçı dövlətlər arasında, yəni, Mərkəzi Asiya ölkələri, Azərbaycan, Gürcüstan və Türkiyə arasında münasibətlərin yaxşı səviyyədə olmasıdır. Bu, mühüm bir amildir, eləcə də ümumi, ortaq fayda deməkdir. Amma təbii olaraq, onu da qeyd edim ki, son geosiyasi vəziyyət, nəqliyyat obyektlərində baş verən son dəyişikliklər, belə demək mümkündürsə, Xəzər üzərindən keçən dəhlizin önəmini əhəmiyyətli dərəcədə artırıb.

**Hikmət Hacıyev:** İlayda Nijhar.

**"Overseas Development İnstitute" təşkilatının nümayəndəsi İlayda Nijhar (Britaniya):** Çox sağ olun. Mən Londonda fəaliyyət göstərən "Overseas Development İnstitute" təşkilatının nümayəndəsiyəm. Əvvəlcə digər iştirakçıların səsləndirdikləri qeydlərə münasibət bildirmək istəyirəm. Dünən Zəngilanda olmaq, ondan sonra isə Şuşaya səfər etmək və Sizin oradakı nümayəndələrinizlə görüşmək üçün əla bir imkanımız oldu. Bilmək istərdim ki, Azərbaycanın texniki innovasiyalara, xüsusilə süni intellekt və informasiya texnologiyaları kimi sahələrə ayırdığı diqqəti onun digər texnologiyayönümlü ölkələrə münasibətdə regional təsir imkanlarına və geosiyasi mövqeyinə necə təsir edir? Bilirəm, indi qeyd edəcəyim mövzunu artıq əhatə etmişik, lakin bir az bu məsələyə toxunmağınızı istərdim - Azərbaycanın Cənubi Qafqazda regional sabitliyin və əməkdaşlığın təşviqində rolu, xüsusilə Ukrayna müharibəsindən sonra. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Texnoloji inkişafla bağlı. Bu, bizim inkişaf gündəliyimizdə duran ən vacib amillərdən biridir. Bu ilin oktyabr ayında biz Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etdik, hansı ki, bu sahədə dünya miqyasında ən böyük tədbir sayılır. Yeri gəlmişkən, biz bu tədbirə ikinci dəfədir ev sahibliyi edirdik. Birinci dəfə bu tədbirə Sovet İttifaqının dövründə ev sahibliyi etmişdik. Tədbir Bakıda 1973-cü ildə keçirilmişdi. İndi isə 50 il sonra yenə də Bakıda keçirildi. Müzakirə olunan məsələlərdən biri də və yeri gəlmişkən, Konqresin açılış sessiyasında, süni intellektin məşhur tədqiqatçısı və məşhur yazıçı cənab Harari bu məsələ ilə bağlı çıxış etdi, onun təhlükəsindən, potensialından danışdı. Bu, çox maraqlı bir təqdimat idi. Beləliklə, biz bu məsələnin üzərində işləyirik. Biz Rabitə Nazirliyimizi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə restrukturlaşdırdıq.

Bizim peyklər və gələcəkdə həyata keçiriləcək layihələr sayəsində kosmik sənayenin inkişafı ilə bağlı artıq müəyyən təcrübəmiz var. Bizim texnoloji transformasiyaya hazırlığımızı nümayiş etdirən amillərdən biri də ondan ibarətdir ki, Davos Dünya İqtisadi Forumu Azərbaycanı Dördüncü Sənaye İnqilabı üzrə mərkəzinin yerləşdiyi ölkə kimi seçmişdir. Bu mərkəzin açılışı bir neçə il bundan əvvəl olmuşdur. Bu mərkəzin Qafqazı və Mərkəzi Asiyanı əhatə etməsi bizi fərəhləndirir. Biz Dördüncü Sənaye İnqilabının həyatımıza sürətli müdaxiləsi ilə müşayiət olunacaq çağırışların, xüsusilə məşğulluqla bağlı çağırışın idarə edilməsi üzərində fəal çalışırıq.

Azərbaycanda müsbət demoqrafik vəziyyət mövcuddur və mən bunu müsbət amil hesab edirəm. Lakin, eyni zamanda, bu, bizi məşğulluq məsələsi üzərində işləməyə məcbur edir. Müstəqillik dönəmində əhalimiz yeddi milyondan on milyona və hətta bundan da çox artdı. Beləliklə, məşğulluq bizim üçün iqtisadi və sosial inkişafın çox mühüm amilidir. Buna görə də sənaye inqilabı insanların adət etdiyi bir çox işləri aradan qaldırdıqda o, ciddi bir problem yaradacaq. Buna görə də bizim xalqımız, gənc nəslimiz indi mövcud olmayan yeni işlərdə çalışmağa hazır olmalıdır. Bu məqsəd üçün isə əlbəttə ki, Elm və Təhsil Nazirliyi tərəfindən çoxlu işlər görülməlidir. Yeri gəlmişkən, bu nazirlikdə də nisbətən bu yaxınlarda islahatlar aparılmışdır. İndi onun adı Elm və Təhsil Nazirliyidir. Peşə təhsili, biz ona da böyük önəm veririk. Beləliklə, bütün bunlar, texnoloji inkişaf, təhsil və əlbəttə ki, beynəlxalq təmaslar və aparıcı IT şirkətləri ilə əməkdaşlıq. Deyərdim ki, bütün aparıcı IT şirkətləri ilə mükəmməl əməkdaşlığımız mövcuddur. Beləliklə, bu, Texnoloji İnkişaf Mərkəzi kimi özünü təqdim etmək üçün Azərbaycanın gələcəyidir.

Neft və qaz layihələri tamamlananda, indi nəhəng yaşıl hidrogen və yaşıl enerji layihələrinə start verdikdə, Avropaya nəqletmə və ixrac imkanları, həmçinin Mərkəzi Asiya ilə potensial bağlantı imkanı nəzərə alınmalıdır. Çünki Mərkəzi Asiya ölkələrində yaşıl enerjini istehsal etmək üçün çoxlu investisiya layihələri mövcuddur. Biz hətta Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilişi haqqında düşünürük. Bununla yanaşı, Xəzər dənizinin dibi ilə Avropaya gedəcək fiber-optik xətt də çəkiləcək. Azərbaycanın coğrafiyası böyük bir imkandır. Lakin bu coğrafiyada infrastruktur olmayanda, bu, sadəcə, xəritə üzərində bir yerdir. Beləliklə, biz onu doldurmalıyıq və biz ixtiraçılar tərəfindən yaradılan prosesləri qabaqlamalıyıq. İndi ola bilsin Azərbaycanı çox müasir texnoloji innovasiyaları yaradan ölkə kimi təsəvvür etmək real görünmür. Lakin zaman gələcək və biz bunu edəcəyik. Lakin biz bu innovasiyaları ölkəmizdə tətbiq etməyə hazır olmalıyıq. Bunun üçün bizə təlim keçmiş personal və bağçadan başlayaraq, məktəb və universitetlərdə təhsil lazımdır. Digər bir sual da vermişdiniz, mən onu unutdum.

**İlayda Nijhar:** Sual Ukrayna müharibəsindən sonra Azərbaycanın regional əməkdaşlığı və sabitliyi necə təşviq etməsi ilə bağlı idi.

**Prezident İlham Əliyev:** Bu baxımdan Azərbaycanda vəziyyət sabitdir. Bizim daxili vəziyyətimiz xarici amillərdən asılı deyil. Buna baxmayaraq, sərhədlərimizin xaricində olan vəziyyət həmişə ciddi narahatlıq doğuran bir məsələdir. Bunu həmişə nəzərə almaq lazımdır. Lakin daxili risklər nöqteyi-nəzərindən bizdə daxildə ciddi çağırışlar yoxdur. Sərhədlərimizin lazımi şəkildə müdafiəsi ilə bağlı biz indi müxtəlif layihələri icra edirik, bunlar bizə istənilən potensial riski minimuma endirməyə imkan verəcək. Təşəkkür edirəm.

**Hikmət Hacıyev:** Əkrəm Umarov.

**Qabaqcıl Beynəlxalq Araşdırmalar İnstitutunun direktorunun müavini Əkrəm Umarov:** Zati-aliləri, Sizə sual vermək imkanı yaratdığınız üçün çox sağ olun. Bir çox digər həmkarlarım kimi, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı yenidənqurma işləri məni də həqiqətən heyran etmişdir. Sonuncu dəfə mənə Ağdamı ziyarət etmək şərəfi nəsib olmuşdur. Dünən biz Zəngilana səfər etdik. Çox qısa müddət ərzində bizə müsbət təsir bağışlayan dəyişikliklər baş verir. Mənim sualım Azərbaycanla Mərkəzi Asiya arasında dərin köklərə malik olan münasibətlərlə bağlıdır. Əvvəllər bu münasibətlər, sadəcə, xalqlararası təmaslara söykənirdi. Burada məşhur azərbaycanlı coğrafiyaçı akademik Həsən Əliyevin mənim babamın, özbək coğrafiyaçısının yaxın dostu olduğunu qeyd etməliyəm. O, bizim Səmərqənddəki evimizi bir neçə dəfə ziyarət etmişdir. İndi xalqlararası təmaslar başqa səviyyəyə keçir, çox dərin iqtisadi və siyasi əməkdaşlıqla daha da yüksəlir. Hesab edirəm ki, bu ilin sentyabrında Mərkəzi Asiya ölkələrinin Məşvərət Şurasının iclasında iştirak etməyiniz də böyük nailiyyətdir. Bu baxımdan Azərbaycanın əlavə praktiki prioritetlərini harada görürsünüz? Azərbaycan ilə Mərkəzi Asiya arasında münasibətlərin daha da gücləndirilməsində mövcud olan çağırışlar barədə düşünmək də vacibdir. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Siz bizim uzun əsrlər boyu davam edən əməkdaşlığımızın və dostluğumuzun, - hansını ki, xalqlar arasında təmaslar təşkil edir, - çox vacib bir amilini qeyd etdiniz. Əslində, xalqlar arasında bu təmaslar və ənənələr, xatirələr bu günün inkişafının təməlini təşkil edirdi. Ölkələrimizin erkən müstəqillik illərində hər birimiz çağırışlarla üzləşmişdik, hər birimiz ölkədaxili vəziyyətlə məşğul idik. Bəzi ölkələrdə bu vəziyyət çox ciddi hal almışdı, Azərbaycanda da belə olmuşdu. Tacikistanda vətəndaş müharibəsi olmuşdu və sair. Lakin hər bir ölkənin üzləşdiyi çağırışlar var. Beləliklə, biz əsasən bununla məşğul idik. Dövlətçiliyin qurulması, iqtisadiyyatın qurulması və suveren dövlətin qurulması. Dövləti sıfırdan qurmaq asan deyildi, xüsusilə maliyyə resurslarının məhdud olduğu və siyasi sabitliklə məşğul olduğunuz bir vəziyyətdə. Beləliklə, o vaxt hətta Mərkəzi Asiya ölkələrinin özləri arasında bugünkü kimi, güclü inteqrasiyanın olmaması təbii idi. Son illərdə Mərkəzi Asiya ölkələri bir-birinə daha çox inteqrasiya etdi. Mən Mərkəzi Asiya ölkələrinin rəhbərlərinin iştirak etdikləri, ev sahibliyi etdiyimiz SPECA Zirvə görüşündə çıxışımda dedim ki, bizim hamımız üçün vacib amillərdən biri siyasi sabitlikdir, xüsusilə indi ətrafımızda qeyri-sabitlik dalğasının artdığını müşahidə etdiyimiz bir dövrdə. Bizim regionu və dünyanı, dünyanın müxtəlif yerlərini nəzərdə tuturam. Düşənbədə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının Zirvə görüşündə yeganə fəxri qonaq qismində iştirak etmək üçün dəvət almaq böyük hörmət əlaməti və dostluğumuzun təzahürü idi. Mərkəzi Asiya ölkələrinin bütün rəhbərləri ilə mənim çox yaxşı və dost münasibətim var. Dediyim kimi, xalqlararası münasibətlər bunun təməlini təşkil edir.

Eyni zamanda, əslində, bizi daha da yaxından inteqrasiyaya aparan bir çox layihələr də mövcuddur. SPECA Zirvə görüşünün, 25 il bundan əvvəl yaradılmış BMT-nin Mərkəzi Asiya ölkələrinin iqtisadiyyatları üçün Xüsusi Proqramının burada təşkil edilməsi və sonra da Azərbaycanın ona qoşulması. Mən onu da dedim ki, Mərkəzi Asiya və Azərbaycan bir tarixi və coğrafi ərazidir. İndi siyasi müstəvidə bu qarşılıqlı əlaqə və konkret layihələr ilə biz sinerji yarada bilərik və bunu edirik. Siyasi müstəvidə qarşılıqlı əlaqədən danışdıqda görürük ki, bütün beynəlxalq təsisatlarda, o cümlədən BMT və digər təşkilatlarda avtomatik qarşılıqlı dəstək mövcuddur. İqtisadiyyatla bağlı məsələlər haqqında danışdıqda qarşılıqlı ticarətin artımını görürük. Enerji və nəqliyyat marşrutları bizi birləşdirir. Hazırkı geosiyasi reallıqda bir çox Mərkəzi Asiya ölkələri üçün Azərbaycandan keçən marşrut prioritet marşrutlardan biri hesab olunur. Dediyim kimi, nəqliyyat sahəsi ilə bağlı etdiklərimiz artıq bizə onların göndərə biləcəyi bütün yükləri qəbul etmək imkanını verir. Əks istiqamətdə də, siz məndən daha yaxşı bilirsiniz ki, Avropa təsisatlarından böyük maraq var. Avropa liderlərinin və Avropa təsisatlarının rəhbərlərinin Mərkəzi Asiyaya səfərləri var.

Daha çox qarşılıqlı əlaqəyə gəldikdə, biz həmişə bunu dəstəkləyirik və Avropadan Mərkəzi Asiyaya gedən yol da yenə Azərbaycandan keçir. Mən həmişə deyirəm ki, bizim qarşımızda bir maneə var, o da Xəzər dənizidir. Lakin müasir texnologiya, qurduğumuz donanma ilə bu maneə olmayacaq. Beləliklə, mən bu məsələyə böyük nikbinliklə baxıram. Bizim çoxlu investisiya layihələrimiz var. Mən, sadəcə, onların hamısını sadalamaqla auditoriyanın vaxtını almaq istəmirəm. Lakin həqiqətən də bu investisiya layihələri milyardlarla ABŞ dolları dəyərində qarşılıqlı investisiyalardan ibarətdir. Mən hələ heç enerji və nəqliyyat sahələrini demirəm. Beləliklə, bu, yeni reallıqdır və çox müsbət nəticələr var.

**Hikmət Hacıyev:** Tengiz Pxaladze.

**Beynəlxalq Siyasi İqtisadiyyat üzrə Avropa Mərkəzinin əməkdaşı Tengiz Pxaladze:** Çox sağ olun cənab Prezident. Mən gürcüyəm, lakin Beynəlxalq Siyasi İqtisadiyyat üzrə Avropa Mərkəzində çalışıram. Cənab Prezident, bu imkan üçün Sizə təşəkkür edirəm. Dünən Zəngilana səfərimiz həqiqətən unudulmaz bir təcrübə idi və əldə etdiyiniz bütün nailiyyətlərlə bağlı Sizi səmimi-qəlbdən təbrik edirəm. Əslində, mən Gürcüstanla bağlı və ya sülh prosesində gənclərin rolu haqqında bütün suallarıma ətraflı cavab aldım. Mən, sadəcə, Sizə sülh və əmin-amanlıq, doğma Azərbaycana ən xoş arzularımı çatdırıram. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Çox sağ olun. Sizə və bütün gürcü qardaşlarımıza ən xoş arzularımızı çatdırıram. Azərbaycan haqqında xoş sözlərinizə görə təşəkkür edirəm.

**Hikmət Hacıyev:** Cənab Prezident, artıq demək olar ki, üçüncü saata yaxınlaşırıq. Sonuncu iyirminci sual. Ventsezlav Sabev.

**Cenevrə Geostrateji Observatoriyasının baş direktorunun müavini Ventsezlav Sabev:** Bəli, biz sona yaxınlaşırıq. Mən Cenevrə Geostrateji Observatoriyasını təmsil edirəm və məcburi köçkünlər məsələsinə qayıtmaq istəyirəm. Cənab Prezident, Siz məcburi köçkünlərin qayıtmasına əsas maneə olan mina problemini qeyd etdiniz. Bir neçə ay bundan əvvəl Qoşulmama Hərəkatının Zirvə görüşündə Siz qlobal bir təşəbbüs irəli sürərək humanitar məqsədlər üçün minaların təmizlənməsi ilə bağlı 18-ci Dayanıqlı İnkişaf Məqsədinin əlavə olunmasını təklif etdiniz. Silahsızlaşdırma üzrə qlobal hab olan Cenevrədən gəldiyim üçün biz ABŞ-dan, Avropadan QHT-ləri, vətəndaş cəmiyyəti institutlarını və ziyalıları bir araya toplamaq təşəbbüsü ilə çıxış edirik. Əlbəttə ki, burada Cenevrə də var, Azərbaycan və başqa tərəfdaşlar ola bilər. Bizim bu beynəlxalq təşəbbüsü reallaşdırmaq istədiyimiz barədə bu mesajı Sizə çatdırıram və bu təşəbbüsün Sizin başladığınız beynəlxalq layihəyə dəstək olaraq həyata keçirilməsinin mümkünlüyünü soruşmaq istəyirəm. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Bu məsələni qeyd etdiyiniz üçün çox sağ olun. Bəli, mən belə bir təşəbbüs irəli sürmüşəm. Bizim Qoşulmama Hərəkatında sədrliyimiz sona çatır. Bu dörd il Qoşulmama Hərəkatının institusional inkişafı baxımından bizim üçün çox vacib olmuşdur. Hesab edirəm ki, 119 üzv ölkə ilə təmaslar və Zirvə görüşlərinin təşkili baxımından Qoşulmama Hərəkatı böyük tərəqqi, həm də böyük beynəlxalq təcrübə əldə etmişdir. Humanitar məqsədlər üçün minaların təmizlənməsinin Dayanıqlı İnkişaf Məqsədləri sırasına daxil edilməsi ideyası bizim xoşagəlməz təcrübəmizə əsaslanır. Biz hələ də insanları, həyatları itiririk və demək olar ki, hər həftə bizdə xəsarət alanlar olur. Əfsuslar olsun ki, dünən yenə də istehkamçılardan biri mina partlayışının qurbanı oldu. Artıq demək olar ki, 350 nəfər minanın qurbanı olub, onlardan 65-i həyatını itirib. Faciə isə ondan ibarətdir ki, Ermənistanın bizə xəritələri verməsini deməsinə baxmayaraq, əslində, bu xəritələr faydasızdır. O ərazilərdəki onların bizə verdikləri xəritələr onların qənaətinə görə dəqiq idi, bizdə çoxlu insan mina partlayışından zərər çəkir. İkinci Qarabağ müharibəsindən sonrakı və antiterror əməliyyatından əvvəlki dönəmdə onlar separatçılar və Azərbaycan Silahlı Qüvvələri arasında təmas xətti hesab etdikləri ərazidə yenə də yüz minlərlə mina basdırmışlar. Biz 2021-ci ildə Ermənistanda istehsal olunmuş minaları müəyyən etmişdik. Biz Rusiya sülhməramlılarını, həmçinin Rusiya-Türkiyə Monitorinq Mərkəzinin nümayəndələrini dəvət etdik və bu minaları onlara nümayiş etdirərək dedik ki, bu, erməni terrorunun sübutudur. Bu minaların İkinci Qarabağ müharibəsindən sonra Rusiya sülhməramlı missiyası zamanı Qarabağa necə daşınması başqa bir sualdır. Bu, açıq qalan böyük sualdır. Lakin indi bizim hesablamalarımıza görə, işğal dövründə basdırdıqları bir milyona yaxın minanın əvəzinə, onlar bizə dörd yüz min minanın xəritəsini verdi. Lakin dediyim kimi, bu xəritələrin dəqiqliyi yalnız 25 faiz təşkil edirdi. İndi yüz minlərlə yeni mina basdırılıb.

Sabiq məcburi köçkünləri həmişə doğma yurdlarına geri göndərdikdə onlara verdiyimiz əsas mesaj ondan ibarətdir ki, ehtiyatlı olun və girişi məhdudlaşdırılan ərazilərə getməyin. Girişi məhdudlaşdırılan bütün ərazilərin sərhədləri var, orada nişanlar var. Lakin, eyni zamanda, ola bilsin ki, bu, bizim on illər boyunca üzləşdiyimiz faciə olacaq. Balkan ölkələrinin təcrübəsi onu göstərir ki, hətta indi, 30 il sonra onlar bu problemi yaşayırlar. Biz minatəmizləmə əməliyyatlarının mümkün qədər tez aparılması üçün əlimizdən gələni edirik. Lakin bilirsiniz ki, bu, çox ləng gedən bir prosesdir. Bizim avadanlığımız və təlim keçmiş personalımız yoxdur. Avadanlığı almaq olar, lakin təlim keçmiş personal, bu, çox spesifik bir işdir. Biz beynəlxalq şirkətləri də dəvət etməyə çalışdıq, lakin sizə deyə bilərəm ki, bir kvadratmetr üçün onların tələb etdiyi xidmət haqqı bizim xərclədiyimiz vəsaitdən əlli və ya yüz dəfə yüksəkdir. Yatırımın geri dönüşü, əgər bunu belə adlandırmaq olarsa, qəbuledilməzdir. Buna görə beynəlxalq təsisatlar bu məsələyə dəstək göstərərsə, biz çox şad olardıq. Çünki bu məsələdən təkcə Azərbaycan əziyyət çəkmir. Biz neçə ölkənin bu problemdən əziyyət çəkdiyini bilirik. Söhbət təkcə maliyyə dəstəyindən getmir. Əslində, bizim maliyyə dəstəyinə ehtiyacımız yoxdur. Söhbət texniki dəstəkdən və bizə bunu mümkün qədər tez etməyə kömək göstərəcək təlim keçmiş personaldan gedir.

**Hikmət Hacıyev:** Cənab Prezident hərtərəfli müzakirə üçün bütün iştirakçılar adından Sizə dərin təşəkkürümüzü və minnətdarlığımızı bildirmək istəyirik. Son sözü isə tədbirimizə ev sahibliyi edən səfir Hafiz Paşayevə vermək istəyirəm.

**Hafiz Paşayev:** Bəli, cənab Prezident, həmişəki kimi, bu müzakirə bütün iştirakçılar üçün faydalı oldu. Bir daha Siz bizim qarşımıza yeni vəzifə qoydunuz - növbəti dəfə, ola bilsin 5-6 aydan sonra bir daha görüşmək. Bu üçsaatlıq təcrübə üçün çox sağ olun.

**Prezident İlham Əliyev:** Diqqətiniz və səbirli olduğunuz üçün təşəkkür edirəm. Çox sağ olun.

Sonda xatirə şəkli çəkdirildi.

# Regionda sülh üçün tarixi imkan yaranıb

## *Prezident İlham Əliyev ABŞ Dövlət katibinin köməkçisini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 6-da ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynı qəbul edib.**

Görüşdə ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın ölkəmizə səfərinin ikitərəfli əlaqələrin müxtəlif aspektlərinin müzakirəsi və regional məsələlər ətrafında fikir mübadiləsinin aparılması baxımından əhəmiyyəti qeyd edildi.

Prezident İlham Əliyev Azərbaycan ilə ABŞ arasında münasibətlərin zəngin tarixinin olduğunu deyərək, ölkələrimizin Azərbaycanın müstəqilliyi illərində müxtəlif sahələrdə əməkdaşlıq əlaqələri qurduğunu, xüsusilə energetika sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi.

Dövlətimizin başçısı 44 günlük Vətən müharibəsi başa çatandan sonra Ermənistanın öz öhdəliklərini yerinə yetirmədiyini, Azərbaycan ərazilərinə silah-sursat və hərbi qulluqçular göndərdiyini, separatizmi dəstəklədiyini qeyd edərək, Azərbaycanın antiterror tədbirlərini öz suveren ərazilərində keçirdiyini, təcavüzkar separatizmə son qoyduğunu və əməliyyatın keçirilməsi zamanı nümunəvi şəkildə beynəlxalq humanitar hüququn tələblərinə riayət etdiyini, mülki insanlara və infrastruktura hər hansı zərərin dəymədiyini diqqətə çatdırdı.

Ölkəmizin regional sülh gündəliyini dəstəklədiyini vurğulayan Prezident İlham Əliyev bildirdi ki, münaqişə başa çatandan və Azərbaycan suverenliyini tam şəkildə bərpa edəndən sonra sülhün bərqərar olunması üçün tarixi imkanlar yaranıb və ABŞ da yeni reallıqlar nəzərə alınaraq bu prosesə öz töhfəsini verə bilər.

Prezident İlham Əliyev enerji sahəsində əməkdaşlığı, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu və bərpaolunan enerji potensialının inkişafı istiqamətində Xəzərdə və Qara dənizdə həyata keçirilən layihələri qeyd etdi.

Dövlətimizin başçısı regionda Orta Dəhliz üzrə yeni nəqliyyat-logistika imkanlarının yarandığını, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə tərəfdaşlığının daha da genişləndiyini dedi və bu istiqamətdə yeni əməkdaşlıq imkanları barədə danışdı.

Ceyms O'Brayn öz növbəsində ABŞ ilə Azərbaycan arasında əlaqələrin dərin köklərə malik olduğunu və ölkələrimizin yaxşı tərəfdaşlar olduqlarını vurğuladı. O, Azərbaycanın enerji resurslarının dünya bazarlarına çıxarılmasında ABŞ-ın roluna toxundu, ölkəsinin regionda sülh gündəliyini, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşmasını, sülh müqaviləsi üzrə danışıqları dəstəklədiyini dedi, bu xüsusda danışıqların Vaşinqtonda davam etdirilməsi üçün ABŞ-ın hazır olduğunu diqqətə çatdırdı.

Ceyms O'Brayn Transxəzər nəqliyyat dəhlizi konsepsiyasının inkişafı, həmçinin Ermənistan ilə Azərbaycan arasında kommunikasiyaların açılması üzrə müzakirələrin davam etdirilməsinin ABŞ tərəfindən dəstəkləndiyini vurğuladı. O, ABŞ–Azərbaycan münasibətlərində gələcəyə baxışın vacibliyini bildirdi.

Görüşdə ikitərəfli münasibətlərin irəli aparılması üçün qarşılıqlı səfərlərin bərpa edilməsi müsbət addım kimi dəyərləndirildi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# Prezident Administrasiyasında Böyük Britaniya naziri ilə görüş



**Dekabrın 6-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyev ölkəmizdə səfərdə olan Böyük Britaniyanın ixrac məsələləri üzrə dövlət naziri Lord Malcolm Offord ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında qurulan möhkəm dostluq münasibətlərindən və çoxşaxəli əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edilib. Neft-qaz, ticarət, yaşıl enerjiyə keçid, nəqliyyat, təhsil və digər sahələrdə ikitərəfli əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulanıb.

Samir Nuriyev Ermənistanın hərbi işğalı dövründə Böyük Britaniyanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə verdiyi davamlı və prinsipial dəstəyi yüksək qiymətləndirib. Həmçinin Birləşmiş Krallığın beynəlxalq təşkilatlar çərçivəsində tutduğu balanslı mövqe müsbət dəyərləndirilib.

İkitərəfli əməkdaşlığın inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətli rol oynadığı vurğulanaraq, belə səfərlərin gələcəkdə də davam etdirilməsinin vacibliyi qeyd olunub.

Samir Nuriyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq layihələrinin, habelə yeni yaşayış məntəqələrinin salınması istiqamətində işlərin uğurla davam etdiyini diqqətə çatdırıb.

Görüşdə işğaldan azad edilmiş ərazilərimizdə Britaniya şirkətlərinin bərpa-quruculuq və yenidənqurma layihələrində iştirakından məmnunluq ifadə olunub və bu əməkdaşlığın davam etdirilməsinin əhəmiyyəti qeyd edilib. Xüsusilə Birləşmiş Krallığın Azərbaycanda humanitar minatəmizləmə layihələrinə verdiyi töhfələr təqdir olunub.

Azərbaycan Respublikasının Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın dekabrın 7-də Bakıda 6-cı iclasının keçiriləcəyi qeyd edilərək, vacib bir mexanizm kimi komissiyanın növbəti iclasının iki ölkə arasında əməkdaşlığın daha da inkişafına töhfə verəcəyinə əminlik ifadə olunub.

*XQ*

# Beynəlxalq Jurnalistlər Şurası Fransanı qınadı

**Dünyanın 64 ölkəsində təmsilçisi olan Beynəlxalq Jurnalistlər Şurasının Xarici Media Məclisi bir gün əvvəl Fransada azərbaycanlı jurnalist Aygün Həsənovanın təzyiqlərə məruz qalması ilə bağlı etiraz bəyanatı yayıb.**

Bəyanatda deyilir: "Biz bütün hallarda jurnalistlərə qarşı hər cür basqı və zorakılığı pisləyirik. Ötən gün Azərbaycanın rəsmi media qurumu AZƏRTAC-ın Yeni Kaledoniyaya ezam edilmiş əməkdaşı Aygün Həsənovaya qarşı olan basqılara görə, Fransa hökumətindən açıqlama istəyirik. Fransa kimi bir ölkədə jurnalistin peşəkar fəaliyyətinə maneə beynəlxalq hüquq və azadlıqlara ziddir. Dünyanın siyasi mərkəzlərindən birində belə hal baş verirsə, bu, bütün dünyadakı jurnalistləri məyus edir. Heç bir əsas göstərmədən jurnalistin polis bölməsində saxlanılaraq ölkədən çıxarılmasını jurnalistin informasiya əldə etmək hüququnun məhdudlaşdırılması kimi qiymətləndirir və qınayırıq", – deyə bəyanatda vurğulanıb.

*XQ*

## Finlandiya Respublikasının Prezidenti Zati-aliləri cənab Sauli Niinistöyə

**Hörmətli cənab Prezident,**

Finlandiya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 dekabr 2023-cü il**

## Qırğızıstana dostluq və qardaşlıq təbriki

**Dekabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qırğız Respublikasının Prezidenti Sadır Japarova zəng edib.**

Prezident İlham Əliyev Sadır Japarova ad günü münasibətilə səmimi təbriklərini və xoş arzularını çatdırıb, ona möhkəm cansağlığı və ali dövləti fəaliyyətində uğurlar arzulayıb.

Qırğızıstan Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Dövlətimizin başçısı Qırğızıstan Prezidenti ilə həm Azərbaycanda, həm də Qırğızıstanda keçirdiyi görüşləri məmnunluqla xatırlayıb, görüşlər zamanı aparılmış müzakirələrin qarşılıqlı etimada və dəstəyə əsaslanan dostluq və qardaşlıq münasibətlərimizin genişlənməsinə, strateji tərəfdaşlığımızın inkişafına mühüm təkan verdiyini qeyd edib.

Telefon danışığı əsnasında Azərbaycanın və Qırğızıstanın SPECA, Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdikləri vurğulanıb.

***Prezidentin Mətbuat Xidməti***

## AK Partinin nümayəndə heyəti Milli Məclisdə

**Milli Məclisin sədri Sahibə Qafarova dekabrın 6-da Türkiyənin Ədalət və İnkişaf Partiyası Sədrinin xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakayanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Söhbət zamanı Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" prinsipi əsasında Azərbaycan və Türkiyə arasında münasibətlər uğurla inkişaf etdirildiyi qeyd olunub. Vurğulanıb ki, hər iki dövlət başçısının dostluq və qardaşlıq münasibətləri ölkələrimiz arasında əlaqələrin dinamik inkişafına geniş imkanlar yaradır.

Bu münasibətlərin parlamentlər arasında da əməkdaşlığın daha da genişlənməsini şərtləndirdiyinin vurğulandığı görüşdə Şuşa Bəyannaməsində parlamentlərarası əlaqələrin inkişafına dair bəndin yer almasının ölkələrimiz arasında qanunvericilik sahəsində də əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi niyyətinin göstəricisi olduğunu diqqətə çatdırılıb.

Görüşdə, həmçinin Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iştirak edib.

*XQ*

## Milli Məclisdə Qərbi Azərbaycana qayıdış dinləməsi

**Dekabrın 6-da Milli Məclisdə parlamentin Gənclər və idman komitəsinin təşkilatçılığı ilə "Keçmişdən gələcəyə çağırış: Qərbi Azərbaycana qayıdış fəlsəfəsinə gənclərin baxışı" mövzusunda ictimai dinləmə keçirilib.**



Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev tədbirin Qərbi Azərbaycana qayıdışla bağlı Milli Məclisdə keçirilən ictimai dinləmələrin davamı olduğunu bildirib.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərov qeyd edib ki, Qərbi Azərbaycana qayıdışla bağlı bundan əvvəl Milli Məclisdə 4 dəfə geniş ictimai dinləmə keçirilib. O, İcmanın Qərbi Azərbaycan ərazisində tarixi abidələrimizin, mədəni irsimizin tanıdılması, təbliğ olunması, Qərbi azərbaycanlıların qayıdış tələbinin beynəlxalq müstəviyə çıxarılması ilə bağlı gördüyü işlər barədə məlumat verib, bu prosesdə bütün azərbaycanlıların, o cümlədən gənclərimizin üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb.

Qərbi Azərbaycan İcmasının hazırladığı 7 sənədin BMT-nin rəsmi sənədi kimi yayıldığını diqqətə çatdıran Ə.Ələkbərov əsas məqsədin qərbi azərbaycanlıların öz ata-baba yurdlarına dinc yolla və ləyaqətli şəkildə qayıdışının təmin edilməsi olduğunu deyib.

*XQ*

# Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli 1007 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasi Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1010-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli 1007 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1368; 2017, № 7, maddə 1372; 2020, № 2, maddə 107, № 7, maddə 868; 2021, № 2, maddə 126; 2023, № 3, maddə 350) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Nizamnaməsi”nin 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 5.3-1-ci bənd əlavə edilsin:

“5.3-1. Tam orta təhsil və ya orta ixtisas təhsili əsasında Akademiyanın ali təhsilin bakalavriat səviyyəsinin əyani təhsilalma formasına qəbul ediləcək şəxslərlə daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilə bağlanılır. Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul haqqında elanda həmin müqavilənin bağlanılmasının zəruriliyi barədə məlumat verilir.”.

**2.** 5.8-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Bu Nizamnamənin 5.3-1-ci bəndində göstərilən şəxslərin Akademiyaya qəbulu daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilə bağlanıldıqdan sonra Akademiya rəisinin əmri ilə rəsmiləşdirilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 dekabr 2023-cü il**

# “Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1010-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli 535 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1010-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”nin 10-7-ci maddəsinin ikinci cümləsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.2. həmin Əsasnamənin 10-2 – 10-4-cü maddələrində, 10-5-ci maddəsinin birinci cümləsində, 10-6-cı maddəsində, 10-7-ci maddəsinin ikinci cümləsində (birinci halda) və 10-8-ci maddəsində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Əsasnamənin 10-5-ci maddəsinin birinci cümləsində, 10-6-cı maddəsində, 10-7-ci maddəsinin ikinci cümləsində və 10-8-ci maddəsində “müvafiq icra hakimiyyəti orqanının xüsusi təyinatlı ali təhsil müəssisəsi” dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası nəzərdə tutulur;

1.4. həmin Əsasnamənin 10-7-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”nin 10-7-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında bakalavrların hazırlanmasına çəkilmiş xərclərin hesablanması qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. “Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1010-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”nin 10-7-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, tam orta təhsil və ya orta ixtisas təhsili əsasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının ali təhsilin bakalavriat səviyyəsinin əyani təhsilalma formasına qəbul ediləcək şəxslərlə daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilənin formasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**4.** “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli 535 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 472; 2008, № 3, maddə 171; 2010, № 12, maddə 1067; 2013, № 5, maddə 521; 2016, № 12, maddə 2058; 2017, № 3, maddə 350, № 7, maddə 1323) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2-ci hissə üzrə:

4.1.1. birinci abzasa “4-cü” sözündən sonra “, 10-2 – 10-4-cü maddələrində, 10-5-ci maddəsinin birinci cümləsində, 10-6-cı maddəsində, 10-7-ci maddəsinin ikinci cümləsində (birinci halda), 10-8-ci” sözləri əlavə edilsin;

4.1.2. ikinci və üçüncü abzaslar müvafiq olaraq üçüncü və dördüncü abzaslar hesab olunsun və aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

“həmin Əsasnamənin 10-5-ci maddəsinin birinci cümləsində, 10-6-cı maddəsində, 10-7-ci maddəsinin ikinci cümləsində və 10-8-ci maddəsində “müvafiq icra hakimiyyəti orqanının xüsusi təyinatlı ali təhsil müəssisəsi” dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası nəzərdə tutulur;”;

4.2. 3-cü hissə üzrə:

4.2.1. ikinci abzasa “Əsasnamənin” sözündən sonra “10-7-ci maddəsinin ikinci cümləsində (ikinci halda),” sözləri əlavə edilsin;

4.2.2. üçüncü abzasda “, 8-ci” sözləri “və 8-ci maddələrində, 10-7-ci maddəsinin birinci cümləsində” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 dekabr 2023-cü il**

# Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 292; 2017, № 1, maddə 50; 2018, № 9, maddə 1840, № 11, maddə 2263; 2019, № 3, maddə 430, № 5, maddə 823; 2020, № 8, maddə 1042; 2022, № 5, maddə 475, № 9, maddə 1028; 2023, № 3, maddə 351, № 4, maddə 500, № 8 (I kitab), maddə 1159) ilə təsdiq edilmiş “Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları”nda dəyişikliklər təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 dekabr 2023-cü il**

# Ceyhun Bayramovun O’Brayn ilə görüşü

**Dekabrın 6-da xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O’Brayn ilə görüş keçirib.**



Görüş zamanı iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi, regionda mövcud vəziyyət, habelə Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin perspektivləri müzakirə olunub.

Azərbaycanla ABŞ arasında bir sıra istiqamətlərdə tarixi əməkdaşlıq münasibətlərinin əhəmiyyəti və qarşılıqlı maraqlar çərçivəsində ikitərəfli münasibətlərin inkişafının vacibliyi qeyd olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın Ermənistanla sülh prosesinin əsas elementlərinin təşəbbüskarı kimi bölgədə sülhün və sabitliyin bərqərar edilməsində maraqlı tərəf olduğunu vurğulayıb.

Eyni zamanda, normallaşmanın digər istiqamətlərindən biri olan Azərbaycanla Ermənistan arasında ikitərəfli əsasda sərhədin delimitasiyası üzrə danışıqların intensivləşməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Görüşdə, habelə qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**XQ**

# Prezident İlham Əliyevin son açıqlamaları dünya mediasında

**Azərbaycan Prezidenti İlham Əliyevin ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən “Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər” Forumunda çıxışında səsləndirdiyi fikirlər dünya mətbuatının diqqət mərkəzində olub.**




**Rusiyanın “News.ru” nəşri** Prezident İlham Əliyevin Azərbaycanın Cənubi Qafqazda sülhü bərqərar etməsi, Minsk qrupunun Qarabağ münaqişəsinin yalnız dinc yolla həllinin mümkünsüzlüyü barədə bəyanatlarının yanlış olması barədə dediklərini oxucularının diqqətinə çatdırıb.

**“İnterfaks” agentliyi** xəbər lentində Azərbaycan Liderinin ABŞ-ın ikitərəfli münasibətləri heçə endirməsi, bununla da Azərbaycanla Ermənistan arasında münasibətlərin nizamlanması prosesindən uzaqlaşması ilə əlaqədar bəyanatına ətraflı yer ayırıb.

Bu ölkənin **TASS, “İzvestiya”, “Lenta.ru”, “Vedomosti”, “TVC”, “Qazeta.ru”, “Pofile.ru”,** həmçinin bir çox digər agentlik, nəşr və telekanalları da Azərbaycanın dövlət başçısının çıxışını geniş təhlil edib.

**Fransanın “Lorientlejour”** portalında dərc olunmuş məqalədə Prezident İlham Əliyevin fikirlərində istinadla bildirilib ki, Birləşmiş Ştatlar çox gərgin münasibətlərə malik Azərbaycan ilə Ermənistan arasında vasitəçilik rolunu oynamağa davam etmək istəyirsə, ikitərəfli əlaqələrin möhkəmliyinə zəmanət verməlidir.

**“Leader-Telegram” saytında** yayımlanan materialda Azərbaycan Prezidentinin Fransa və Hindistanı Ermənistana təhlükəli silahlarla təmin etməmək barədə xəbərdarlıq etdiyi diqqətə çatdırılıb.

**Özbəkistanın “Daryo” portalı** isə yazır ki, Prezident İlham Əliyev forumdakı çıxışında Azərbaycan ilə Ermənistan arasında danışıqların ikitərəfli olmasının vacibliyinə bir daha diqqəti yönəldib.

**Türkiyənin Anadolu Agentliyinin** “Azərbaycan Prezidenti Əliyev Qərbin ölkəsinə münasibətini tənqid etdi” başlıqlı yazısında Prezidentimizin çıxışına geniş yer verib.

**“Haber 16”** saytı isə “Əliyev: Sülh müqaviləsinin prinsipləri tərtib edilib Ermənistana göndərilib” başlıqlı yazıda Prezident İlham Əliyevin çıxışından belə bir sitat gətirib: “Beş məlum prinsip açıqlandı. İndi görünür ki, Ermənistan bunları qəbul etməyə yaxındır. Bunu bir neçə il əvvəl etsəydilər, əlbəttə ki, antiterror əməliyyatına ehtiyac qalmazdı”.

**“Haber Global”** media qurumunun “Əliyevdən sülh prosesi açıqlaması: Konkret nəticələr üçün dialoqa hazırıq” sərlövhəli geniş yazısı “Ermənistan bölgədə nəqliyyat dəhlizlərinin dirçəldilməsindən yayınır”, “Qarabağı tərk edən ermənilər evlərinə qayıda bilərlər” kimi yarımbaşlıqlarla verilib.

**Gürcüstanın “newsday.ge”, “interpress.ge”, “qafqazturk.com”, “24news.ge”, “realnews.ge”, “1tv.ge”** televiziya kanalı dövlətimizin başçısının çıxışında səsləndirdiyi fikirlərlə bağlı Azərbaycan və gürcü dillərində silsilə materiallar dərc ediblər.

Prezident İlham Əliyevin çıxışından verdiyi materiallarda deyilir ki, Azərbaycan və Gürcüstan Avropada vahid, strateji əhəmiyyətli komandadır. Bu iki ölkə yaxın tərəfdaşlardır və onların tərəfdaşlığı enerji ilə məhdudlaşmır”.

**İranın İRNA, “sahebkhabar.ir”, “snn.ir”** və digər informasiya portallarında yayımlanan informasiyalarda Ermənistanla aparılan sülh danışıqlarında mövcud vəziyyətə dair Prezident İlham Əliyevin fikirləri geniş işıqlandırılıb.

**XQ**

# FIA həftəsi qonaqları Heydər Əliyev Mərkəzində





**Bakı dekabrın 5-dən 8-dək Azərbaycan Avtomobil Federasiyasının baş tərəfdaşlığı ilə Beynəlxalq Avtomobil Federasiyası (FIA) Baş Assambleyalarının iclaslarına və avtomobil idmanı sahəsində il yekununun ən mötəbər tədbirlərindən olan FIA Mükafatlandırma mərasiminə (FIA Prize-Giving Ceremony) ev sahibliyi edir.**

Bununla bağlı olaraq Heydər Əliyev Mərkəzində FIA həftəsi qonaqlarının qarşılanma tədbiri təşkil olunub. 128 ölkədən nümayəndə və avtomobil klublarının təmsilçiləri, o cümlədən FIA prezidenti Mohammed Ben Sulayem, FIA rəsmiləri paytaxtımıza gəlib.

FIA həftəsi qonaqlarının qarşılanma tədbirində çıxış edən Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov qonaqları salamlayaraq, tədbirin əhəmiyyətindən bəhs edib. FIA və Azərbaycan Avtomobil Federasiyası komandasının qonaqların hər birinin özünü evdəki kimi hiss etmək üçün çalışdığını deyən Federasiya prezidenti qonaqların ölkəmizdən müsbət təəssüratlarla ayrılacağına əminliyini ifadə edib.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov son illər ölkəmizdə avtomobil idmanının sürətlə inkişaf etdiyini söyləyib, Azərbaycan Avtomobil Federasiyasının rəhbərliyinə görülən işlərə görə minnətdarlığını bildirib. O, son illər ərzində Federasiyanın öz fəaliyyətini genişləndirdiyini, nəticədə cəmiyyətdə bu idman növünə marağın artdığını qeyd edib.

FIA prezidenti Mohammed Ben Sulayem çıxışında Azərbaycan Avtomobil Federasiyasına, Azərbaycan hökumətinə bu tədbirə ev sahibliyi etdiyi üçün təşəkkür edib, bütün dünyaya ölkə mədəniyyətini Formula 1 və digər tədbirlərlə göstərməklə daha gözəl nəticələrin əldə olunacağını qeyd edib.

Bakıda ilk dəfə təşkil olunan FIA Baş Assambleyasının iclası ilə yanaşı, FIA Fondu (FIA Foundation) və avtomobil klublarının maraqlarını təmsil edən Beynəlxalq Turizm Alyansının (AIT) Baş Assambleyalarının iclasları da keçirilir. Həmçinin mükafatlandırma mərasimi çərçivəsində FIA pilotları da Bakıya səfər edəcək.

Beynəlxalq Avtomobil Federasiyası (FIA) Baş Assambleyalarının iclasları və FIA Mükafatlandırma mərasiminin paytaxtımızda keçirilməsi ilə bağlı qərar ötən ilin dekabrında FIA Baş Assambleyasının İtaliyanın Bolonya şəhərindəki iclasında qəbul olunub. Avtomobil idmanı sahəsində belə miqyaslı beynəlxalq tədbiri qəbul etmək uğrunda bir neçə ölkə, o cümlədən Azərbaycan mübarizə aparıb. Səsvermə nəticəsində müraciət edən ölkələr arasından Azərbaycanın namizədliyi təsdiq edilib. Hər il fərqli ölkələrdə keçirilən bu tədbirin məqsədi avtomobil idmanı və sənayesi sahəsində müxtəlif mövzuları müzakirə etməkdir.

Heydər Əliyev Mərkəzi Beynəlxalq Avtomobil Federasiyasının (FIA) tədbirlərinin əsas məkanlarından biridir. FIA Baş Assambleyasının yekun iclası dekabrın 8-də, 2023-cü ildə avtomobil idmanı üzrə müxtəlif çempionatların qalib avtomobillərinin sərgisi isə dekabrın 6-da məhz Heydər Əliyev Mərkəzində təşkil ediləcək.

Heydər Əliyev Mərkəzinin foyesində isə bu günlər Azərbaycan Avtomobil Federasiyasının təşkilatçılığı ilə cəlbedici xarici görünüşü, öz dövrünün unikal texniki göstəriciləri ilə fərqlənən klassik və idman avtomobilləri sərgilənir. Bunlar “Lamborghini Huracan Sterrato”, “Legends Car” (Ford Coupe 34), “Ferrari SF90 Stradale”, “The Model T Ford Snowmobile”, “Auburn Speedster 866”, “Cadillac Model M”, “Packard 645 Dual Cowl Phaeton” avtomobilləridir.

Dekabrın 8-də isə Bakı Konqres Mərkəzində FIA Mükafatlandırma mərasimi (FIA Prize-Giving Ceremony) keçiriləcək və bu mərasimdə avtomobil idmanı sahəsində müxtəlif nominasiyalarda mükafatlar təqdim ediləcək.

# Azərbaycanın sülh prinsipiallığı – Prezidentin qətiyyət manifesti

## İlham Əliyevin Ermənistanla münasibətlər baxımından irəli sürdüyü məqamlara baxış

(əvvəli 1-ci səhifədə)

### Qranada sammiti və Cənubi Qafqazda anti-sülh platforması

Bəli, Avropa İttifaqı vasitəçiliyini Fransanın ermənipərəst ritorikasına qurban vermiş durumdadır və mövcud anlamda Avropa Siyasi Birliyinin bu il oktyabrın 5-də keçirilmiş Qranada sammiti, bir növ, kulminasiya anı idi. Məlum olduğu kimi, İlham Əliyevin iştirak etmədiyi həmin sammitdə Aİ Şurasının prezidenti Ş.Mişel, Fransa prezidenti Emmanuel Makron, Almaniya Kansleri Olaf Şolts və Ermənistanın baş naziri Nikol Paşinyan müştərək sənədlər imzalamış, öz aləmlərində Bakı-İrəvan sülhü üçün "yol xəritəsi" müəyyənləşdirmişdilər. Bu trayektoriyada başlıca xətti isə Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi ilə bağlı beynəlxalq təminatlar təşkil etmişdi. O təminatlar ki, Azərbaycanın bölgə üzərində suverenliyini şübhələndirir və beləliklə, Ermənistanın Qarabağ avantürizminin davamı üçün zəmin formalaşdırırdı. Deməli, Qranadada məqsəd ölkəmizi məsələnin belə şəkillənməsi ilə razı salmaq imiş. Heç şübhəsiz, bu sayaq yolverilməz yanaşma Fransanın irəli sürdüyü "strateji xətdir". Elə Azərbaycan Prezidentinin də Qranadaya getməməsinin səbəblərinə aydınlıq gətirərkən üzərində dayandığı başlıca məqam Parisin ermənipərəstliyi, özünü aşkar tərəf kimi göstərməsidir.

Dövlətimizin başçısının münasibəti bir daha onu söyləməyə əsas verir ki, Aİ-nin vasitəçilik missiyasını pozan məhz Fransadır: "Danışıqlar bu formatda davam edirdi. Lakin sonradan nə baş verdi? Fransa Prezidenti televiziyaya verdiyi müsahibələrindən birində Azərbaycanın ünvanına müəmmalı və qəbuledilməz sözlərdən, ifadələrdən istifadə etdi və beləliklə, özünü prosesdən ayırdı. Çünki tam aydın idi ki, əgər siz neytrallığınızı itirirsinizsə, artıq vasitəçi ola bilməzsiniz, bu şansı əldən buraxırsınız. Ona görə neytral olmalısınız. Bununla bağlı müxtəlif səbəblər var idi. Bu halda artıq vasitəçi olmaq şansı əldən buraxıldı. Biz rəsmən bəyan etdik, artıq düzgün, yaxud münasib hesab etmirik ki, Fransanın hər hansı bir nümayəndəsi Ermənistanla Azərbaycan arasında normallaşma prosesində iştirak etsin. Buna görə, bu məxsusi səbəbə görə mən Qranadaya getmədim".

### Ermənistan nəyə təminat verməlidir?

Bəs, hazırda Azərbaycan və Ermənistan arasında danışıqlar hansı durumdadır və nələr əsas götürülməlidir? Hesab edirik ki, Prezident İlham Əliyevin forumda mövcud xüsusdakı bildirdikləri həlledici əhəmiyyət daşımaqdadır. Dövlətimizin başçısı vurğulayır ki, iki ölkə arasında imzalanacaq sülh sazişi beynəlxalq ekspertlər tərəfindən lazımi şəkildə araşdırılmalıdır. "Otuz ildən artıq işğalı, öz ərazisinin tamamilə dağıdılmasını, etnik təmizləməni və əziyyətləri görən ölkə olaraq biz beynəlxalq vasitəçilərə yox, məhz Ermənistana əl uzatdıq", – deyən cənab İlham Əliyevin fikirləri Azərbaycanın xoş niyyətinin qarşı tərəfdən geri çevrildiyinin təsdiqidir. Ancaq hazırda ölkəmizin İrəvana uzatdığı əl dövlətimizin başçısının barəsində danışdığı beş prinsipdir: "İndi görünür ki, Ermənistan bunları qəbul etməyə yaxındır. Onlar bunu baza kimi götürə bilərlər. Bunu bir neçə il əvvəl etsəydilər, əlbəttə ki, antiterror əməliyyatına ehtiyac qalmazdı. Bu tarixdir və onu göstərir ki, sülhü təşviq edən tərəf məhz Azərbaycan idi, Ermənistan deyil".



Bəs, sülh üçün nə lazımdır? Prezident "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və Çətinliklər" Forumundakı çıxışında mövzuya əhatəli toxundu. Əlbəttə, onun söylədiklərinin hər biri vacibdir. Ancaq hesab edirik ki, Cənubi Qafqazda sülhün və əmin-amanlığın təminatı baxımından ən ümdə məqam Ermənistanın yenidən Azərbaycana qarşı çıxmamasıdır. Çıxmırmı? Rəsmi İrəvan bütün beynəlxalq platformalarda özünün anti-Azərbaycan ritorikasını qabardır. Bu isə aşkar revanşistləri "hərəkətə" gətirilir. Nəticədə ikincilərin destruktiv baxışları Ermənistan rəhbərliyinin Azərbaycan əleyhinə çağırışları ilə çulğaşır. Ona görə də Prezident İlham Əliyev bildirir ki, "Ermənistanda hər hansı bir revanşizm cəhdlərinin olmayacağı ilə bağlı Azərbaycana qəti şəkildə qarantiya lazımdır. Çünki biz bilirik Ermənistanda nə baş verir. Həmçinin bilirik ki, Ermənistanın bəzi Avropa paytaxtlarında çox "müşavirləri" var".

### Sülhün 5 prinsipi, "müşavirlər" və yol

Bəli, sülh üçün Ermənistanın Azərbaycanın irəli sürdüyü prinsipləri qəbul etməsi şərtdir. Baş nazir Nikol Paşinyan da çıxışlarında prinsiplərdən danışır. Xatırladaq ki, Nikolun üçlü prinsip məntiqi var: Birincisi, hər iki ölkənin bir-birinin ərazi bütövlükləri-ni tanımaları, ikincisi, 1991-ci ilin Alma-Ata Bəyannaməsi əsasında ölkələrin sərhədlərinin təsdiqlənməsi, üçüncüsü isə suverenlik və bərabərlik əsasında regional kommunikasiyaların fəaliyyətinin bərpası. Azərbaycan Prezidenti isə forumdakı çıxışında qətiyyətli şəkildə bəyan edir ki, Naxçıvana asan çıxış yolu olmalıdır və bu, ölkəmizin legitim hüququdur.

Deməli, Naxçıvana yol Azərbaycan və Ermənistan arasındakı sülhün başlıca prinsipi halına gəlməkdədir. Qeyd edək ki, sözügedən yol Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları 10 noyabr 2023-cü il tarixli üçtərəfli Bəyanatda da əksini tapıb. O bəyanatda ki, hazırda İrəvan ondan imtina etmiş kimi görünür və sənədə əsasən üzərinə götürdüyü öhdəliyi yerinə yetirməkdən boyun qaçırır. Öhdəlik isə çox sadə şəkildə ifadə olunmaqdadır – Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yol açılmalı, İrəvan buna təminat verməli və həmin yolda təhlükəsizlik Rusiya Federal Təhlükəsizlik Xidməti tərəfindən qorunmalıdır. Paşinyan və komandası məhz bu sonuncu məqamı ölkənin ərazi bütövlüyünə və suverenliyinə zidd kontekstdə dəyərləndirir, məsələni Bakının sülhdən yayınması kimi qiymətləndirir, eyni zamanda, onu Qərbin anti-Rusiya köklənişinin seqmenti halına gətirməklə, aşkar manipulyasiyaya yol verir. Bu işdə isə erməni iqtidarına Prezident İlham Əliyevin təbirincə desək, Avropadakı "müşavirləri" kömək göstərirlər.

Yeri gəlmişkən, o "müşavirlər" təkcə Avropada deyil, ABŞ-da da var. Məsələn, ABŞ Dövlət Departamentinin rəhbərinin köməkçisi Ceyms O'Braynın özünü sözügedən "ampluada" aparması məlumdur. Cənab O'Brayn bir müddət əvvəl Birləşmiş Ştatlar Konqresinin Nümayəndələr Palatasında keçirilmiş Qarabağ dinləmələrində Bakı və İrəvan arasındakı sülh prosesinə toxunmuş və olduqca amiranə tərzdə bildirmişdi ki, Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yol Ermənistan ərazisindən keçməlidir. Halbuki, ölkəmiz məsələnin sırf bu şəkildə deyil, üçtərəfli bəyanatdakı kimi qoyuluşunu əsas götürür və Paşinyan hakimiyyətinin öhdəliklərindən imtinası şəraitində yolun İran ərazisindən keçməsini irəli sürür. C.O'Braynın sözləri isə onu deməyə əsas verir ki, ABŞ bununla razılaşmır və Azərbaycana təzyiqi düşünür. Düşünür və O'Brayn bildirir ki, Bakının inadı Birləşmiş Ştatların onunla münasibətlərini korlamasına gətirib çıxaracaq. Azərbaycanın Xarici İşlər Nazirliyinin cavabı isə göstərir ki, ölkəmiz Ağ evin Dövlət Departamenti rəsmisinin dili ilə ifadə olunmuş yanaşmasından qətiyyən çəkinmir. Əslində, Prezident İlham Əliyevin də mövqeyi dövlətimizin sözügedən məsələyə münasibətindəki qətiyyətinin və prinsipiallığının növbəti göstəricisidir.

### Naxçıvana yol, Kalininqrad təcrübəsi və Ermənistan üçün böyük itki

Bəli, dövlətimizin başçısının prinsipiallığı aşağıdakı fikirlərdə tam şəkildə əksini tapmaqdadır: "Ermənistanın hazırda iki variantı var. Birincisi, öz xərcləri, yaxud da Avropa fondlarının pulu ilə dərhal 42 kilometrlik məsafədə dəmir yolu çəksinlər. Biz bunu, əslində, onların suveren ərazisi hesab edirik və suverenliklə bağlı bizim şərtimiz yoxdur. Lakin Azərbaycandan Naxçıvana asan çıxış olmalıdır. Bununla bağlı hansısa gömrük yığımı, yoxlamalar, sərhədçilərin prosedurları olmalı deyil. Bu, bizim legitim hüququmuzdur".

Onu da vurğulayaq ki, Azərbaycan Prezidenti "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və Çətinliklər" Forumundakı çıxışı zamanı Naxçıvana yol xüsusundan danışarkən, Azərbaycan – Ermənistan sülh nizamlaması müstəvisində indiyədək səslənməyən bir məqamı da gündəmə gətirib. Ölkəmizin rəhbəri bildirib ki, baş nazir N.Paşinyanla Brüsseldə müzakirə edilən məsələlərdən biri Rusiyanın Kalininqradla dəmir yolu xətti təcrübəsi olub. Lakin Paşinyan bunu istəməyib: "Onlar istəyirlər ki, bizə bu çıxış verilməsin, onun qarşısı alınsın. Onlar gördülər ki, biz bunu etmirik, başladılar şikayətlə çıxış etməyə. Beləliklə, biz Dövlət Departamentinin rəsmisindən müəmmalı bəyanat eşitdik. Birləşmiş Ştatlar qeyd etdi ki, əgər bu, Ermənistandan keçməsə, onlar buna imkan verməyəcəklər. Biz də öz-özümüzə sual veririk, bu nə deməkdir? Çünki biz bunu Ermənistana 3 il idi ki, söyləyirdik. Əgər istəyirsinizsə ki, bu, Ermənistan ərazisindən keçsin, onda bunu erməni dostlarınıza deyin. Siz İranla münasibətlərimizə necə müdaxilə edə bilərsiniz? Yəni, onlar deyirlər ki, biz buna icazə verməyəcəyik, imkan verməyəcəyik. Bu, necə ola bilər? Belə məsuliyyətsiz bəyanatlar bu və ya digər tərəfə yaxşı töhfə vermir. Əfsuslar olsun ki, bu, əslində, sabitliyi, regiondakı proqnozlaşdırmanı daha da çətinləşdirir, o cümlədən bağlantı layihələrinə də təsir göstərir".

Göründüyü kimi, Prezident İlham Əliyev ABŞ-a da layiqli cavab verir. Cavab verir və haqqında söz açdığımız üçtərəfli bəyanatı əsas götürür. Daha doğrusu, orada Ermənistanın Naxçıvana yolla bağlı öhdəliyini. Bəs, öhdəliyi yerinə yetirməmək İrəvan üçün hansı nəticələri doğuracaq? Söhbət, əlbəttə ki, mənfi nəticələrdən gedir. Cavabı dövlətimizin başçısının izahı fonunda dilə gətirdiyi fikirlərə əsasən verəcəyik. "Mən Ermənistanın baş nazirindən dəfələrlə soruşmuşam ki, onlar nəyə görə üzərilərinə götürdükləri öhdəlikləri yerinə yetirmirlər? Doqquzuncu maddəyə (2020-ci il 10 noyabr tarixli Bəyanatın – red.) uyğun olaraq, Azərbaycanın qərb hissəsi ilə Naxçıvan arasında əlaqə yaradılmalıdır. Orada, həmçinin qeyd olunub ki, nəzarəti kim təmin edəcək və Paşinyanın özü bunu imzalayıb. İndi isə bu, artıq mümkün deyil. Nə həmin marşrut var, nə də Rusiyanın iştirakı. Yəni, əslində, bu, hüquqi baxımdan artıq qüvvəsini də itirmiş kimidir. Çünki öhdəlik var, amma onlar öhdəliyi yerinə yetirmirlər", – deyən Azərbaycan Prezidenti Ermənistanın bu yanaşmasından sonra Azərbaycanın Naxçıvanla əlaqə yaradılması, Naxçıvan vasitəsilə Türkiyəyə çıxışın əldə edilməsi üzərində düşündüyünü və bununla bağlı İran tərəfi ilə keçidin inşası üçün razılığa gəlindiyini vurğulayıb. Mövcud istiqamətdəki detallara toxunan ölkəmizin lideri deyib ki, Ağbənd kəndində (Zəngilan – red.) avtomobil nəqliyyatı üçün körpünün təməlqoyma mərasimi keçirilib, sonra dəmir yolu nəqliyyatı üçün körpü də inşa ediləcək. Bütün bunların fonunda isə itirən tərəf Ermənistan olacaq. Çünki İran ərazisindən Naxçıvana yol nəinki "Azərbaycan ilə Naxçıvan Muxtar Respublikası arasında bağlantını təmin edəcək, əslində, beynəlxalq daşımalar dəhlizinə çevriləcək. Bu, o deməkdir ki, Azərbaycan ilə Türkiyə arasında bağlantı yaradılır. Ermənistan özünü bundan məhrum etdi, həmçinin Azərbaycanla bütün digər kommunikasiyaların açılmasından məhrum edir".

### Ermənistanın seçim şansı: sülh, ya da ... sülh

Yekunda belə qənaət hasil olur ki, Prezident İlham Əliyev "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və Çətinliklər" Forumundakı çıxışında Azərbaycan və Ermənistan arasındakı sülh gündəliyi ilə bağlı məsələləri vurğulayaraq, birincisi, ölkəmizə mövcud müstəvidə hansısa kənar təzyiqin yolverilməzliyinə dair mesaj verdi, ikincisi qətiyyətli mövqeyimizi bir daha Ermənistanın və havadarlarının diqqətinə çatdırdı, ən əsası isə həm həm birinci, həm də ikinci cəhəti vurğulamaqla, habelə, sülh gündəliyinə dair bütün təfərrüatları açıqlamaqla "topu" İrəvana ötürdü. Deməli, bundan sonra sülh barədə düşünmək növbəsi Ermənistanındır. Azərbaycan düşündüyünü düşündü və xoş niyyətini göstərdi. Daha dəqiq desək, göstərib qurtardı. İndi qarşı tərəf cavab versin. Yəni, xoş məramını, gerçək sülh istəyini açıqlasın. Təbii ki, kənar qüvvələrin təsirinə düşməyib, müstəqil qərar verməklə, yalnız özünün maraq və mənafelərini düşünməklə.

*Əvəz RÜSTƏMOV*
*XQ*

# Olmasın Marqarita Simonyan, olsun Alen Simonyan

## Ermənistanın anti-Rusiya köklənişinə kənardan baxış



**Əlbəttə, bu, baş versəydi, təəccüblənərdik. Söhbət Ermənistan rəsmilərindən hansınınsa Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının iclasındakı iştirakından gedir. Yəni, əgər ölkə parlamentinin sədri Alen Simonyan qurumun Parlament Assambleyasının dekabrın 19-da Moskvada keçiriləcək 16-cı plenar məclisinə qatılsaydı, təəccübümüzün həddi-hüdudu olmazdı. Ancaq sonda erməni spikerinin Rusiya əleyhinə gedişləri fonunda qəribə təsir bağışlayan bir məqamı vurğulayacağıq.**

Hələlik onu qeyd edək ki, hazırda A.Simonyan, ümumən, Ermənistanın anti-Rusiya ritorikasının simvolu qismində çıxış etməkdədir. Bu şəxs, necə deyərlər, Roma papasından daha artıq katolik olmağa girişib. Nəzərə alsaq ki, indiki halda Roma papası baş nazir Nikol Paşinyandır, Simonyan Moskva əleyhinə davranışları ilə hökumət rəhbərini xeyli geridə qoyub.

Bəli, A.Simonyan Ermənistanın anti-Rusiya yolunda, obrazlı desək, toz qoparıb. O, Kreml rəhbərliyi ağlına gələn hər şeyi danışmaqdan çəkinmir. Danışmasını, mövqe bildirməsini haradasa, normal saymaq mümkündür. Nəhayət, anti-Rusiya məntiqinin dünyaya hakim kəsildiyi hazırkı dövrdə Simonyan qəhrəmanlıq göstərmir. Sözümüzdən belə nəticə də hasil olmasın ki, Rusiyanı tənqid etmək olmaz, yaxud düzgün deyil. Sadəcə, Simonyanın davranışı belə təəssürat yaradır ki, Ermənistanda zəlzələ, möhkəm leysan olsa, tufan qopsa, bunun günahkarı qismində Kreml göstəriləcək. Hər halda, belə yanaşmanın yolverilməzliyi, ziyanlı təmayül olduğu aydındır.

Digər tərəfdən, erməni spiker olan yerdə sadaladığımız təbiət hadisələrinə, təbii fəlakətlərə ehtiyac yoxdur. Simonyanın qopardığı toz yetərlidir. Ancaq bir çox hallarda Rusiya əleyhinə danışanların, yazanların onun öz adamı olduğu aşkara çıxır. Ölkənin köhnə "KQB"nin mirası sayılan xüsusi xidmət orqanlarının belə bir üsulu var – öz adamını Rusiyaya qarşı danışdırıb, digər əks mövqe tutanları müəyyənləşdirmək. Ona görə Simonyanın sözləri şübhə yaradır. Bəlkə, o, elə Kremlə işləyir? Yəni, olmasın Marqarita Simonyan (RTR telekanalının baş redaktoru. Ermənistana girişi qadağandır – red.), olsun Alen Simonyan. Nə fərqi var ki?

*

Əlqərəz, A.Simonyan rəsmi məktubla KTMT-nin iclasında iştirak etməyəcəyini təsdiqləyib. Onun məktubunda nə yazdığı, nələri əsas gətirdiyi açıqlanmayıb. Əslində, bu şəxsin nə yazacağı da məlumdur. Məsələn, deyə bilər ki, KTMT Ermənistan ərazilərinin Azərbaycan tərəfindən işğalına siyasi qiymət verməyib. Axı, Paşinyanın komandası son zamanlar bu cəfəngiyyatı tirajlamaq sahəsində püxtələşib.

Bəli, əsas məsələ Simonyanın KTMT-nin parlament məclisində iştirak etməyəcəyinə xüsusi təqdimat verməsidir. Bu, gedilməmiş yoldur. Yada salaq ki, Ermənistanın hansısa digər qurumu xırda məlumat paylaşaraq, rəhbər şəxsin KTMT tədbirinə qatılmayacağını ictimaiyyətə agah edirdi. Görünür, erməni spiker məktub yazmaqla, özünün məxsusiliyini vurğulamaq istəyir. Yeri gəlmişkən, Simonyan naməsini Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının sədri Vyaçeslav Volodinə ünvanlayıb. Məktubla bağlı yayılmış xəbər onu deməyə əsas verir ki, məlum tədbirdə nəinki spiker özü, ümumən Ermənistanın parlament nümayəndə heyəti də iştirak etməyəcək. Bir sözlə, Simonyan tam şəkildə KTMT-ni boykot yolu tutur.

Boykotdan söz düşmüşkən, ötən qısa zaman kəsiyində Ermənistanın baş naziri ilə yanaşı, xarici işlər naziri, müdafiə naziri və Təhlükəsizlik Şurasının katibi KTMT çərçivəsində təşkil olunmuş tədbirlərdə iştirak etməyiblər.

*

A.Simonyanın anti-Rusiya ritorikasındakı tünd rəng çalarlarından danışırıqsa, qeyd edək ki, onun KTMT iclasına qatılmaqdan imtinası indi vurğulayacağımız məsələnin yanında heç nədir. Məsələ isə bundadır ki, bir neçə gün əvvəl Ermənistan parlamentində müxalif "Ermənistan" fraksiyasının təşəbbüsü ilə "Ayakve" adlı qanun layihəsi müzakirə olunub. Bəri başdan bildirək ki, Qarabağın Azərbaycan ərazisi kimi tanınmasının kriminallaşdırılmasını nəzərdə tutan layihə qəbul olunmayıb. Bundan sonra A.Simonyan üzünü parlament müxalifətinə tutaraq məzələnirmiş kimi bildirib ki, hakim komanda "Ayakve"nin qanun şəklinə gəlməsinin qarşısını almaqla, Rusiya Prezidenti Vladimir Putinin Ermənistana daxil olacağı təqdirdə, həbslə üzləşməsi təhlükəsini aradan qaldırıb. Erməni spiker bu fikirləri dilə gətirərkən, vurğunu ölkə müxalifətinin Rusiya meyilli olması, ən əsası isə Putinin Qarabağı Azərbaycan ərazisi kimi tanıması üzərinə qoyub. Halbuki, belə yanaşma yolverilməzdir. Çünki "Ayakve" Ermənistan rəsmilərinə, yəni dövlət adından danışan şəxslərə şamil edilən məsələdir. Yəni, başqa ölkə təmsilçilərindən deyil, onlardan kiminsə Qarabağı Azərbaycan ərazisi kimi tanımasına qarşı cinayət məsuliyyəti formalaşdıran avantüradır. Göründüyü kimi, Simonyan yerli-yersiz, harda gəldi Rusiya əleyhinə danışmaqla məşğuldur. İkrah doğuran onun danışması deyil, məhz yersiz danışmasıdır. Qənaətə gəlirik ki, erməni spikerin ölkə müxalifətinin Moskva ilə bağlılığını qabartmaq üçün aşkar manipulyativ tərzdə Kreml rəhbərindən söz açması, yumşaq desək, siyasi etikadan uzaqdır.

*

Bəli, A.Simonyanın bir neçə ay əvvəl "Rusiya 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla Qarabağı Azərbaycana verdi" şəklində səsləndirməsi də etikasızlıq idi. İstər Prezident Putin, istər Xarici işlər naziri Sergey Lavrov, istərsə də rəsmi Moskvanın digər təmsilçiləri onun cavabını, kifayət qədər, əsaslandırılmış şəkildə verdikləri və mövcud xüsusda baş nazir N.Paşinyanın 2022-ci ilin oktyabrında Praqada və 2023-cü ilin mayında Brüsseldə Azərbaycanın, Qarabağ da daxil olmaqla, ərazi bütövlüyünü tanıdığını qabartdıqları üçün məsələnin üzərində çox dayanmaq, təfərrüatlara varmaq istəməzdik. Ancaq sonda ilk baxışdan, Simonyanın anti-Rusiya təmayülünə zidd bir məqama diqqət yetirməyi vacib sayırıq. Yəni, əvvəldə haqqında söz açdığımız qəribəliyə aydınlıq gətirmək istəyirik.

Əlbəttə, Ermənistanın parlament sədrinin ölkəsinin bu ayın sonunda Sankt-Peterburqda keçiriləcək Avrasiya İqtisadi İttifaqının sammitində təmsil olunacağını bildirməsi qəribə olduğu qədər də maraqlıdır. İstər-istəməz, bu qərarın necə verildiyi barədə düşündük və müəyyənləşdirdik ki, Ermənistanın Rusiyanın hakim rol oynadığı və özünün də üzvü olduğu Aİİ-yə rotasiya qaydasında sədrlik növbəsidir. Bu yerdə İrəvanın KTMT-yə sədrliyini yada salaq. Onu da yada salaq ki, 2022-ci ilin noyabrında qurumun Ermənistanın paytaxtında keçirilmiş ali səviyyəli toplantısı sədrliyin dramatik anlarına şahidlik etmişdi. Rusiya Prezidentinin də qatıldığı həmin sammitdə baş nazir N.Paşinyan, faktiki olaraq, KTMT-ni aşağılamış, onu əhəmiyyətsiz qurum kimi təqdim etmişdi. Nikol çalışmışdı ki, təşkilat Azərbaycan – Ermənistan sərhədində yaşanmış sentyabr eskalasiyasına siyasi qiymət versin. Daha doğrusu, əvvəldə də vurğuladığımız kimi, Bakını təcavüzkar qismində tanısın. O zaman hiss olunmuşdu ki, Paşinyan KTMT-ni ölkəsinin anti-Azərbaycan platformasına çevirmək niyyəti güdür. Əlbəttə, istəyi baş tutmamışdı...

Hazırda A.Simonyan Aİİ-nin Zirvə görüşünü və Ermənistanın quruma sədrliyini də eyni "məqsədlə" istifadə etmək niyyətindədir. Ona görə də Sankt-Peterburqa getməyin vacibliyindən söz açır. O, istəyir ki, Ermənistanın Aİİ-yə sədrliyi müddətində təşkilatda siyasi təxribat törətsin və beləliklə Rusiyanın hakim rol oynadığı daha bir qurumun fəaliyyətsizliyinə və səmərəsizliyinə dair rəy formalaşdırsın. Bir sözlə, Simonyan Aİİ-yə, bir növ, bomba qoymağı düşünür.

*

Ən sonda əvvəldə haqqında söz açdığımız bir məqama da qayıdaq. Bəli, qeyd etdiyimiz kimi, A.Simonyan Ermənistanın anti-Rusiya yolunda, obrazlı desək, toz qoparan simadır. Nəzərə alsaq ki, İrəvanın üzü Qərbədir, erməni spikerin, eləcə də onu ağılda olan digərlərinin qaldırdıqları toz-dumanın ölkənin Qərb istiqaməti baxımından da çətinliklər yaratması mümkündür. Axı, toz görməni zəiflədir. İndiki halda reallıqları görüb düzgün nəticə çıxarmağı da, həmçinin.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# Xarici agentlərə nəzarət edən ABŞ bunun başqa ölkələrdə tətbiqinə mane olur

**Xarici agentlər haqqında qanunun ideya müəllifi Amerika Birləşmiş Ştatlardır. Hitler Almaniyasına qarşı mübarizə fonunda gündəmə gələn və ilk nümunə kimi 1938-ci ildə qəbul edilən qanun "Xarici Agentlərin Qeydiyyatı Aktı" (FARA) adlandırılıb. Hitler Almaniyasının mənafeyinə uyğun fikir bildirmək, təbliğat aparmaq, informasiya yaymaq bu qanun əsasında yasaqlanıb.**

Hitler Almaniyasının məğlub olaraq sıradan çıxması FARA-nın aktuallığını azaltmayıb. Əksinə, xarici agentlər haqqında qanun təkmilləşdirilərək yeni dövrün tələblərinə uyğunlaşdırılıb. Akt daha sərt formada bu gün də qüvvədədir.

ABŞ təbliğatçıları iddia edirlər ki, qanunun indiki forması öz ruhuna görə 1938-ci ildəkindən fərqlənir. Guya, 1966-cı ildə tətbiq olunmuş "yeniliklər" əsasında mahiyyəti dəyişib. Məsələn, 1966-cı ilə qədər "Xarici Agentlərin Qeydiyyatı Aktı" nı pozan şəxslər Cinayət Məcəlləsinin maddələri ilə cəzalanadırılıblar. İndi isə Mülki Məcəllənin prinsipləri ilə sorğulanırlar. Yaxud, qanunun 1938-ci il versiyasında açıq tekstlə ifadə olunurdu ki, ABŞ-dan kənar mərkəzlərin siyasətinə yönəlik təbliğat-təşviqat aparanlar xarici agent kimi qeydə alınacaqlar. İndiki təqdimat isə bir qədər fərqlidir. Qanunun indiki mətnində qeyd edilir ki, "xarici hökumətlər, təşkilatlar və şəxslər üçün lobbiçilik/vəkillik fəaliyyəti ilə məşğul olmağa şərait yaradılır. Bu işlə məşğul olan şəxslər/ qurumlar xarici agent qismində Ədliyyə Departamentində qeydiyyata düşməli, müəyyən edilmiş rüsum ödəyib qanuni fəaliyyət göstərməlidirlər". Bu maddəyə istinadla deyirlər ki, 1966-cı il dəyişikliyi qanunu liberallaşdırıb. Müxtəlif ideologiyaların və mövqelərin ifadəsinə şərait yaradıb.

Amma təcrübə göstərir ki, qanunun mahiyyəti dəyişməyib. İndiki versiyası da sərtdir. Onun tətbiq edildiyi sahələrin sayı da artırılıb, əhatə dairəsi genişləndirilib. Təsir dairəsi genişləndirilən Qanun indi ictimaiyyətlə əlaqələr, reklam, informasiya fəaliyyəti, fandreyzinq, lobbiçilik və sair kimi ən müxtəlif sahələri, geniş spektrli fəaliyyətləri əhatə edir.

Bir sözlə, maliyyə qaynaqlarının, səhmlərinin 20 faizdən çox hissəsi ABŞ-dan kənarda formalaşan istənilən şəxs, qurum və kampaniyalar "Xarici Agentlərin Qeydiyyatı Aktı"nın təsir dairəsinə düşür. Onlar Ədliyyə Departamentində qeydiyyat əldə edib fəaliyyətlərini bu əsasda qurmalıdırlar. Yəni istənilən prosesin maliyyə dövriyyəsinin ən azı 80 faizi ABŞ-ın nəzarətində olmalıdır. Bu çərçivəni aşanlar "xarici agent" qanunu əsasında məsuliyyət daşıyırlar.



İndi "Xarici Agentlərin Qeydiyyatı Aktı"-nın tətbiq olunmasına yönəlik nəzarət də gücləndirilib. Qanundan irəli gələn prinsiplərin qorunması üçün Ədliyyə Departamenti, Milli Təhlükəsizlik Departamenti (NSD), Daxildə Əks-Kəşfiyyat və İxrac Nəzarəti Bölməsi (CES) tərəfindən paralel nəzarət həyata keçirilir.

Təqdimat formasından asılı olmayaraq, xarici agent qanunu ABŞ-ın xarici və daxili siyasət kursunun qorunmasına xidmət edir. Bu kursdan kənara çıxanlar, müəyyənləşdirilmiş prinsiplərin ziddinə hərəkət edənlər xarici agent qanununun müddəaları üzrə cəzalandırılırlar. Məsələn, 1995-ci ildə ABŞ məhkəmələri Kaliforniya film istehsalçılarının hazırladıqları, "ABŞ-ın nüvə texnologiyaları və nüvə siyasətindən" bəhs edən tənqidi ruhlu filmi bu qanun əsasında mühakimə ediblər. Hakimlər hesab ediblər ki, qeyd edilən film "xarici güclərin ABŞ-a qarşı irəli sürdükləri ittihamları ifadə edir", "ABŞ-ın reputasiyasına xələl gətirir". Belə məhkəmə proseslərinin sayı yüzlərlədir. "Xarici Agentlərin Qeydiyyatı Aktı" "domokl qılıncı" kimi hər kəsin başının üzərindən asılıb. 1966-cı ildə qəbul edilmiş manipulyasiya xarakterli "yeniliklər" onun təməl prinsiplərini dəyişməyib.

Qanunun sərt üzü ölkədə "daxili senzura" amilini artırır. ABŞ-ın daxili/xarici siyasətinə uyğun gəlməyən mövzularda fikir bildirilməsini, informasiya yayılmasını çərçivəyə alır, hüquqi məsuliyyət müəyyənləşdirir. Siyasi kursa uyğun olmayan mövzular üzrə maliyyə ayrılmasını, qrantlar, ianələr qəbul edilməsini, təbliğat-təşviqat işlərinin aparılmasını məhdudlaşdırır.

Bu qanun siyasətçilərə də eyni formada şamil edilir. Aydınlıq yaranması üçün qeyd edək ki, ABŞ hüquq-mühafizə orqanları tərəfindən Tramp administrasiyası ilə əlaqəli olmuş məmurlara qarşı irəli sürülmüş ittihamların bir istiqaməti də "Xarici Agentlərin Qeydiyyatı Aktı" na əsaslanır.

"Xarici Agentlərin Qeydiyyatı Aktı"nın KİV və QHT sektoruna, ifadə azadlığına xüsusi təsiri vardır. 2022-ci ilin aprel ayında ABŞ Konqresinin Hüquq komitəsi "Xarici Agentlərin Qeydiyyatı Aktı" nı müzakirəyə çıxarıb. Müzakirəyə qatılmış VCT-lər tərəfindən qanun sərt şəkildə tənqid edilib. Amerika Hüquqşünaslar Assosiasiyası təklif edib ki, heç olmasa qanunda istifadə edilmiş terminlər, ifadələr dəyişdirilsin: "Ən azı "agent" sözü "nümayəndə/təmsilçi" sözü ilə əvəzlənsin. Çünki "agent" ifadəsi yanlış təəssürat yaradır. Bu ad altında Ədliyyə Departamentində qeydiyyatdan keçənləri ləkələyir, cəmiyyətin gözündən salır".

Çıxışçılar bəhs edilən qanunun KİV və QHT sektoruna, ifadə azadlığına neqativ təsirindən də narazılıq ediblər: "Bu qanundan siyasi məqsədlər üçün sui-istifadə edilir, tənqidi səslər susdurulur. KİV-lər məcbur edilirlər ki, bu qanun əsasında qeydiyyata düşmək üçün özlərinin fəaliyyətləri ilə bağlı bütün təfərrüatları, o cümlədən məlumat mənbələrini açıqlasınlar. Hansı ki, demokratik mühitlərdə KİV-lər məlumat mənbəyini açıqlamağa məcbur edilə bilməzlər. Məlumat mənbəyini açıqlamaq yalnız məhkəmə hökmü ilə istisna hallarda olmalıdır".

"Xarici Agentlərin Qeydiyyatı Aktı"nın icrasına nəzarəti həyata keçirən Ədliyyə Departamentinin şərtlərinə əsasən, "Amerika siyasətinə təsir etməyə cəhd göstərən dövlətlərin ərazisində təsis edilmiş, ABŞ-da müxbir postu açmaq istəyən KİV qurumları da "xarici agent" kimi qeydiyyatdan keçməli, fəaliyyətlərini bu qanuna uyğunlaşdırmalıdırlar".

Məhz bu şərtə uyğun olaraq, Çinin "Sinxua" Xəbər Agentliyi, Çin Mərkəzi Televiziyası, "China Daily" qəzeti ABŞ-da "xarici agent qanunu" çərçivəsində hərəkət edirlər. Eyni prinsip Rusiyanın RİA Novosti , "Sputnik", "Russia Today", Koreyanın KBS telekanalına və digər bir sıra ölkələrin KİV-lərinə tətbiq edilib. 2019 -2020-ci illərdə Ədliyyə Departamenti Türkiyə dövlət televiziyasının da xarici agent kimi qeydiyyata alınmasının zəruriliyi barədə rəy verib. Qanuna əsasən, Amerika ictimai rəyinə və siyasətinə təsir etmək məqsədi ilə aparılan bütün fəaliyyətlər bu qanuna tabe olmalıdırlar. Buna cavab olaraq, Çin, Rusiya və digər dövlətlər də oxşar məzmunda qanunlar qəbul ediblər.

Macarıstanda, Bolqarıstanda, Ukraynada, Gürcüstanda və digər bir sıra dövlətlərdə bənzər qanun qəbul edilməsi üçün təşəbbüslər göstərilib. Problem ondadır ki, ABŞ özündən başqa ölkələrdə bənzər qanunların qəbul edilməsinə qarşı çıxır. Birbaşa və dolayı yollarla müqavimət göstərir, bu təşəbbüsləri əngəlləyir.

Məsələn, Rusiya 2012-ci ildə "xarici agent qanunu"nu qəbul edərkən, ABŞ özünün təsir dairəsində olan bütün "beynəlxalq reytinq təşkilatlarını" hərəkətə gətirdi.

Bənzər hərəkətlər Gürcüstanda da təkrar olundu. 2023-cü ilin mart ayında Gürcüstan parlamenti "xarici agentlər" haqqında qanun layihəsini müzakirəyə çıxaranda, ölkədəki ABŞyönlü QHT-lər, siyasi partiyalar və KİV-lər ayağa qalxdılar.

Əslində, sual ritorikdir. ABŞ-ın bütün hərəkətləri eyni formada paradoksaldır. Özü bütün çirkinliklərə imza atır. Bütün neqativ metodlardan faydalanır. Amma başqalarına belə davranışı "rəva görmür". Bunun da özəl səbəbləri vardır. Rusiyada, Gürcüstanda və ya ABŞ-ın hədəfinə çevrilmiş başqa bir ölkədə bənzər qanunların qəbul edilməsi imkan yaradar ki, onlar öz ərazilərinə daxil olan xarici maliyyəni nəzarətə götürsünlər. Afrika, Asiya, Yaxın Şərq, Latın Amerikası və Şərqi Avropa dövlətlərində son 30 il müddətində gerçəkləşdirilən "məxməri inqilab"-larda ABŞ-ın "donor institutları"nın iştirakı görünür. Hədəf ölkələrdə "Xarici Agentlərin Qeydiyyatı Aktı"na bənzər qanunların qəbul edilməsi ABŞ-ın xidmətində dayanmış KİV, QHT və siyasətçilərin nəzarətə götürülməsi deməkdir. ABŞ-dan bölgəyə uzanan əlin kəsilməsi üçün hüquqi baza yaradılması deməkdir. ABŞ bu səbəbdən narahatdır.

Son dövrlərdə Azərbaycanla ABŞ arasında yaranmış gərginlik də eyni kontekstdədir. Bəlli olur ki, burada fəaliyyət qurmuş ABŞyönlü "QHT və KİV-lər"in maliyyə qaynaqlarının nəinki 20 faizi, hətta 100 faizi xaricdən qidalanır. Təbliğatları da, təşviqatları da ABŞ-dan yanadır. Onlar ifadə azadlığı, demokratik dəyərlər prinsipinə bürünərək dövlətin milli siyasətinə qarşı çıxırlar. Nəinki ABŞ-ı, hətta müharibə vəziyyətində olduğumuz Ermənistanı da açıq tekstlə müdafiə edirlər.

"Abzas Media" hadisəsi üzrə aparılan istintaq prosesi bu istiqamətdə ciddi faktları üzə çıxarır. İstintaq qurumlarının ictimailəşdirdikləri ilkin məlumatlardan aydın olur ki, ABŞ "Beynəlxalq İnkişaf Agentliyi" (USAID), "Milli Demokratiya Fondu" (NED), "Avropa Demokratiyaya Yardım Fondu" (EED), "FreedomNow", "Qlobal Araşdırmaçı Jurnalistika Şəbəkəsi", "Amerika Beynəlxalq Təhsil Şurası", "People in Need" (PİN), "Norveç Helsinki Komitəsi" və digər 10-larla təşkila 100 minlərlə, milyonlarla dollar məbləğində vəsaiti qeyri-leqal formada ölkəmizə gətiriblər. Bu vəsaiti heç bir qeydiyyat sənədi olmadan Azərbaycanın "QHT və KİV" sektoruna, siyasi mərkəzlərə ötürüblər. Vəsaitin hansı aksiyalar üzrə xərcləndiyi bəlli deyil.

Bu səs-küyün fonunda gizlədilən sadə bir həqiqət var: Xarici ölkədən qrant vəsaiti alırsansa, onu Ədliyyə Nazirliyində qeydiyyatdan keçirməlisən. İndi istintaq gedir, alınmış vəsaitin hansı səbəblə gizlədildiyi araşdırılır. Bizim "qrantalanlar" olub-olmayan bütün qanunları, prinsipləri tapdalayırlar. Arxayın olublar ki, dər məqamda ABŞ səsini başına atacaq, onların müdafiəsi üçün dünyanı ayağa qaldıracaq.

**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

# Paşinyanın uğursuz müttəfiq axtarışları

## Erməni professor ölkəsinin tək qaldığını etiraf edir

**Ermənistan rəhbərliyinin 30 ildən çox yürütdüyü işğalçılıq, qəsbkarlıq siyasətinin ölkəni uçuruma gətirib çıxardığını, respublikanın geosiyasi dalana dirəndiyini rasional düşüncəli bəzi haylar da etiraf etməkdədirlər. Həmin etiraflarda Ermənistanın düşdüyü acınacaqlı vəziyyətin baiskarlarının adları çəkilir, ümumi mənzərə təhlil olunur və mövcud durumdan çıxış yolları göstərilir. Erməni siyasi ekspertlər fikirlərini əsasən qələmə aldıqları məqalələrdə ifadə edirlər.**



Belə etirafların yer aldığı məqalələrdən biri bugünlərdə Fransanın "Le Monde Diplomatique" ("Diplomatik dünya") jurnalında dərc olunub. "Ermənistan tək qalıb" sərlövhəli yazının müəllifi, Cenevrə Universitetinin beynəlxalq əlaqələr üzrə professoru Vigen Çatreyandır. Müəllif məqalədə Ermənistanın üzləşdiyi vəziyyəti təsvir edib. Qeyd olunub ki, sentyabrın 19-da başlayan lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycan beynəlxalq səviyyədə tanınmış ərazisi üzərində suverenliyini bərpa edib. Müəllif bununla razılaşmayan erməni əhalinin çoxunun Ermənistana köç etdiyini vurğulayıb. Bildirilib ki, Qarabağın erməni əhalisi geri qayıda bilər, lakin 30 ildən artıqdır yığılmış narazılıq çox az adamın geri qayıdacağını göstərir.

Yazıda Azərbaycanın qətiyyəti sayəsində həllini tapmış Qarabağ münaqişəsinin tarixinə ekskurs edilib. Bildirilib ki, münaqişə 1988-ci ilin fevralında erməni əhalisinin Azərbaycandan ayrılmaq tələbi, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti rəhbərliyinin Ermənistanla birləşməyə səs verməsi və İrəvanın onları dəstəkləməsi ilə qızışıb. Nəticədə birinci Qarabağ müharibəsi başlayıb. 1994-cü ilin mayında atəşkəs sazişinin imzalanması ilə başa çatan müharibədə Ermənistan Qarabağı və ətraf əraziləri (Azərbaycan ərazisinin təxminən 20 faizini) işğal edərək azərbaycanlı əhalini sıxışdırıb çıxarıb.

Qeyd olunub ki, Ermənistan rəhbərliyinin apardığı siyasət nəticəsində ölkə müasir çağırışlar qarşısında müttəfiqsiz, tək qalıb: "İrəvan 2020-ci ildə baş verən İkinci Qarabağ müharibəsində üzləşdiyi ağır itkilərdən sonra ordusunu yenidən təşkil edə və ya yenidən silahlandıra bilməyib. Onun təhlükəsizlik sahəsində ənənəvi tərəfdaşı olan Rusiya 400 milyon dollarlıq silah-sursat alqı-satqısı müqaviləsini icra etməyib. Nə Rusiya, nə də Ermənistanın üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı 2021-22-ci illərdə Azərbaycanla sərhəddə toqquşmalar baş verən zaman adekvat davranmayıblar. Onlar Ermənistanın ərazisini (?) qorumaq üçün müdaxilə etməyiblər".

"Le Monde Diplomatique" yazır ki, nəticədə Ermənistan xüsusilə silah təchizatı baxımından Hindistan və Fransanın timsalında yeni müttəfiqlər axtarışına çıxıb. Amma İrəvan Qərbə üz tutandan Rusiya ilə ənənəvi yaxın münasibətlər pisləşib. Eyni zamanda, Azərbaycan Türkiyə ilə strateji müttəfiqliyini gücləndirərək, Rusiya, ABŞ və Avropa İttifaqı ilə tərəfdaşlıq münasibətlərini eyni vaxtda inkişaf etdirməyə nail olub.

Yazıda bildirilib ki, Ermənistan rəhbərliyi hər zaman, o cümlədən 2020-ci il müharibəsindən sonra da Qarabağın gələcəyi ilə bağlı Rusiyaya arxalanıb. Xüsusilə bölgədə rus sülhməramlılarının olması bu arxayınlığı daha da gücləndirib. Ancaq Rusiya antiterror tədbirlərinə hər hansı formada müdaxilə (?) etməyib. Bunun səbəblərdən biri də geosiyasi şəraitin dəyişməsidir: "Kreml 2020-ci ilin noyabrında Qarabağa sülhməramlı qüvvə yeridərkən onun məqsədi hərbi mövcudluğunu genişləndirməklə Rusiyanın bu strateji regionda təsirini artırmaq, həmçinin vasitəçi rolunu inhisara almağa çalışmaq, Qarabağ münaqişəsinin həllini qeyri-müəyyən müddətə təxirə salmaq idi. Rusiya bunu etdi. Azərbaycan isə 2020-ci ildən sonra yaranmış status-kvonun onu qane etmədiyini açıq şəkildə bildirdi və Qarabağın bütün ərazisi üzərində suverenliyini bərpa etmək istəyirdi. 2023-cü ilin sentyabr hadisələri Rusiyanın Ukraynada Qərblə qarşıdurması şəraitində baş verib. Moskvanın Ukraynadakı hərbi əməliyyatı Azərbaycanın, eləcə də onun müttəfiqi Türkiyənin Rusiya üçün strateji əhəmiyyətini artırıb və Ermənistana marağı azaldıb. Ukraynada xüsusi hərbi əməliyyata başlamazdan cəmi iki gün əvvəl Moskvada Azərbaycan və Rusiya arasında müqavilə imzalanıb". Qeyd edək ki, burada söhbət 2022-ci il fevralın 22-də Moskvada iki ölkənin dövlət başçısı tərəfindən imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"dən gedir.

Məqalədə o da bildirilib ki, Azərbaycan Rusiya neftinin ixracı üçün tranzit məntəqəsinə və deməli, Qərbin sanksiyalarından yan keçmək üçün mühüm tərəfdaşa çevrilib.

V.Çatreyan qeyd edib ki, Ermənistanın baş naziri Nikol Paşinyan real uğur əldə etməsə də, Qərbdə yeni müttəfiqlər axtarır. Avropa İttifaqı İrəvanla Moskva arasında münasibətlərin korlanmasına sevinir, bunun Rusiyanın Qafqazdakı mövqeyini zəiflədəcəyinə ümid edir və iqtisadi mülahizələrə əsaslanaraq Azərbaycanı özündən uzaqlaşdırmamağa çalışır. Ötən ilin iyulunda Avropa Komissiyasının sədri Ursula fon der Lyayen Bakıya səfər edib və saziş imzalayıb. Sazişə əsasən, Aİ Azərbaycandan təbii qaz idxalını 2023-cü ildəki 8 milyard kubmetrdən bir neçə ildən sonra 20 milyard kubmetrə çatdıracaq.

Yazıda karbohidrogenlərin Azərbaycanın ixracının 90 faizdən çoxunu təşkil etdiyi bildirilir və onun əsasən Avropaya göndərildiyi qeyd olunur. Qərbin Rusiyanın qarşı sanksiyaları nəticəsində qaz və neft bazarlarında yaranan gərginliyin də Azərbaycanın önəmini artırdığı vurğulanıb.

ABŞ-ın roluna nəzər yetirən müəllif Vaşinqtonun eyni dərəcədə diqqətəlayiq təmkin nümayiş etdirdiyini qeyd edib. Bildirilib ki, bunun bir səbəbi də ABŞ-ın Ermənistanın məğlubiyyətindən sonra ikinci dərəcəli faydaya ümid etməsidir. Bu fayda isə Rusiyanın Qarabağı tərk edəcəyidir. Ancaq bu məsələ də hələ dəqiq deyil. Belə ki, üçtərəfli bəyanata əsasən sülhməramlılar hələ 2 il bölgədə qalmalıdırlar.

Müəllif belə bir nəticəyə gəlir ki, hazırkı qlobal geosiyasi vəziyyəti nəzərə alsaq, Qafqazda davamlı sabitliyin olması az inandırıcıdır. Ukraynadakı müharibə və Qəzzanın bombalanması dialoq cəhdlərinə zərbə vurub. Rusiya, Türkiyə, İran, ABŞ və İsrail də daxil olmaqla, regionda iştirak edən güclər hazırda başqa yerlərdə aktiv rəqabət aparırlar. V.Çatreyan etiraf edib ki, 2020-ci ilə qədər Qarabağ münaqişəsinin həlli üçün məsuliyyətin həvalə edildiyi Rusiya, Fransa və ABŞ-ın birgə sədrlik etdiyi ATƏT-in Minsk qrupu səmərəsiz bir qurum idi.

Erməni professor bölgədə yenidən döyüşlərin bərpa olunacağının yaxın müddətdə mümkün olmadığını bildirib. O, yazısını Azərbaycan Prezidenti İlham Əliyevin noyabrın 8-də Xankəndidə keçirilən hərbi paraddakı niqtindən iqtibas gətirməklə bitirib. Qeyd edək ki, dövlət başçımız paradda deyib: "Bizə yeni müharibə lazım deyil. Biz istədiyimizə nail olduq, beynəlxalq hüququ bərpa etdik, tarixi ədaləti bərpa etdik, milli ləyaqətimizi bərpa etdik, düşmənə onun yerini göstərdik. Düşmən bizim qabağımızda diz çökdü və bu gün mən burada müzəffər Silahlı Qüvvələrin qarşısında çıxış edirəm. Yəni, biz bütün vəzifələri icra etmişik, ancaq bununla bərabər, bundan sonra da ordu quruculuğu məsələləri bizim üçün prioritet məsələlərdən biri olacaq. Bunu hamı bilsin və heç kim bunu unutmasın".

Çatreyan sonda yalnız onu əlavə edib ki, regionda davamlı sabitlik yekun sülh sazişindən asılıdır. Bu da öz növbəsində Ermənistanın Tavuş və Ararat vilayətlərindəki 8 Azərbaycan anklavı ilə bağlı mürəkkəb məsələni də ehtiva etməlidir.

Göründüyü kimi, Azərbaycanın regionda yaratdığı yeni reallıqlar artıq normal düşünmə qabiliyyətinə malik ermənilərin özləri tərəfindən də qəbul və etiraf olunur. Hələlik bu etiraf Ermənistandan kənardakı haylar tərəfindən edilir. Yəqin, Ermənistanın üzləşdiyi davamlı uğursuzluqların yaratdığı vəziyyət kənardan daha aydın görünür. Ümid edək ki, bu fikirlər Ermənistanda hələ də revanşist fikirlərlə yaşayan hayların da necə deyərlər, ağlına batacaq və onlar da normal düşüncəyə malik olacaqlar. Ermənistanın bir dövlət kimi inkişafı Azərbaycan və Türkiyə ilə münasibətlərdən asılıdır. Əks-təqdirdə ölkənin vəziyyəti çətin olaraq qalmaqda davam edəcək.

**Səxavət HƏMİD**
**XQ**

### Ekspert rəyi



**İlyas HÜSEYNOV,**
**politoloq**

– Azərbaycan dövlətinin həm regionda, həm də qlobal miqyasda xarici siyasətinin taktika və strategiyası düzgün seçilmişdir. Bunu siyasi ekspertlər vurğulayıblar. Həm qlobal layihələr icra olunur, həm qonşularla münasibətlərin nizamlanması, Aİ və ABŞ-la yanaşı, İran, Rusiya və Çin faktorunun nəzərə alınması, qardaş Türkiyə və Türk dünyası ilə münasibətlərin dərinləşməsi həyata keçirilib. Üstəlik, İsrail və Pakistan da bizim əsas maraq dairəmizdədir. Dünyanın qabaqcıl silah istehsalçıları ilə müqavilələr imzalanır, ordumuz inkişaf etdirilir, ölkəyə valyuta axını təmin olunur. Nəqliyyat-kommunikasiya və logistika istiqamətində də qlobal planlar Bakıda cızılır. "Azərbaycansız regionda heç bir layihə icra etmək mümkün deyil" aksiomunun müəyyənləşməsi də təsadüfi deyil.

Prezident İlham Əliyev uzaqgörən siyasət yürüdərək və müdrik addımlar ataraq, bütün gücünü torpaqlarımızın işğaldan azad olunması işinə sərf etdi. Əgər 3 il əvvəl torpaqlarımızın əhəmiyyətli hissəsi işğaldan azad edildisə, bu ilin 19-20 sentyabrında suverenlik təmin olundu, tarixi qələbə qazanıldı. Ordumuzun, xalqımızın və liderimizin sayəsində mühüm üçlük formalaşdı, "dəmir yumruq"a çevrildi. Bu ardıcıl iş media müstəvisində, informasiya müharibəsi seqmentində də inkişaf etdirilir. Fransa jurnalında dərc olunan məqalə də dediklərimizi təsdiq edir. Ermənistan reallıqları qəbul etməli, onunla barışmalıdır. Azərbaycan və Türkiyəyə qarşı əsazi iddialarına son qoyub sərhədlərin açılmasına, sülh müqaviləsinin imzalanmasına çalışmalıdır. Bütün bu reallıqları qəbul etmək istəməyən, revanşizmə sadiq qüvvələr öz düşüncələrini dəyişməsələr, ölkələrini daha ağır, daha böhranlı və fəlakətli duruma sürükləyə bilərlər. Hələ ki, limit tükənməyib. İrəvan sülhə doğru addım atmalıdır. Əks-təqdirdə onlar Ermənistan dövlətçiliyinin sonunu yaxınlaşdıra bilərlər.

# Borrelin rəngli yuxuları, Pallonenin ağ yalanları

## Aİ-nin bəzi siyasətbazlarının, ABŞ-ın ermənipərəst konqresmenlərinin “ilham mənbəyi”

**Yenidən ağız-ağıza veriblər. Deyəsən, okeanın o tayında zəngin erməni diasporunun əlində “marionetə” çevrilən psevdosiyasətçilər, saxtakar və riyakar konqresmenlər, ermənipərəst “çete” meydanı boş görüblər. Yaxşı qonorar müqabilində hayları müdafiə səngərlərindən Azərbaycana “atəş açmağa” girişiblər. Otuz il davam edən münaqişə boyu bunları çox görmüşük. Ermənipərəst bəzi konqresmenlərin, korrupsioner senatorların köpüklənən ağızlarından tökülən təhdidlərini çox eşitmişik. Onların Azərbaycana qarşı ədalətsiz, qərəzli qərarlarını, düzəlişlərini səbirlə çiynimizdə daşımışıq. Amma haypərəstlərin nə hədələri, nə də qurşaqdan aşağı zərbələri bizi qorxudub. Bizi heç nə haqq yolumuzdan döndərə bilməyib. 2020-ci ilin 10 noyabrından sonra düşünürdük ki, münaqişə bitdi və “miatsum” epidemiyasının fəsadlarını yaşayan hayların havadarları da ağıllandılar, aqibətlərindən düzgün nəticə çıxardılar, necə deyərlər, sağlam məntiqdən uzaq, dəlisov iddialarından əl çəkdilər. Özümüzü barışığa kökləməyə, qarşılıqlı qonşuluq münasibətlərini normal məcraya salmağa köklədik. Fəqət, heç də belə deyilmiş.**



Hayların ideoloji səngərindən səsləri eşidilən elə əvvəlki “muzdlu agitatorlardır”. Məqsədləri də dəyişməyib: Ermə-



nistanla Azərbaycan arasında əldə olunacaq sülhü pozmaq, münaqişəni yenidən alovlandırmaq, Cənubi Qafqazda suyu bulandırmaq, sonra da bulanıq suda balıq axtarışına başlamaq.

Onlardan biri, ABŞ Nümayəndələr Palatasının üzvü, Konqresin erməni məsələləri üzrə komissiyasının həmsədri Frenk Pallone bu günlərdə Azərbaycana qarşı ağlasığmaz, həm də istehza doğuran tələblər irəli sürüb: “Azərbaycanın bundan sonrakı təcavüzünün qarşısını almaq və Ermənistanın ərazi bütövlüyünü təmin etmək üçün ABŞ-ın İrəvana birmənalı dəstəyi olduqca vacibdir”.

### Normal psixoloji statusdan məhrumlar

F.Pallonenin və ona bənzər digər konqresmenlərin anti-Azərbaycan fəaliyyətinə sonra qayıdacağıq. İndi isə dövlət başçımızın Avropa İttifaqının yüksək çinli məmuru Cozef Borrelin yalanını ifşa edən çıxışından bir məqamı diqqətə çatdıraq:

“Hətta ermənilərin özləri etiraf edirlər ki, bu cür təcrübəli Avropa diplomatı yalan danışır. Onlar deyirlər ki, Qarabağı 150 min deyil, 100 min insan tərk edib. Yəni, cənab Borrel bu tərzdə davam etsə, bir aydan sonra 200 min deyəcək. Ola bilsin ki, cənab Borrel yuxular görür. Bu, tamamilə qəbuledilməzdir. Bu, təkcə rəqəmlərlə bağlı manipulyasiya deyil, bu, Azərbaycana qarşı ittihamdır. Həm də bizim etmədiyimizlə bağlı ittiham”.

Bu sözləri Prezident İlham Əliyev dünən ADA Universitetində keçirilən “Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və Çətinliklər” mövzusuna həsr olunmuş Beynəlxalq Forumda çıxışı zamanı söyləyib.

Dövlət başçımız Aİ rəhbərinin müavini, İspaniyanın sabiq xarici işlər nazirinin siyasi səbatsızlığını maraqlı müqayisə ilə sübuta yetirib: “Çox təəccüblüdür ki, onun (Borrel – red.) öz ölkəsi (İspaniya – red.) separatçılıqdan əziyyət çəkir. İndi belə bir şəxs separatçıları necə müdafiə edər? Bu, olduqca təəccüb doğurur”.

İlham Əliyev çıxışında, ümumilikdə, Azərbaycanın Avropa Komissiyası ilə çox gözəl münasibətlərə malik olmasını, buna böyük əhəmiyyət verməsini, bu əlaqələrin Bakı üçün strateji əhəmiyyət daşımasını qeyd etməklə yanaşı, qarşılıqlı əməkdaşlığa xələl gətirən məqamlara da toxunub: “Təəssüflər olsun ki, avropalı liderlər arasında cənab Borrel, madam Metsola kimi populist insanlar da var. Mən hər zaman açıq danışmağı xoşlayıram. Onların yürütdüyü siyasətlə və Azərbaycana olan münasibətləri ilə qəti razı deyiləm. Bu, ədalətsiz yanaşmadır və heç də Avropa İttifaqının maraqlarına uyğun deyil”.

Avropa Parlamentinin bir təsisat kimi buna maneə olmasının gərəkliyini vurğulayan dövlətimizin başçısı daha sonra deyib: “Bu, bir növ məsuliyyətsiz insanlar qrupudur. Onların bəziləri özünü manyak kimi aparır. Çünki onların anti-Azərbaycan hissləri və bəyanatları insanın normal psixoloji statusundan kənara çıxır. Mən maksimal dərəcədə diplomatik lüğətdən istifadə etmək istəyirəm. Biz nə edə bilərik? Onlar 10-dan çox anti-Azərbaycan qətnamə qəbul ediblər. Biri çox, biri az. Bu, bizim üçün elə bir vacib deyil. Biz buna təəssüf edirik. Sadəcə, onu bəyan edə bilərik ki, bunu Avropa İttifaqı üzvlərinin hamısına şamil etmirik”.



Bəli, konkret olaraq, Aİ-nin 77 yaşlı ispan əsilli “diplomatı” son vaxtlar Bakının ünvanına avantürist açıqlamarı ilə əndazəni tamam aşıb. Onun erməni lobbisi ilə isti münasibətlərində hansı “özəl maraqları” güddüyü sirr deyil.

### Əməkdaşlığın “özəl maraqları”

Bu arada ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Metyu Miller jurnalistin “Azərbaycanla məlum səbəblərdən soyumuş münasibətlərin fonunda Ceyms O’Braynın Bakıya səfərinin Ağ evin ənənəvi siyasətindən geri çəkilməsi kimi qəbul edilə bilərmi? – sualına cavabı diqqəti cəlb edir: “Xeyr, qətiyyən elə deyil. Biz Azərbaycanla əməkdaşlığa davam etməyəcəyimizi heç vaxt deməmişik. Bu, bir ölkə kimi, ABŞ-ın maraqlarına da zidd olardı. Hesab edirik ki, əgər biz Azərbaycanla bütün diplomatik münasibətlərimizi kəsmiş olsaydıq, bu, regionda sülh və təhlükəsizlik maraqlarımıza da uyğun gəlməzdi”.

Həm Bakı, həm də İrəvanla birbaşa qarşılıqlı əlaqələrin davam etdiyini söyləyən Miller Ağ evi nəyin narahat etdiyini aydınlaşdırmağa çalışdığını deyir: “Misal üçün, biz onları insan hüquqlarına və digər əsas azadlıqlara hörmət etməyə çağırırıq. Həmçinin Ermənistanla möhkəm sülhə nail olmağa çağırmaqdan ötrü Bakı ilə təmaslarımızı davam etdiririk. Bu məsələ, əvvəlkitək, bizim Azərbaycanla diplomatik əlaqələrimizin mərkəzində olacaq”.

Keçən yazımızda qeyd etmişdik: Ağ ev özündən zəiflərə yuxarıdan-aşağı baxmağa, onlarla amiranə tonda danışmağa adətkardır. Amma bu diplomatik ritorikanın Azərbaycana münasibətdə keçərli olmadığını Bakı üç həftə bundan əvvəl məlum telefon danışığında göstərdi və sübuta yetirdi. Olmaya Vaşinqton eyni “valı” yenidən patefona qoyur? Daha o mahnılar köhnəlib, dinləyicilər də onlardan bezib.

Okeanın o tayında Azərbaycana qarşı “diplomatik demarş”a qoşulanlardan biri də senator Ben Kardindir. O, “Dağlıq Qarabağda (?) ernik təmizləməyə görə Bakını məsuliyyətə cəlb etmək” çağırışı ilə ABŞ Dövlət katibi Antoni Blinkenə məktub göndərib. Bu barədə Senatın beynəlxalq münasibətlər üzrə komitəsi məlumat yayıb. Məktubunda “Hərçənd Azərbaycan 2023-cü il sentyabrın 20-dən sonra atəşkəs rejiminin şərtlərinə riayət edir, mən onun əlavə diplomatik fayda qazanmaq üçün, xüsusilə, Zəngəzur dəhlizinə münasibətdə hərbi əməliyyata əl ata biləcəyindən çox narahatam”–yazan Kardin Blinkendən “hərbi cinayətlərə görə” azərbaycanlı məmurların məsuliyyətə cəlb olunması çərçivəsində Vaşinqtonun atacağı addımlar, eləcə də Dağlıq Qarabağdan (?) məcburi (?) köçənlərə yardım barədə məlumat verməsini tələb edir. Erməniпərəst senator məktubunda hayların dezinformasiyalarına, yalan və böhtanla dolu hesabatlarına söykənərək, Qarabağdan köçən dinc ermənilərə qarşı vəhşiliklərin (?) edildiyindən yazır. Üstəlik, o, 2022-ci ilin dekabrından ermənilərin “qəddar blokadada” saxlanılmasını da Dövlət katibinin diqqətinə çatdırır. Birləşmiş Ştatların bu sahədə öz öhdəliklərini yerinə yetirməyə davam etməsinin vacibliyini vurğulayan Kardin bir daha günah-



karları məsuliyyətə cəlb etməyə çağırır: “Biz cəzasız qalacaqlarını düşünənlərə dəqiq siqnal göndərməliyik”.

Siqnal və mesajlarınızı doğru ünvana yönəldin, cənablar! Azərbaycanı kardinlərin hədə-qorxusu qarşısında geri çəkilən,



milli və dövlətçilik maraqlarını hansısa supergücün bölgədəki maralarına qurban verməyə hazır Hayastanla səhv salmayın.

### “Menendesqeyt”in ardı olacaq

Əslində, Frenk Pallone, Robert Menendes, Ben Kardin, Adam Şiff, Ceki Sper, Qus Bilirakis kimi erməniпərəst konqresmenlər dövlət maraqlarını həmin ANCA-nın çirkli pullarına dəyişən əqidəsiz çinovniklərdir. Onların ABŞ Konqresində Azərbaycan və Türkiyə əleyhinə apardıqları hay fəaliyyətləri hamıya məlumdur. Məhz bu konqresmenlər işğal dövründə Xankəndidəki separatçı-xunta rejimin başçısına “təbrik məktubu” göndərmişdilər. Sonra həmin məktubun ANCA (Amerika Erməni Milli Konqresi) tərəfindən hazırlandığı üzə çıxdı.

ABŞ-ın Nyu-Cersi ştatından senator, ermənilərə lobbiçiliyi ilə tanınan Robert Menendes barəsində təhqiqat davam etdirilir. Birləşmiş Ştatların “northjersey.com” saytında haylara “xaç atalığı” missiyasını yerinə yetirən rüşvətxor senatorun cinayətkar fəaliyyətinin araşdırmasına həsr olunmuş məqalə dərc olunub.

Frenk Palloneyə gəldikdə isə o, hələ 1995-ci ildə Konqresdə erməni qrupunu yaradan iki nəfərdən biri olub. Onun erməni lobbisi ilə “qarşılıqlı faydalı əməkdaşlığının” tarixi 1990-cı illərin əvvəllərinə gedib çıxır. F.Pallone 1992-ci ildə ABŞ-ın Azərbaycana yardımını qadağan edən “Azadlığa dəstək Aktı”na 907-ci düzəlişi dəstəkləyən və lehinə səs verənlərdən olub. Eləcə də, onun və separatçıbaşıya “təbrik məktubu” göndərən konqresmenlərin qondarma erməni soyqırımı ilə bağlı qətnamə layihələrinin hazırlanmasında və qəbulunda “ödənişli xidmətləri” var.

Jurnalist Poll Miller mənimsəmə və vəsaitdən sui-istifadə ittihamları ilə həbs edilən “Hayastan” Erməni Fondunun direktoru Ara Vardanyanın cinayət işi ilə bağlı araşdırma aparmış və bu barədə maraqlı məqalə dərc erdirmişdi. Frenk Pallonenin də iştirak etdiyi xeyriyyə marafonlarında fond 2008-ci ildə 35 milyon, 2016-cı ildə 15,4 milyon, 2017-ci ildə 12,5 milyon, 2018-ci ildə isə 11,1 milyon ABŞ dolları həcmində vəsait toplamış, amma sonra bu vəsaitin “təyinatı üzrə” xərclənmədiyi üzə çıxmışdı. Nəticədə Vardanyan həbs olundu, Frenk isə gəlirli erməniпərəst “fəaliyyətini” daha da genişləndirdi.

Qarabağdakı separatçı rejim də xaricdəki erməni diasporu və lobbisinin, fondların yaratdıqları çirkli pulların yuyulması mexanizminin, korrupsiya zəncirinin bir halqası olub. Bu gün erməni diasporunun və himayəçilərinin girovuna çevrilmiş rüşvətxor konqresmenlərin “kriminal dairə”sinin ifşa olunmasını, belə destruktiv qüvvələrin siyasi səhnədən çıxarılmasını Azərbaycandan çox ABŞ-nin dövlət maraqları tələb edir.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri**

**Konqresdəki məlum müzakirələrdən sonra ABŞ–Azərbaycan münasibətləri bərpa olunma prosesindədir. Qarşıda iki ölkə arasında hansısa böyük layihələrdən danışmaq olmaz, amma təbii ki, ABŞ Azərbaycan üçün olduqca vacib tərəfdaşdır. Eyni zamanda, Ağ ev də ölkəmizin geosiyasi və iqtisadi potensialını yaxşı anlayır. Buna görə də baş diplomat Antoni Blinken bu addımları atır. Aydın məsələdir ki, Vaşinqton Cənubi Qafqazda bəzi hədəflərinə çatmaq istəyir. İlk növbədə Ermənistan və Azərbaycan arasında sülh məsələsi gəlir. Bu, ondan ötrü həm də strateji hədəfdir. Çünki bu zaman Rusiyanın bölgədə rolu zəifləmiş olur. Axı Moskva məhz münaqişə vasitəsilə regionu idarə edirdi. Həmin alətin onun əlindən çıxmasını ABŞ hakimiyyəti alqışlayır. Amma o da aydındır ki, Vaşinqton Ermənistanın Rusiyadan uzaqlaşmasına nail olmaqla, özü güclənməyə çalışır. Ola bilsin ki, Ağ ev bu məsələdə səhvə yol verir. Halbuki Ermənistanın KTMT-dən çıxma ehtimalı nəzərdən qaçırılmamalıdır.**

**ABŞ üçün digər vacib məsələ bölgədə İranın mövqeyi və nüfuzudur. Bayden Administrasiyasının məqsədi İranla müəyyən dil tapmaqdır. Bu səylərin nə dərəcədə uğurlu olacağını yaxın gələcək göstərəcək. Hazırda Yaxın Şərqdə cərəyan edən hadisələr onu göstərir ki, Vaşinqtonun burada çoxlu müttəfiqləri yoxdur. Olanlarla da münasibətləri korlamaqla məşğuldur. Təəssüflər olsun ki, həm ABŞ Konqresində, həm də Dövlət Departamentində erməniпərəst, Azərbaycana yanakı baxan qüvvələr var. Hər halda, Ceyms O’Braynın Bakıya səfərini Azərbaycanın müəyyən şərtlərinin Ağ ev tərəfindən qəbulu kimi də qiymətləndirmək olar.**

### Köşə

## Bəs deyilmi, ey insanlar, töküldü qan, axdı qan?



**İttifaq MİRZƏBƏYLİ**
**i-mirzebeyli@mail.ru**

**Əvvəllər deyirdilər ki, “böyük dövlətlərin” iqtisadi maraqlarının və siyasi qütbləşmələrin nəticəsi olaraq, dünya haqsızlıqlar içərisində çalxalanır. İndi isə artıq dünya məhz həmin səbəblər üzündən al-qan içindədir. Hamının üzərində hegemonluq etmək istəyən, anamız Yer kürəsinin bütün təbii sərvətlərinə göz dikən, öz maraqları naminə yüz minlərlə, milyonlarla insanın qətlinə fərman verməkdən çəkinməyən şər qüvvələr bəşər övladını al qana qərq ediblər. Televiziya xəbərlərinə baxmaq, elektron kütləvi informasiya vasitələrində yayılan məlumatlara nəzər salmaq mümkün deyil.**

Hara baxırsan münaqişə, müharibə, terror, təxribat, separatçılıq, işğalçılıq, ərazi iddiaları, silahlı qarşıdurmalar, ədavət, qisas... hansısa regionun altına barıt çəlləyi yerləşdirilməsi, sona çatmaqda olan münaqişələrin yenidən körüklənməsi... Sadəcə olaraq, dəhşətdir! XXI əsrin üçüncü onilliyində İblisin bu qədər fəallaşmasını kim gözləyərdi ki? Kim güman edə bilərdi ki, orta əsrlərdən qalma səlib (xaç) yürüşləri bu əsrdə də bərpa ediləcək? Kim inana bilərdi ki, qardaş qardaşın torpağına da, dövlətinə də, mədəniyyətinə də, övladına da qənim kəsiləcək? Kim proqnoz verə bilərdi ki, hər üç səmavi dinin nazil olduğu Yaxın Şərqin hər qarış torpağı uşaq, qadın, qoca, əlil insanların qanı ilə yenidən suvarılacaq? Çox təəssüf ki, heç kəsin inana bilməyəcəyi, güman etməyəcəyi, proqnozlaşdırmadığı həmin məsələlər günümüzün reallığıdır.

Bir tərəfdən də zəlzələlər, sunamilər, vulkan püskürmələri, qlobal istiləşmənin əsas fəsadlarından olan yanğınlar, epidemiyalar dünyanın başına od ələyir. Sən paralellərə bax. Kütləvi informasiya vasitələri xəbər verirlər ki, İsraillə HƏMAS atəşkəs razılaşması başa çatmamış bir-birinin başına od yağdırdılar. Bu sətirlərin mürəkkəbi qurumamış Asiyanın cənubundan xəbər gəldi ki, İndoneziyanın Sumatra adasının qərbində Merapi vulkanının püskürməsi nəticəsində ilkin məlumata görə, 11 alpinist həlak olub, çoxlu itkin düşən var.

Yaxud televiziya aparıcısı “Rusiya Ukraynaya növbəti dəfə ən müasir raketlərlə hücum etdi” anonsunun ardınca “İstanbulda güclü zəlzələ oldu” xəbərini söylədi. Bundan başqa, “Şimali Koreya rəqiblərini nüvə hücumları ilə hədələdi” xəbər başlığını “Yaxın Şərqdə aclıq və epidemiyalar bombardmanlardan çox insan ölümünə səbəb olacaq” xəbərdarlığı əvəz etdi. Eləcə də, “Co Bayden Çin rəhbərini “diktator” adlandırdı” manşetini “Makron Cənubi Qafqazda yenidən qan tökülməsinə çalışır?” – sualı əvəz etdi.

Bütün bunlar günümüzün acı reallıqlarıdır. Ancaq dünyanın xəbər arealları təkcə acı reallıqların ümidinə qalmayıb. Məmnunluq və əminlik yaradan reallıqlar da var. O reallıqları Azərbaycan dövləti, Türkiyə Cümhuriyyəti, Türk Dövlətləri Təşkilatı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Ərəb Dövlətləri Liqası və digər mütərəqqi qüvvələr birlikdə yaradırlar. “Dünya beşdən böyükdür” – deyən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da, “BMT Təhlükəsizlik Şurasının strukturunda islahatlar aparılmalıdır” – qətiyyətini dönə-dönə , israrla təkrarlayan Azərbaycan Prezidenti İlham Əliyev də, işğalçı və müstəmləkəçi Makron dövlətini Afikadan qovmaqda olan qara qitə siyasətçiləri də, ABŞ və Avropadakı şər qüvvələrə qarşı birlikdə mübarizə aparan Qoşulmama Hərəkatı üzvləri də dünyaya sülh gətirmək arzusunda olanların önündə gedirlər.

Mən “mayası nur, qayəsi nur” olan, regionda və dünyada sülhün bərqərar edilməsi üçün bütün vasitələrdən istifadə edən Azərbaycanın sadə bir vətəndaşı, türk qanlı qələm sahibi kimi xalqımla da, dövlətimlə də, Türk dünyası ilə də fəxr edirəm. Əminəm ki, dünyanın sabitliyini və sülhü qorumaq yolunu tutanlar qalib gələcəklər. Biz ölkələrimizi də, dünyamızı da şər qüvvələrdən qoruyacaq, bəşər övladının sülh, rifah və tərəqqi içərisində yaşamasına öz töhfələrimizi verəcəyik. Elə bu sətirlərin sərlövhəsinə çıxardığımız “Bəs deyilmi, ey insanlar, töküldü qan, axdı qan?” – ritorik sualının müəllifinin də məhz bizim soydaşımız, Azərbaycan şairi Novruz Gəncəlinin olması da türk fərdinin mənəvi keyfiyyətlərindən xəbər verir.

# Ölkəmizin dünyanın "yaşıl gələcəyi"nə davamlı töhfələri

## *Hazırda ölkədə 13 alternativ enerji stansiyası yaradılır*

**Energetika naziri Pərviz Şahbazov Dubay şəhərində keçirilən BMT-nin iqlim dəyişikliyinə həsr edilən konfransında 2030-cu ilədək daxili istehlak, iqtisadiyyatın dekarbonizasiyası və ixrac məqsədilə quruda və dənizdə 8 QVt-dan çox "yaşıl enerji" layihələrinin xarici investisiya hesabına reallaşdırılacağını bildirib. Nazir, eyni zamanda, dayanıqlı, təhlükəsiz enerji güclərinin yaradılmasında, "yaşıl gələcəy"in qurulmasına milli səviyyədə mühüm töhfənin verilməsində beynəlxalq enerji şirkətləri ilə əməkdaşlığın müstəsna rol oynadığını qeyd edib.**



P.Şahbazov çıxışında Azərbaycanın artıq 7 beynəlxalq şirkətlə "yaşıl enerji" tərəfdaşlığına başladığını da vurğulayıb. O, həmçinin 2030-cu ilədək olan dövrdə "yaşıl artım" ölkəsinə çevrilməyin və təmiz ətraf mühitə nail olmağın sosial-iqtisadi inkişafa dair milli prioritetlərdən biri kimi müəyyən edildiyini, belə bir siyasətin isə regionda enerji sahəsində uğurlu transformasiya üçün mükəmməl bünövrəni reallaşdırdığını diqqətə çatdırıb.

Xatırladaq ki, Prezident İlham Əliyevin bərpaolunan enerjinin xarici investisiya hesabına inkişafını, işğaldan azad olunan ərazilərin boz zonadan "yaşıl enerji" zonasına, Xəzərin "yaşıl enerji"nin istehsal və ixracının mərkəzinə çevrilməsini prioritetləşdirən dövlət siyasəti məhz "yaşıl sərmayə" axınına önəmli təsir göstərir. Cari ilin oktyabrında ilk xarici investisiya əsaslı və MDB, Xəzər regionunun ən böyük günəş elektrik stansiyasının "Masdar" şirkəti ilə birgə istifadəyə verilməsi də bunun bariz ifadəsidir.

Yeri gəlmişkən, 2027-ci ilədək "Masdar", "ACWA Power", BP, "China Gezhouba", "Nobel Energy" və "Baltech" tərəfindən xarici investisiya hesabına 1,6 QVt-dan çox gücdə 8 günəş və külək elektrik stansiyasının inşa olunacağı da nəzərdə tutulur. Həmçinin 2031–2037-ci illərdə "yaşıl enerji", hidrogen, "yaşıl ammonyak"ın istehsalı və ixracı məqsədilə təxminən 19 QVt həcmində güclərin də beynəlxalq enerji şirkətləri ilə yaradılması planlaşdırılır.

Qeyd edək ki, 2027-cı ilin sonunadək 1862 MVt həcmində "yaşıl güclər"in ölkənin enerji sisteminə inteqrasiyasını təmin etmək üçün elektrik enerjisi şəbəkəsinin gücləndirilməsi üzrə Dövlət Proqramının hazırlanması gözlənilir. Hazırda isə 2030-cu ilədək "Xəzər-Avropa İttifaqı" və "Azərbaycan–Türkiyə–Avropa" "yaşıl enerji" dəhlizləri yaratmaq və şaxələndirilmiş marşrutlarla, təxminən, 5 QVt həcmində "yaşıl elektrik" enerjisi ixrac etmək məqsədilə intensiv işlər görülür. Hazırda Xəzər dənizindən başlayaraq Azərbaycan, Gürcüstan, Qara dənizdən keçməklə Rumıniya və Macarıstanı əhatə edən, eyni zamanda, Bolqarıstanın da qoşulduğu dəhlizin texniki-iqtisadi əsaslandırması və bu layihə ilə bağlı birgə müəssisənin yaradılması istiqamətində müvafiq addımlar atılır.

Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasında xalis sıfır emissiyalı "Yaşıl enerji zonası" konsepsiyası mühüm əhəmiyyətə malikdir. Azərbaycanın gücünü ifadə edən bu nəhəng quruculuq prosesində adları çəkilən iqtisadi rayonların enerji ilə təminatı məqsədilə qısa müddətdə 1157 kilometrdən artıq müxtəlif gərginlikli elektrik verilişi xətti çəkilib, Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları inşa olunub, 20 yarımstansiya, ümumi gücü 75 MVt olan 13 stansiya bərpa edilərək istifadəyə verilib. Xankəndi şəhərinin Azərbaycanın enerji sisteminə qoşulması, düşməndən təmizlənən ərazilərimizin Şuşa yarımstansiyası vasitəsilə elektrik enerjisi ilə təminatı reallaşdırılıb.

Hazırda isə 119 MVt gücündə 13 stansiyada tikinti işləri aparılır. Həmçinin 140 MVt gücündə su elektrik stansiyalarının tikilib istismara verilməsi üçün tədbirlər davam etdirilir.

"Yaşıl enerji" zonasının yaradılması ilə bağlı 2022–2026-cı illəri əhatə edən tədbirlər təkcə bərpaolunan enerjinin inkişafı ilə məhdudlaşmır, enerji keçidinin bütün komponentləri üzrə fəaliyyəti də əhatə edir. Bu çərçivədə azad olunan ərazilərdə ümumi gücü 636 KVt olan Arximed qurğusu, 200-dən çox fərdi yaşayış evində günəş kollektoru, 170-dən çox evdə günəş paneli, ictimai və sosial binalarda ümumi gücü 800 kVt-dan çox olan günəş enerjisi sistemləri, 2300-ə yaxın LED lampalarla təchiz olunmuş və günəş enerjisi əsaslı, enerji səmərəli işıq dirəkləri, "ağıllı" dayancaqlar, elektrik doldurma məntəqələri quraşdırılıb.

Əlbəttə, sadalanan layihələr davamlı xarakter daşıyır və bütün səylər də bu innovativ təcrübənin geniş tətbiqinə, Qarabağ və Şərqi Zəngəzurun enerji səmərəliliyində nümunəvi bölgəyə çevrilməsinə yönəldilir. Şübhəsiz ki, əsas məqsəd də dövlət başçısının vurğuladığı kimi, Qarabağ və Zəngəzurun dünyanın qibtə edəcəyi şəkildə qurulmasıdır.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də "təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" beş prioritetdən biri kimi müəyyənləşdirilib və "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda "yaşıl enerji məkanı" layihəsi üzrə müəyyənləşdirilən tədbirlər qarşıya mühüm vəzifələr kimi qoyulub. Buradan da göründüyü kimi, Azərbaycanda bərpaolunan enerji mənbələrindən geniş istifadə təkcə ölkəmizin enerji təhlükəsizliyi ilə bağlı deyil, həm də az karbonlu enerji sistemi və dayanıqlı gələcək qurmaq, həmçinin xaricdə enerji gücümüzə olan tələbatı ödəmək məqsədi daşıyır.

Bütün bunlar isə deməyə əsas verir ki, Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası ekoloji problemlərin operativ həllinə, ətraf mühitin mühafizəsi istiqamətində ardıcıl və səmərəli tədbirlərin görülməsinə əlverişli şərait yaradır. Bunun nəticəsidir ki, respublikamızda təmiz ekoloji mühitin gerçəkləşdirilməsi məqsədilə mövcud təbii resursların dayanıqlı və səmərəli istifadəsi, tullantıların idarə edilməsi ilə bağlı infrastrukturun yaradılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycanın 2050-ci ilə qədər istixana effekti yaradan qazların emissiyası həcminin 40 faizə qədər azaldılmasının, habelə düşməndən təmizlənən ərazilərimizdə "təmiz 0" emissiya zonasının yaradılmasının şərti hədəf kimi götürülməsi də bunun bariz ifadəsidir.

***Vaqif BAYRAMOV***
***XQ***

## Şəki şərablarının xarici bazarı genişlənir

**"Şəki-Şərab" zavodu Sinqapur, Çin və Cənubi Koreya ilə şərab ixracına dair müqavilələr imzalamağı planlaşdırır.**



Bu barədə "Şəki-Şərab" zavodunun şərabçılıq şöbəsinin direktoru Vidadi Həsənov bildirib ki, milli texnoloji həllərlə hazırlanan "AzAbrau" şərabına Avropada, o cümlədən Fransa, İtaliya və İspaniyada maraq böyükdür: "Bu il zavod 2 milyon şərab satışı həyata keçirib. Gələn il 4 milyon şərabın ixracı nəzərdə tutulur. Zavodun əsas satış bazarı Rusiya və MDB ölkələridir. Bu yaxınlarda Çində keçirilən şərabçılıq sərgisində "AzAbrau" şərabları böyük maraqla qarşılanıb".

## Qeyri-neft ixracı 10 faizdən çox artıb

**Bu ilin yanvar–noyabr aylarında Azərbaycanın qeyri-neft məhsullarının ixracının dəyəri 3 milyard 33 milyon 68 min ABŞ dolları təşkil edib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 10,5 faiz çoxdur.**



İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin məlumatına görə, noyabr ayında qeyri-neft məhsullarının ixracı 321 milyon 85 min dollar təşkil edib. Bu sahədə artım əvvəlki ilin noyabr ayının göstəricisini 6,2 faiz üstələyib.

Qeyd edək ki, 2022-ci ildə Azərbaycanın qeyri-neft ixracı illik müqayisədə 12,3 faiz artaraq 3 milyard 47 milyon 67 min dollara bərabər olub.

## Ərzaq təhlükəsizliyi önəmli iqtisadi hədəfdir

**Baş nazir Əli Əsədov Milli Məclisin plenar iclasındakı çıxışında bildirib ki, ölkədə yerli istehsalın özünütəminetmədə rolunun artırılması ilə bağlı davamlı tədbirlər həyata keçirilir. Bu baxımdan ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, idxaldan asılılığın azaldılması prioritet istiqamətlərdən biridir.**



Hökumət başçısı çıxışında mövcud su ehtiyatlarından səmərəli istifadə olunması, fermerlərin suvarma suyu ilə təchizatı və suvarma sahələrinin genişləndirilməsi tədbirləri üçün 2024-cü ilin dövlət büdcəsindən 500 milyon manat vəsait ayrıldığını da vurğulayıb. O, eyni zamanda ölkə Prezidentinin ötən ay Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı imzaladığı fərmanları su ehtiyatlarından səmərəli istifadənin reallaşdırılmasına və su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsinə imkan verəcəyini də diqqətə çatdırıb.

Xatırladaq ki, aqrar sahəyə göstərilən dövlət dəstəyinin nəticəsi olaraq son illərdə texnika parkının yenilənməsi, aqrotexniki xidmətlərə əlçatanlığın reallaşması məsələləri diqqət mərkəzində saxlanılıb və toxum, gübrə və pestisid kimi istehsal vasitələri ilə təminat səviyyəsi yüksəlib, kənd təsərrüfatı sahəsinin infrastruktur və təchizat bazası genişlənib.

## Paytaxtda qeyri-dövlət sektorunun payı 87 faiz olub

**Bakı Şəhər Statistika İdarəsindən bildirilib ki, bu ilin yanvar-oktyabr aylarında paytaxt sənayesində istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 47 milyard manat təşkil edib. Sənaye məhsulunun 79,4 faizi mədənçıxarma, 17,9 faizi emal, 2,1 faizi elektrik enerjisi, 0,6 faizi isə su təchizatı sektorlarında istehsal olunub. Sənayedə qeyri-dövlət sektorunun payı 86,8 faizə çatıb.**

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilib, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında noyabrın 1-nə 462,5 milyon manatlıq hazır məhsul ehtiyatı olub.

***XQ***

# Dərmanların yeni ekspertiza tarifləri qiymətlərə təsir etməyəcək



**Tarif (qiymət) Şurasının dekabrın 5-də keçirilən növbəti iclasında dərman vasitələrinin və dərman maddələrinin dövlət qeydiyyatı ilə bağlı ekspertiza, o cümlədən xarici qeydiyyatın tanınması üçün sadələşdirilmiş ekspertiza xidmətlərinin tarifləri təsdiq edilib.**

Qurumun yaydığı məlumata əsasən, tarif dəyişikliyinin dərman vasitələrinin qiymətinə təsiri olmayacaq. Tarif Şurasının yeni qərarı ilə sadələşdirilmiş ekspertiza tarifləri mövcud tariflərdən təxminən 20-29 faizi azaldılıb. Adi ekspertiza tarifləri isə mövcud tariflərdən 20 faizə qədər yuxarı həddə təsdiqlənib. Qurumdan onu da bildiriblər ki, sadələşdirilmiş ekspertizanın tariflərinin daha aşağı olması həmin dərmanların qeydiyyatını, yenidən qeydiyyatını və idxalını daha səmərəli etməklə dərman təchizatının yaxşılaşdırılmasına şərait yaradacaq. "Bu hal dərman şirkətlərinin yüksək keyfiyyətli, effektivliyi təsdiqlənmiş dərman vasitələrini ölkəyə idxal etməsini stimullaşdıracaq",– deyə məlumatda bildirilir.

Ekspertlər hesab edirlər ki, yeni sadələşdirilmiş ekspertiza tarifləri ölkədə dərman çeşidliliyinin artmasına müsbət təsir göstərəcək. Bu da sahibkarların ölkəyə dərman idxal etməsinə marağını artıracaq. Bununla yanaşı, ölkənin dərman bazarında bu cür yeniliklər qiymətlərə, dərmanların maya dəyərinə də müəyyən təsir göstərəcək.

Xatırladaq ki, "Dərman vasitələri haqqında" Qanuna olunan dəyişikliyə əsasən, dərman vasitələrinin qeydiyyatı üçün ixtisaslaşdırılmış ekspertiza xidmətlərinin müddəti 210 gündən 90 günə endirilib. Xarici qeydiyyatın tanınması üzrə sadələşdirilmiş ekspertizanın nəticələrinə əsasən, dövlət reyestrinə daxil edilən dərman vasitələri üçün tələb olunan sənədlərin sayı azaldılıb. Xarici qeydiyyatın tanınması üçün sadələşdirilmiş ekspertiza üzrə qısa müddət – 11 iş günü təsbit edilib. Ekspertlərin fikrincə, ölkəmizə idxal olunan dərmanların tanınması üçün ekspertiza müddətinin 11 iş günü müəyyən edilməsi bu sahədə sağlam rəqabəti artıracaq.

İclasda, həmçinin yeni dövlət qeydiyyatına alınan 158 dərman vasitəsinin qiymətinin yuxarı həddi təsdiq edilib. Etibarlı təchizatın təmin olunması məqsədilə Səhiyyə Nazirliyindən müvafiq rəy alınmış 57 dərman vasitəsinin qiymətinin yuxarı həddində qanunvericiliyə uyğun olaraq dəyişikliklər aparılıb. Xatırladaq ki, qiymətlərinin yuxarı həddi təsdiq edilmiş dərman vasitələrinin tam siyahısı Tarif (qiymət) Şurasının rəsmi internet saytının "Dərman vasitələri" bölməsində yerləşdirilib.

Yeni tariflər sadələşdirilmiş ekspertiza ilə əlaqədar Nazirlər Kabinetinin "Dərman vasitələrinin ekspertizasının aparılması Qaydası"nda dəyişikliyi nəzərdə tutan qərarı ilə eyni tarixdən qüvvəyə minəcək. Tarif Şurasının yeni qərarı isə 2023-cü il dekabrın 8-dən qüvvəyə minəcək. Heç şübhəsiz, yeni qərar qüvvəyə mindikdən sonra Azərbaycan bazarına daha keyfiyyətli dərmanlar daxil olacaq ki, bu da istehlakçıların seçim imkanlarını xeyli artıracaq. Eyni zamanda, Azərbaycanda dərman bazarına nəzarət daha da gücləndiriləcək, ölkəyə daha keyfiyyətli dərmanların gətirilməsi təmin ediləcək.

Yeri gəlmişkən, Azərbaycanın əczaçılıq bazarının illik həcmi 850 milyon dollar təşkil edir. Bunun da böyük hissəsi, təqribən, 90 faizi idxal hesabına təmin edilir. Dərmanlar isə, əsasən, Türkiyə, Avropa, Çin, Rusiya və Hindistandan gətirilir. Bütövlükdə isə, ölkəmizə xaricdən gətirilən dərman və tibbi ləvazimatlara il ərzində 750 milyon dollardan artıq vəsait xərclənir. Prosedurların sadələşdirilməsi ölkəmizin dərman bazarında böyük canlanmaya səbəb olacaq, bu sahə ilə məşğul olan sahibkarlıq subyektlərinin fəaliyyətini stimullaşdıracaq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### Ekspert rəyi



**Eldəniz ƏMİROV, iqtisadçı-ekspert**

Hər şeydən əvvəl qeyd etmək istəyirəm ki, Tarif Şurasının dərmanlarla bağlı yeni qərarı iş adamlarını sadə ekspertizaya sövq edəcək. Belə ki, Azərbaycanda sadələşdirilmiş ekspertiza tariflərinin mövcud tariflərdən 20-29 faiz az müəyyən edilməsi təsərrüfat subyektlərinin adi ekspertizadan daha çox sadələşdirilmiş ekspertizaya üstünlük verməsini stimullaşdırır.

Sadələşdirilmiş ekspertiza xaricdə tanınmış dərmanlar üçündür. Bu tip ekspertiza ölkəyə idxal olunmuş dərmanın keyfiyyətinin yaxşılaşdırılmasına xidmət edir. Dərman vasitələri haqqında" qanunun birinci maddəsinin 34-cü bəndində qeyd edilir ki, sadələşdirilmiş ekspertiza dərman vasitələrinin xarici qeydiyyatda tanınması və xarici qeydiyyatda tanınmış dərman vasitələrinin idxalına icazənin verilməsi məqsədilə edilən ekspertizadır. Sadə dildə desək, sadələşdirilmiş ekspertiza o dərmanlar üçün tələb edilir ki, onlar artıq xaricdə tanınıb. Yəni artıq müəyyən ölkələrdə tanınmış dərmanlar sadələşdirilmiş ekspertiza vasitəsilə Azərbaycanda qeydiyyata alına bilər. Əgər beynəlxalq səviyyədə tanınan bir dərman Azərbaycana idxal olunursa, onun Azərbaycanda ekspertizası sadələşdirilmiş formada həyata keçirilə bilər. Çünki bu dərman beynəlxalq arenada qəbul edilib. Keyfiyyətsiz olsaydı, həmin dərman qəbul edilməzdi".

Sadələşdirilmiş ekspertiza tariflərinin azaldılması, əvəzində adi ekspertiza tariflərinin artırılması dərmanların qiymətinə təsir etməyəcək. Düşünürəm ki, təsərrüfat subyektləri 99,9 faiz ehtimalla hansısa qiymət artımına getməyəcək. Çünki bunun heç bir iqtisadi əsası yoxdur. Ekspertiza beş ildə bir dəfə aparılır. Bir il ərzində isə pərakəndə ticarət şəbəkəsində apteklərdə əczaçılıq məhsulları və tibbi ləvazimatlara bir milyard manatdan artıq vəsait xərclənir. Statistikaya görə, cari ilin yanvar-oktyabr aylarında apteklərdə bir milyard 39 milyon manatlıq dərman vasitələri və tibbi ləvazimatlar satılıb. Hətta ötən il bundan da çox olub. Odur ki, bir dərmanın burada qeydiyyatı üçün tarifin azalması o dərmanın qiymətinin azalmasına imkan verməyəcək. Eyni zamanda tarifin artması qiymətin artmasına gətirməyəcək. Yəni beş il ərzində tarif dəyişkənliyi dərman qiymətlərinə təsir edəcək gücdə olmur.

Xarici qeydiyyatın tanınması üçün sadələşdirilmiş ekspertiza üzrə müddətin 11 gün müəyyən edilməsi bu növ ekspertizaya yönəlik fəaliyyətin stimullaşdırılmasıdır. Adi ekspertizanın müddəti 90, sadələşdirilmiş ekspertizanın müddəti isə 11 gündür. Belə olan təqdirdə ölkəyə dərman idxal edən təsərrüfat subyekti beynəlxalq aləmdə qeydiyyatda olan dərman vasitələrinin idxalına üstünlük verəcək. Çünki həmin dərmanlar idxal edilərkən 11 gün ərzində tanınacaq, tarifləri aşağı olacaq, təsərrüfat subyekti keyfiyyətli məhsul idxal edəcək. Nəticədə, istehlakçılar belə dərmanları daha çox üstünlük verəcək. Bütün hallarda yeni qərarın dərman təchizatının yaxşılaşdırılmasına və əhalinin bu qəbildən olan məhsullarla keyfiyyətli formada təmin olunmasına hesablanmış addım olduğunu düşünürəm.

# Məişət zorakılığı cəmiyyətə vurulan zərbədir





**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) təşkilatçılığı ilə "Məişət zorakılığının qarşısının alınması: imkanlar və perspektivlər" mövzusunda beynəlxalq konfrans keçirilib. Mərasimdə "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın icrası istiqamətində görülən işlər, eləcə də bu sahədə digər ölkələrin müsbət təcrübələrinə dair təqdimatlar edilib, mövcud problemlər və perspektivlər barədə panel müzakirələri aparılıb.**

Konfransda Baş nazirin müavini Əli Əhmədov və dövlət orqanlarının vəzifəli şəxsləri ilə yanaşı, BMT-nin Azərbaycandakı rezident–əlaqələndiricisi, BMT-nin Əhali Fondunun Şərqi Avropa və Mərkəzi Asiya üzrə regional direktoru, Avropa Şurası Gender bərabərliyi şöbəsinin rəhbəri, Koreya Respublikası Parlamentinin Gender bərabərliyi və ailə komitəsinin sədri, Almaniya Schlesviq-Holsteyn torpağı üzrə Ədliyyə və Sağlamlıq Nazirliyi Probasiya Xidmətləri Departamentinin rəhbəri, Belarus, Böyük Britaniya və ABŞ universitetlərinin alimləri, Naxçıvan Muxtar Respublikası da daxil olmaqla bütün regionlardan mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, hüquq-mühafizə orqanlarının rəhbərləri, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri və jurnalistlər iştirak edirdilər.

**AQUPDK-nın sədri Bahar Muradova** çıxışında məişət zorakılığının cəmiyyətə, xüsusilə, ailə dəyərlərinə vurduğu ziyandan söz açdı. Bununla bağlı AQUPDK-nə hər il təqribən 400-ə yaxın müraciət daxil olduğunu bildirdi. Qeyd etdi ki, edilən hər müraciət qurum tərəfindən nəzarətə götürülür, zərər çəkmiş şəxslərə dəstək məqsədilə dövlət orqanları arasında əlaqələndirmə həyata keçirilir. Aparılan genişmiqyaslı məlumatlandırıcı və maarifləndirici tədbirlər məişət zorakılığı hallarının daha çox aşkar edilməsinə təkan verib: "Dövlət Komitəsinə məişət zorakılığı ilə bağlı daxil olan müraciətlər son dörd ildə üç dəfə artıb. Belə ki, quruma 2020-ci ildə 178, 2023-cü ilin 11 ayında isə 550 müraciət daxil olub".

**Elm və təhsil naziri Emin Əmrullayev** valideynlər arasında olan münaqişənin ailədə uşaqlara birbaşa təsir etdiyini, onlarda psixioloji gərginlik yaratdığını dedi. Bildirdi ki, ailə daxilində baş verən zorakılıq cəmiyyətdə özünü büruzə verir. Məktəblərin təhlükəsizliyi baxımından nazirlik bir çox layihələr həyata keçirir ki, bunlardan ən uğurlusu "Məktəblinin dostu"dur: "Bu layihənin əhatə dairəsi genişləndirilir. Çünki məktəblərdə xoşagəlməz hallardan sığortalanmamışıq".

Məişət zorakılığına ən çox məruz qalanların uşaqlar və qadınlar olduğunu söyləyən **əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev** bildirdi ki, Sumqayıtda, Bakıda və Cəlilabadda zorakılıqdan əziyyət çəkənlərə nazirliyin nəzdində fəaliyyət göstərən sosial dəstək mərkəzlərinin əməkdaşları tərəfindən yardım göstərilir. Amma bu zorakılığın qarşısının alınmasına yönələn tədbir deyil, dəstək xarakterlidir. Məişət zorakılığın qarşısının alınması üçün ailə dəyərlərinin artırılması vacibdir.

Milli Məclisin komitə sədri Hicran Hüseynova, TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov, BMT-nin ölkəmizdəki rezident–əlaqələndiricisi Vladanka Andreyeva və digər iştirakçılar zorakılığın qarşısının alınması ilə bağlı təcrübələrini bölüşdülər.

Panel sessiyalarda məişət zorakılığının müxtəlif növləri və onlara qarşı mübarizə üsullarına həsr olunmuş məruzələr dinlənildi. "Məişət zorakılığından zərər çəkmiş şəxslərin ədalət mühakiməsinə çıxış imkanları" mövzusunda məruzə ətrafında geniş müzakirələr aparıldı.

**Ali Məhkəmənin Cinayət Kollegiyasının hakimi Ələsgər Novruzov** məişət zorakılığını cinayətin bir növü adlandırdı və dünyanın aparıcı dövlətlərində də baş verdiyini bildirdi. O, 622 nəfər təqsirləndirilən şəxs barəsində işlərin öyrənilməsi nəticəsində müəyyən edilmiş nəticələri də açıqladı: "Müəyyən edilib ki, əsasən təqsirləndirilən şəxslər kişilər, zərərçəkmişlər isə qadınlardır. Belə ki, təqsirləndirilən şəxslərdən 94 faizi kişilər, 6 faizi isə qadınlardır".

**Baş Prokurorluğun daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuroru Rəfail Süleymanov faktlara toxundu:** "Ailə-məişət cinayətlərinin aktuallığını nəzərə alaraq, tərəfimizdən aparılan ümumiləşdirmə zamanı müəyyən edilib ki, 2022-ci ildə qadınlara qarşı 6671 cinayət faktı qeydə alınıb. Ailə-məişət münaqişəsi zəminində baş verən cinayətlərin 1129-da zərərçəkmiş şəxs qadınlar, 244-də isə kişilərdir. Zərərçəkmişlərdən isə 12-si yeniyetmədir. Onlardan 3-ü qız, 9-u isə oğlandır". O, 2023-cü ildə qadınlara qarşı törədilən 5034 cinayətin 1396-nın ailə-məişət münaqişəsi zəminində baş verdiyini diqqətə çatdırdı.

AQUPDK-nin sədr müavini Sədaqət Qəhrəmanovanın moderatorluğu ilə keçən panel iclasda ''Məişət zorkılığı hallarının profilaktikası və aşkarlanması'' mövzusu müzakirə edildi. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin, Daxili İşlər Nazirliyinin, Minsk Şəhər İcraiyyə Komitəsinin, Elm və Təhsil Nazirliyinin nümayəndələri müzakirələrə qoşularaq belə halların aşkarlanmasında polisin, təhsil işçilərinin, uşaqların mühafizəsi məqsədilə yaradılan QHT-nin köməyindən istifadə edilməsinin vacibliyini vurğuladılar.

Konfrans dekabrın 7-də davam edəcək.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

Dünya və biz

**Azərbaycanın bütün sahələrdə, eyni zamanda, təhsildə beynəlxalq qiymətləndirmələrdə mövqeyinin yaxşılaşdırılması qarşıda duran əsas məqsədlərdən biridir və bu istiqamətdə müşüm işlər görülür. Bu baxımdan PISA (Beynəlxalq Şagird Qiymətləndirmə Proqramı) tədqiqatının 2022-ci il üzrə açıqlanmış nəticələri böyük müzakirələrə səbəb olub.**

PISA-nın ötən il keçirilən tədqiqatında əsas sahə riyaziyyat olub və 81 ölkədən ümumilikdə 700 minə yaxın şagird qiymətləndirmədə iştirak edib. Bakı məktəbləri ilə təmsil olunan Azərbaycan 81 ölkə arasında 56-cı pillədə qərarlaşıb. Riyaziyyat üzrə nəticələrə görə, cədvəldə lider mövqe Sinqapura məxsusdur. Makau (Çin), Çin Taypeyi, Honkonq (Çin) və Yaponiya ilk beşlikdə yer alıblar.

# Azərbaycan təhsili beynəlxalq qiymətləndirmədə

**Təhsil eksperti Elmin Nuri PISA qiymətləndirməsində həm 2018-də, həm də 2022-də Azərbaycanın Bakı məktəbləri ilə təmsil olunduğunu bildirdi:**

– Azərbaycanda 4 mindən çox ümumtəhsil məktəbi fəaliyyət göstərir. Onlardan yalnız 329-u Bakıda yerləşir. Qiymətləndirmə isə yalnız paytaxtda təhsil alan şagirdlərin göstəricisi əsasındadır. Bununla belə, o qədər də yaxşı nəticə göstərə bilmədik. Siyahıda yer alan digər ölkələrdəki nəticələr isə təhsil sistemini ümumilikdə əhatə etdiyi üçün, bu, daha real göstəricini üzə çıxarır.

**Digər məsələ riyaziyyat üzrə göstəricilərin xüsusən aşağı olmasıdır. Ekspert qiymətləndirmədə iştirak edən şagirdlərin yalnız 38 faizinin 2-ci səviyyə biliyinə nail olduqlarını, bunun isə ümumi PİSA göstəricisinin orta həddindən (69 faiz) aşağı olduğunu dedi:**

– Qiymətləndirmədə iştirak edən şagirdlərimizin riyaziyyatdan topladıqları bal 380-dir (2018-ci ildə bu göstərici 420 bal olub). Amma orta bal isə 485 bal hesab olunur. Bu göstəricilərlə, 2018-ci ildəki nəticələrdən də geri qalırıq. 2018-ci ildə bu göstəricilər elan olunanda bu, böyük narahatlıq yaratmışdı ki, biz niyə o durumdayıq. Təhsil ictimaiyyətinin, ekspertlərin iştirakı ilə xüsusi görüşlər keçirildi, müzakirələr aparıldı, media bu barədə dəfələrlə yazdı. Halbuki, PISA-nın 2018-ci ildəki riyaziyyat və oxu üzrə göstəricilərimiz indikini üstələyir. Oxunun qiymətləndirilməsi meyarı baxımından 2018-ə nisbətən 24 bal itirmişik. Bu meyar üzrə ən çox xal itirən ölkələrdən biri də Azərbaycandır.

Elmin Nurinin sözlərinə onu əlavə etmək istəyirik ki, bəzi ekspertlər geriləməyimizə səbəb kimi pandemiyanı göstərirlər. Qeyd edilir ki, iştirakçı ölkələrin nəticələrinin orta göstəricilərində əvvəlki dövr ilə müqayisədə kəskin azalma müşahidə olunub.

**Ekspert sözünə davam edərək bildirdi ki, bəzi gerçəkləri ört-basdır etmək işimizə ümumilikdə ziyan vuracaq:**

– PISA-nın göstəricilərinə görə riyaziyyat, oxunun məzmun xətlərinə görə geri qalırıq. Hər il buraxılış imtahanından sonra Dövlət İmtahan Mərkəzi (DİM) hesabat xarakterli abituriyent jurnalı buraxır. Orada ciddi statistika özünü göstərir. 2 il bundan əvvəl riyaziyyatdan açıq tipli suallardan böyük əksəriyyət 0-50 bal toplamışdı. DİM-in hesabatları da, PİSA-nın göstəriciləri bunu deməyə əsas verir ki, bu gün məzmun xətləri üzrə dolğun tədris verə bilmirik. Biz daha çox qapalı testlərə üstünlük veririk. Qapalı testlərin cavablandırılması ilə iş bitmir. Açıq tipli suallara cavab verməkdə çətinlik çəkirik. Bəzi ekspertlər PİSA-nın doğru mövqe sərgiləmədiyini deyir ki, bu fikirləri də yanlış hesab edirəm.

PISA-nın hazırladığı siyahıdakı göstəricilər 2018-2022-ci illəri əhatə edir ki, onun da 2 il yarımı "Covıd"in payına düşüb. Əgər biz pandemiyaya hazır ola bilməmişiksə, distant təhsili, tədrisi tam doğru qura bilməmişiksə, o da bizim öz günahımızdır. Çünki bu proses bütün dünyada gedib. Bu, əsas vermir ki, hətta Monqolustan kimi bir ölkədən 9 pillə aşağıda yer alaq. Düşünürəm ki, əsas səbəb tədris prosesinin düzgün təşkil olunmaması, qapalı test psixologiyasının acı nəticələridir. Müasir dünya təhsili insandan analitik bacarıq tələb edir. Ona görə də, hesab edirəm ki, bu gün yüksək təhsil almağımıza mane olan problemlər geriləməyimizin əsas səbəbləridir.

Qeyd edək ki, inkişaf etmiş ölkələrin üzv olduğu İƏİT (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) və onun tərəfdaş ölkələrini əhatə edən, dünyanın ən böyük şagird qiymətləndirmə tədqiqatı hesab olunan PISA 15 yaşlı şagirdlərin riyaziyyat, təbiət elmləri və oxu üzrə bilik, bacarıq və səriştələrini ölçür.

PISA tədqiqatının 2021-ci ildə keçirilməsi planlaşdırılsa da, koronavirus pandemiyası ilə əlaqədar 2022-ci ildə həyata keçirilib.

***Q.LEYLA***
***XQ***

Epidemioloji durum

# Qızılca: vahimə və qorxuya əsas yoxdur

## *Uşaqların peyvənd edilməsi isə zəruridir*

**Azərbaycanda COVID-19 pandemiyasından sonra ilk dəfədir ki, çox sayda qızılcaya yoluxma qeydə alınır. Sosial şəbəkələrdə və bəzi saytlarda yazılanlara inansaq, düşünə bilərik ki, ölkədəki uşaqların az qala, yarıya qədəri qızılcaya yoluxub. Xəstəlik, hətta tələbələrə də keçib və bəzi tədris müəssisələrində təhsil distant formada aparılır. Bəs reallıq necədir?**

Əvvəla, onu deyək ki, qızılca uşaq xəstəliyi olduğundan erkən yaşda bütün uşaqlar bu xəstəliyə yoluxur. Özünü dəridə səpkilərlə göstərsə də, mütəxəssislər qızılcanı dəri xəstəliyi hesab etmirlər. O, törədici virusdur. Xəstəliyin ağırlaşmaları ölümə səbəb olduğundan, ötən əsrdən başlayaraq, kütləvi immunitet üçün peyvənddən istifadə edilir. İnsan qızılcaya yoluxduğunu ağız və əllərdə, kürəkdə yayılan səpkilərdən hiss edir. Amma yoluxma anı bir neçə gün əvvəldən baş verir.

Qızılcanın əlamətləri bir çox viruslarda olduğu kimi qızdırma, titrətmə, öskürək, ağızda, dəridə, boğazda qızartı, qaşınma, baş, bədən, əzələ ağrısı, halsızlıq, iştahsızlıq, zəiflikdir.

İnfeksionistlərin fikrincə, qızılca çox asanlıqla yayılan və bəzi insanlarda orqanizmin fərdi xüsusiyyətindən asılı olaraq, ciddi problemlər yarada bilən bir infeksiyadır. Tibbdə Rubeola və ya Morbilli kimi də tanınan bu xəstəlik tənəffüs sisteminin viral infeksiyası kimi də təyin edilə bilər. Hava-damcı yolu ilə insandan insana keçən qızılcanın inkubasiya dövrü 10–14 gün arasındadır. Qızılcaya, əsasən, uşaqlar yoluxsa da, digər yaş qruplarında olan insanlar da bu virusla xəstələnə bilir. Qızılca virusunun törətdiyi xəstəliyin yeganə məlum mənbəyi insandır. Yəni xəstəlik insandan insana keçərək onu yoluxdurur. Xəstənin öskürməsi və ya asqırması, o cümlədən yoluxmuş şəxslə fiziki təmasda olmaq xəstəliyin ötürülməsinə səbəb olur. Yoluxmuş insan asqırdıqda ətrafa yayılan virus bir saat havada asılı vəziyyətdə qalır. Buna görə də tənəffüs yolu ilə təmas xəstəliyin ötürülməsində mühüm amildir. Sağlam bir insanın qızılcaya yoluxmuş şəxsin istifadə etdiyi dəsmal, geyim, boşqab, çəngəl və ya oyuncaq kimi əşyalara toxunması böyük risk yaradır. Əgər insan bu əşyalara toxunarsa, sonra əlini sabunlamadan ağzına, burnuna və ya gözünə sürtərsə, virusa yoluxma ehtimalı yaranır.

Ləkə, səpki əvvəlcə ağızda, alında başlayır, sonra bütün bədənə yayılır. Onları qaşımaq, yod sürtmək, qopartmaq, yumaq olmaz. Əgər uşaq və ya gənc insan peyvənd olunmayıbsa, ətrafında 1 nəfər belə qızılcalı xəstə olsa, onun 90 faiz yoluxacağı dəqiqdir. Zəif və əlavə xəstəliyi olan uşaqlar, 20–40 yaş arası insanlar qızılcanı daha çətin keçirir. Qızılcanın inkubasiya dövrü 14 gündür. Çox vaxt adi qriplə səhv salınır və xəstə aktiv şəkildə virusu yayır. Qızılcanın ağırlaşması ağciyər, böyrək, ürək, beyində özünü göstərir. Hamilə qadınların qızılcaya yoluxması, xüsusilə, təhlükəlidir. Bütün xəstələr sahə ailə həkimi nəzarətində evdə tam təcrid olunmalıdır.

Mediada yayılan xəbərlərə görə, qızılca ilə mübarizə məqsədilə orta və ali təhsil müəssisələrində dezinfeksiya işlərinə başlanılıb. İnfeksionistlərin fikrincə isə, qızılcaya qarşı tədbirlər koronavirusdan fərqli olmalıdır. COVID-19 pandemiyasında küçə və binaların dezinfeksiyasının elə də əhəmiyyətli təsir etmədiyini gördük. Qızılca o qədər yoluxucu infeksiyadır ki, hətta bir binada 1 xəstə uşağın olması kifayətdir ki, sakinlərin əksəriyyəti yoluxsun. Bu zaman evin, binanın, hətta əllərin dezinfeksiyası yoluxmamaq üçün əsas vermir.

Qızılcadan maska da qorumur. Onunla mübarizənin yeganə yolu karantin və peyvənddir. Hazırda yoluxma aktiv olduğu üçün peyvəndləmə də risklidir. Çünki yoluxan uşağın xəstəliyi gec, 10–14 gün keçəndən, səpkilər əmələ gələndən sonra bilinir. Yoluxmanın gizli dövründə peyvənd vurulsa, bu, ağır fəsadlar yaradar. Peyvəndin özü də virusun zəif törədicisi olduğundan, sağlam uşağa vurulması vacib şərtdir. Ona görə də məktəb, bağça və universitetlərdə xəstəlik riskini həm də orta yaşlı təbəqə daşıyır. Qızılca 30–40 yaş qrupu üçün xüsusilə ağır keçir. 20–30 yaşlı şəxslər, hətta uşaqlıqda peyvənd olunsalar da, qızılcaya yoluxa bilərlər. Lakin orqanizmin fərdi xüsusiyyətindən asılı olaraq, kimin bu xəstəliyi necə keçirməsi öncədən proqnozlaşdırıla bilməz.

Saytlarda və sosial şəbəkələrdə yayılan xəbərlərdə deyilir ki, paytaxtdakı Bakı Slavyan Universitetinin nəzdində məktəb-lisey kompleksində qızılca xəstəliyi aşkarlanıb. Buna görə, liseyin 5-ci sinfi bağlanıb. Dərslərin 14 gün müddətinə distant formada keçirilməsinə qərar verilib.

**Faktı dəqiqləşdirmək məqsədilə məktəb-lisey kompleksin direktoru İlahə Carçıyeva ilə əlaqə saxladıq. Direktor yazılanları təkzib edərək dedi:**

– Gəlib baxa bilərsiniz. Məktəbdə heç bir sinif bağlanmayıb, distant təhsilə keçilməyib. Şagirdlər arasında qızılcaya yoluxma faktının olması barədə, ya poliklinikadan, ya da rayon epidemiologiya mərkəzindən rəsmi təsdiq almalıyam. Əlimizdə yoluxmanın olması barədə heç bir rəsmi, təsdiq olunmuş sənəd yoxdur. Doğrudur, 5-ci sinif şagirdlərinin birində qızdırma olduğundan dərsə gəlməyib. Amma hələ onun da qızılca olduğu təsdiqlənməyib. Qızılca olduğu haqda rəsmi sənəd olmasa da evdə müalicə alır. Elm və Təhsil Nazirliyinə bu barədə məlumat vermişəm. Çünki hər hansı sinfin distant təhsilə keçməsi, yaxud məktəbdə karantin rejiminin elan edilməsi birbaşa nazirin səlahiyyətindədir. Əldə də qızılca təsdiqi ilə bağlı sənəd olmadığından heç bir distant təhsildən söhbət gedə bilməz. Biz gözləyirik. Uşaqların dərsə davamiyyəti yerindədir.



**Direktor yayılan şayiələrə də münasibət bildirdi:**

– Bilmirəm, nəyə görə bu il qızılca yayılmasından panika yaranıb? Qızılcanı bütün uşaqlar keçirir. Həmişə olub, olacaq da. Nəvələrim bu məktəbdə oxuyurlar. Qızılca söhbəti yayılan kimi evdə tapşırdım ki, onların peyvəndini gecikdirmisinizsə, saxlamayın. Gedib vaksinasiya olundular. Mütəxəssislər də belə fikir bildirir, illərin təcrübəsinə əsaslanıb biz də deyirik ki, yoluxmalardan ən yaxşı çıxış yolu peyvənd olunmaqdır. Biz valideynlər arasında təbliğat aparırıq ki, "ay hörmətli valideyn, uşaqları vaxtında peyvənd etdirin ki, virusa yoluxanda da xəstəliyi yüngül keçirsinlər. Peyvənd vurdurandan sonra nə problem ola bilər? Uşaq 2 həftə müalicəsini alacaq, xəstəliyi yüngül keçirib məktəbə qayıdacaq".



İllərdir ki, təhsil müəssisəsində işləyirəm. Şagirdlər arasında qızılca da olur, suçiçəyi də, müxtəlif infeksion uşaq xəstəliklərinə yoluxanlar da. Valideynlər nahaqdan vahiməyə düşməkdənsə, şayiələrə inanmaqdansa, uşaqları vaxtında peyvənd etdirsinlər. Bəziləri vaksin əleyhinə, onun fəsad törədə biləcəyinə dair xəbərlər yayırlar. Fakta əsaslanmayan, mənbəyi olmayan yalan xəbərlərə inananlar daha çox olur.

Poliklinikaya müraciət etmişəm, maraqlanmışam ki, vaksinasiya necə gedir? Deyirlər ki, valideynlər gəlib peyvənddən imtina edirlər. Axı, nə səbəbə? Bilinmir. Qəribə şayiələr yayırlar, təhsil müəssisələri də qalır pis vəziyyətdə. Amma məktəbimiz, siniflər qaydasında, dərslərimiz də davam edir. Siniflərdən 1–2 nəfər dərsə gəlməyən varsa, bu, o demək deyil ki, həmin gəlməyən şagirdlər qızılcaya yoluxublar, yaxud qızılca olsa belə, sinif bağlanmalıdır. Hələ heç o bir nəfər xəstələnən şagirdimizin qızılca olduğu təsdiqlənməyib. Hansı distant təhsildən söhbət gedə bilər?

Qəzetiniz vasitəsilə valideynləri bir daha uşaqlarını peyvənd etdirməyə çağırıram. Uşaqlar qızılcanı keçirməlidirlər. Biz də uşaqlıqda qızılca olmuşuq, amma yüngül keçirmişik. Yalnız peyvəndin hesabına. Kimsə narahat olub həyəcan keçirməsin ki, övladım yoluxsa nə edəcəyəm? Vəziyyətdən çıxış yolu vaksinasiyadır. Peyvənd vurduran da yoluxacaq, vurdurmayan da. Fərq xəstəliyin yüngül və ya ağır keçməsində olacaq.

Direktorun fikirlərinə əlavə olaraq deyək ki, insanlar hazırda qızılca xəstəliyinin artımı ilə bağlı narahat olmasınlar. Uşaqları qızılcanın ağırlaşmasından yalnız milli peyvənd təqviminə uyğun olaraq, 1 və 6 yaşlarında peyvənd etdirməklə qorumaq olar. Səhiyyə Nazirliyinin dekabrın 5-də yaydığı müraciətdə deyilir ki, hər hansı səbəbdən peyvəndin 2-ci dozasını vaxtında almayan 10 yaşa qədər uşaqlar peyvəndin 2-ci dozasını, hər iki dozanı vurdurmayan 10 yaşa qədər uşaqlar isə minimum 4 həftə intervalla peyvəndin 1-ci və 2-ci dozasını almalıdırlar.

***Z.HÜSEYNOVA***
***XQ***

# Gizlin çapxanalar, “pirat” naşirlər

## Söhbət kitab buraxılışı kimi halal işə haramlıq qatmaqdan gedir

**Çağdaş dünyada sosial şəbəkələrə, onlayn təmaslara bağlılıq artsa da, ənənəvi kitab mütaliəsi heç də dəbdən düşməyib. “Keçid dövrü”nün üzdəniraq “özününküləşdirmə” və “qamarlama”ları gedişatında axırına çıxılmış kitab mağazalarının bərpası, yeni nəşriyyatların yaradılması və xarici ədəbiyyat nümunələrinin tərcümə edilərək çap edilməsi kitab mədəniyyətinin qorunub saxlanmasını təmin edir.**



Vaxtaşırı keçirilən kitab yarmarka-sərgilərində müşahidə olunan izdihamlar, yerlərdə görkəmli şair və yazıçılarla çoxsaylı görüşlər də göstərir ki, oxucuların kitaba marağı sönməyib. Bütün bu meyllər, təbii olaraq, kitab bazarında canlanma yaradır. Amma, eyni zamanda, təəssüf ki, kitab yayımı və ticarətində müəyyən özbaşınalıq və qanunsuzluq halları da baş qaldırıb. Söhbət yeni kitab bumunu fürsət bilərək, “qaz vurub qazan dolqurmaq” istəyən qeyri-peşəkar naşirlərin meydan sulamasından, özəl mətbəələrdə “piratçılıq” (yağmaçılıq ) yolu ilə, ucuz və bəsit surətçıxarma üsulunda bədii və tədris ədəbiyyatını çap edib gen-bol satmasından gedir. Nəticədə, oxucular pul verib aldıqları kitabların keyfiyyətindən narazı qalır və bilmirlər ki, bu kitablar, doğurdanmı, qanuni nəşrlərdir? Min-bir çətinliklə nəfis kitablar buraxan həqiqi naşirlər isə zəhmətlərinin mənimsənilməsindən – “pirat”ların qazanc xatirinə qeyri-leqal fəaliyyətindən ziyan çəkirlər.

Problemlə bağlı narahatlığını sosial şəbəkələrdə bildirmiş “Qanun” Nəşriyyat Evinin direktoru Şahbaz Xuduoğlu ilə söhbət etdik. “Pirat” kitablar hər zaman olub, – deyə o bildirdi:

– Ancaq ölkəmizdə kitab ticarəti genişləndikcə belə hallara daha çox rast gəlinir. Özü də daha çox tələbat duyulan nəşrlər – populyar müəlliflərin əsərlərinin, bədii tərcümələrin, eləcə də dərslik və dərs vəsaitlərinin klonlarının – oxşarı və törəmələrinin çapı üstünlük təşkil edir. Həm də oğru çapçılar kitabları firma nişanını saxlamaqla tirajlayıb adamları aldadırlar. Qiymət də eyni olur ki, şübhə doğurmasın.

“Qanun”un nəşrləri çox satılan kitablar olduğu üçün belə hallarla biz daha çox üzləşirik. “Pirat” məhsulları ciddi kitab şəbəkələrində və ixtisaslaşmış mağazalarda deyil, əsasən metro stansiyalarının yanında, yeraltı keçidlərdə, zirzəmilərdə “Sədərək” ticarət mərkəzində, bazarlarda və gözdən-könüldən iraq rayon mərkəzlərində görmək olar. Yalnız şəxsi mənfəətini güdən haramxor işbazlar həm alıcıları aldadır, həm də nəşriyyatların kitab ticarətinə zərbə vururlar. Biz bununla



bağlı Daxili İşlər Nazirliyinə dəfələrlə müraciət etmişik və hər zaman da müəyyən müsbət nəticələr olub: bəzi kitab mağazalarından “pirat” nəşrləri yığışdırıblar. Düşünürəm ki, bu mübarizə mütəmadi aparılmalı, qanun pozucuları sərt cəzalandırılmalıdırlar.

– Saxta kitab nəşri və satışı qanun pozuntusu olmaqdan əlavə, həm də etik bir məsələdir, yəni özünə hörmət edən ticarətçi kiminsə müəllif hüquqlarını pozmamalıdır...

– Doğrudur. Biz bir kitabın əlyazmasını alır, müəlliflə müqavilə bağlayır, sonra nəşr edir və satışa çıxarırıq. Bu isə həm böyük əziyyət, həm də maliyyə xərcləri tələb edir. Konkret misallar çəkim: Orxan Pamuk, Gen Brone, Steyn Berk kimi ünlü yazarların əsərləri “Qanun”da tərcümə və çap olunur biz həmin nəşrlərdən onlara ödənişlər edirik. Amma asan qazanc hərisi olan hansısa bir əliəyri müəllif hüquqlarını, çəkilən xərcləri nəzərə almır, həm də kitabları, təbii ki, çox keyfiyyətsiz şəkildə çap edib alıcıya sırıyır. Belə kitabların yazıları pozulub qarışır, vərəqləri dağılır. Oxucular da elə bilirlər, bu keyfiyyətsiz məhsullar bizə aiddir və sosial şəbəkələrdə nəşriyyatlardan narazılıq edirlər.

Şahbaz Xuduoğlu peşəkar nəşriyyatlarda istehsal olunan kitabların “pirat” kitablardan asanlıqla fərqləndiyini də söylədi:

– Bizim nəşr etdiyimiz kitabların üzündəki yazılar qabarıq şəkildə və laklı olur. Təəssüf ki, indi bunu “pirat” kitablarda da etmək olur. Amma saxta nəşrlər bir müddət istifadə etdikdən sonra tez qopur, yazıları silinir, vərəqləri solğunlaşır, çox hissələrinin oxunuşu çətinləşir. Atalar demişkən, ucuz ətin şorbası olmur. Alıcılar bir qədər diqqətli olsalar, fərqi seçə bilərlər. Məsləhətim budur ki, qoy, hamı kitabı rəsmi kitab şəbəkələrindən almağa üstünlük versin. Küncdə-bucaqda satılan kitabları almaq lazım deyil, çünki hardan gəldi, dönər alıb yeyən insan zəhərləndiyi kimi, təsadüfi yerdən kitab əldə edən insan da zərərə düşmüş olur.

Onu da deyək ki, oxucuların kitab alarkən qəbz tələb etməsi də vacibdir. Belə olduqda lazım gələndə müvafiq orqanlara sübut-dəlilli şikayət etmək imkanı olar. Eyni zamanda, heç də hər kəs ürək edib alıcıları keyfiyyətsiz nəşrlərlə aldatmaz.

Sonra nəşriyyat rəhbəri bizə həqiqi və “pirat” kitabların fərqini əyani şəkildə göstərdi. Fikir verincə gördük ki, həqiqi kitablarda qüsur yox idi, digər nüsxələrin, necə deyərlər, əldəqayırma olanların isə qıraqları əzilmiş halda, yazıları solğun, kağızı keyfiyyətsiz idi.

Öyrəndik ki, bir biabırçı məqam da internetdən bəzi əsərlərin PDF variantının köçürülməsidir. Məsələ bundadır ki, hər hansı bir kitabın ingilis dilində PDF formasına rast gəlmək mümkün deyil, çünki xarici naşirlər internetdə də müəllif hüquqlarının qorunması ilə bağlı ciddi tədbirlər görürlər. Elektron kitablar PDF halına salınıb götürülməsin deyə, dünyada məşhur elektron kommersiya platformaları olan “Amazon”da da, “Google”da da ciddi tədbirlər görülür. Bizdə isə hələ ki, belə deyil və oğrular həmin texniki imkandan sui-istifadə edə bilirlər.

Bəli, bəhs etdiyimiz problem ilk baxışda qabarıq nəzərə çarpmır, çünki oyun gizli aparılır. Belə gizlinlər aşkara çıxarılmalı və aradan qaldılmalıdır. Söhbət kitab kimi müqəddəs bir qaynaqdan, ticarət kimi halalıq sevən bir peşədən gedir.

***Əli NƏCƏFXANLI,***
***Ayşən AZADOVA,***
***XQ***



# “Təbrizin səsi” Bakı səhnəsində

**Xəbər verildiyi kimi, Güney Azərbaycanın ünlü ozanı Aşıq Çingiz Mehdipurun rəhbərlik etdiyi Təbrizin məşhur “Dalğa” musiqi qrupu dördillik fasilədən sonra yenidən Bakının qonağıdır.**

Otaylı sənətçilərin butaylı həmkarları ilə birgə ərsəyə gətirdiyi maraqlı və zəngin repertuar Heydər Əliyev Sarayına toplaşmış çoxsaylı aşıq yaradıcılığı izləyicisini milli musiqimizin heyranedici aləmində ruhi-mənəvi birliyə qovuşdurdu. Güneyli Aşıq Cavad Məhərrəmi, Aşıq Məhbub Əbdu, Aşıq Salar Mehdipur, Aşıq Xatirə Məhəmmədxanlı, Quzeydən isə Aşıq Əli Zeynalabdinov, Məhsəti Cabbarova, Mirələm Mirələmov, Anar Şuşalı, Aşıq Nazim Quliyev və digər sənətçilərin bir-birini əvəz edən məftunedici çıxışlarının arasında səhnəyə dəvət edilən akademiklər Nizami Cəfərov və Muxtar İmanov, AMEA müxbir üzvü Misir Mərdanov, Xalq şairi Sabir Rüstəmxanlı, professor Mahirə Nağıqızı “Təbrizin səsi” adlı bu konsertin məhz xalqımızın ortaq zövqünü sərgiləməsindən, məfkurə birliyini parlaq şəkildə təcəssüm etdirməsindən söz açdılar. Natiqlər bu yolda 50 milyonluq xalqımıza daha möhkəm qaradaşlıq və davamlı həmrəylik arzuladılar.



Konsertin sonunda Aşıq Çingizin ifa etdiyi “Yanıq Kərəmi” kompozisiyası və digər solo təqdimatları salonda daha yüksək coşğu və alqışlar yaratdı.

**Elə bu əhvalla da konsertdən dərhal sonra Çingiz bəylə ayaqüstü müsahib olduq. Güneyli sənət fədaisi bildirdi:**

– Dördillik ayrılıqdan sonra yenidən Bakının ən böyük salonunda, bu il 100 yaşı tamam olan Ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan möhtəşəm sarayda qardaşlarımız qarşısında çıxış edə bilməyimiz böyük xoşbəxtlikdır. Dünyanı sarsıdan, yolları kəsən pandemiya arxada qalıb, Qarabağ zəfəri 30 illik ümumi yaramıza məlhəm olub.

Biz hər mizrab vuranda onun sizlərin qəlbini necə titrətdiyini aydınca duyub daha coşğu ilə çalıb-çağırdıq. Siz bizdən təsirləndiyiniz kimi, biz də sizin sənət zövqü almağınızdan ilhamlandıq. Doğma ana dilimiz kimi, milli musiqimiz də xalqımızın mənəvi birliyini ifadə edir və onu gələcəyə yönləndirir. Biz Təbrizdən Bakıya elə bu istəklə gəlmişik. Bu tayda qazanılan qələbə bütün dünya azərbaycanlılarına hədsiz öyünc gətirir.

Birgə konsertimizin belə uğurlu alınması isə ümumi mədəni qaynaqlarımızın yaşarılığını, mənəvi birliyimizin sarsılmazlığını bir daha sübut etdi. Biz bir ananın övladları olduğumuzu belə ortaqlaşma məqamlarında daha aydın görüb anlayırıq. Xalqımızın xoş günləri biz sənətçilərə yeni yaradıcılıq əhvalı gətirir. Həmişə qardaşlarımızın xidmətində olmaqdan məmnunluq duyuruq.

Çingiz bəyi və sənət dostlarını qarşıdakı günlərdə redaksiyaya dəvət etməklə söhbəti bitirdik. Sənət dialoqunun ardını redaksiyamızda keçiriləcək görüşdə davam etdirəcəyik.

**T.RÜSTƏMLİ**
**XQ**

**Yaddaşlarda yaşayanlar**

# “Gəl bizim dağlara, gör nə gözəldir...”

## Allaha şükür ki, bu sətirlərdə söz açdığım üç soydaşımızdan biri hələ sıramızdadır

**Bəlkə də oxucularımızın hansınınsa yadında olar. Mən bu mövzu barədə xeyli əvvəl sosial şəbəkədə söz açmışdım. Ancaq həm xatirələrin kövrəkliyi, həm də qəzetimizdəki məlum rubrikanın daha da zənginləşdirilməsi istəyi məni bu yazıya yenidən qayıtmağa sövq etdi.**



O zaman yazıya belə bir sərlövhə vermişdim: “Taksi sürücüsünün gündə üç dəfə qulaq asdığı mahnı və ... ölməyən xatirələr”. Dostlarımızdan biri demişdi ki, oradakı “ölməyən” sözünü “öləziməyən” sözü ilə əvəz et. Xətrinə dəymədim.

Hər halda əl boyda yazının ikinci variantını Arif Məlikov və Həmid Abbasa min rəhmət, Akif İslamzadəyə isə möhkəm can sağlığı arzusuyla qələmə alıram.

... Gecənin yarısı idi. Özüm taksidə olsam da, fikrim, xəyalım haralarda idi, bir Allah bilirdi. Yolayrıcının qırmızı işığı yolumuzu kəsdi. Dayandıq. Paralel dayanan maşının açıq pəncərəsindən ilk dəfə 30-35 il əvvəl eşitdiyim və sonralar ən çox sevdiyim mahnının səsi gəlirdi: “Sən bizə təbiət oyananda gəl...” Akif İslamzadə ... oxumurdu. Sadəcə, səslə, təranələrlə möhtəşəm bir lövhə yaradırdı. Sarı işıq, sonra yaşıl işıq və “mahnı” sürətlə uzaqlaşıb getdi. Heyf, deyə təəssüf etdim.

Sürücü nəyə təəssüf etdiyimlə maraqlandı. Dedim, o mahnını çox sevmişəm. “İndi də sevirsinizsə, mən də oxudum” – deyə, gülümsündü və oxutdu. Əlavə etdi ki, mən bu mahnıya gündə üç dəfə, günüm pis keçəndə isə dörd-beş dəfə qulaq asıram.



... Mərhum baş redaktorumuz Nahid Hacızadə aşıq mahnılarını çox sevsə də, Mübariz Tağıyevlə Akif İslamzadənin ifalarına böyük önəm və qiymət verir, həmişə dinləyirdi.



Bir dəfə mən Akifin həmin ifası barədə kiçik bir yazı qələmə almışdım. Nahid müəllim yazını çox bəyəndi və götürüb Həmid Abbasa zəng elədi ki, ayə, ay eloğlu, burda sənin sözlərinə yazılmış mahnı haqqında bir yazı var. Daha doğrusu, Akif haqqında yazılıb.

Həmid Abbas telefonda nə desə yaxşıdı? Dedi: – O mahnı Arif Məlikovla Akif İslamzadənin yaradıcılığıdır. Mən elə-belə sözləri ni qaralamışam.

... Sonra mən radioda işləyəndə Həmid Abbasla bir neçə dəfə görüşdüm. Daha sonra “Xalq qəzeti”ndə Həmid müəllimin oğlu Ayazla birlikdə işlədik. Bəlkə də, həm şairin özüylə, həm də oğlu ilə hər söhbətimizdə o mahnını yada salırdım.

... Lap sonra isə ... Həmid Abbasın cənazəsi “Aktyor evi”nin səhnəsinə qoyulanda – necə oldusa, mən minlərlə insanın arasından Akif İslamzadəni gördüm. Akif ağlayırdı. Elə Həmid müəllimin digər əzizləri də.

***İ.QAÇAYOĞLU***
***XQ***

# Azərbaycanın növbəti mədəni irsi UNESCO siyahısında

**Botsvananın Kasane şəhərində keçirilən UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 18-ci sessiyasında Azərbaycanın qeyri-maddi mədəni irsi ilə bağlı daha 4 element Reprezentativ Siyahısına daxil edilib.**

Reprezentativ Siyahıya təqdim edilmiş nominasiyalar arasında Azərbaycanın Türkiyə ilə birgə təqdim etdiyi “Balaban sənətkarlığı və ifaçılıq sənəti”, ölkəmizin iştirakı ilə hazırlanan “Təzhib sənəti”(Azərbaycan, İran, Tacikistan, Türkiyə və Özbəkistan), “İftar və onunla bağlı sosial-mədəni ənənələr” (Azərbaycan, İran, Türkiyə və Özbəkistan) və “Sədəf sənətkarlığı”(Azərbaycan və Türkiyə) çoxmillətli faylları vardır.

UNESCO-nun Qiymətləndirici Orqanı tərəfindən bütün meyarlara dair müsbət rəy alan nominasiya fayllarına dair qərarı dünən elan edilib. Bununla da UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısında yer alan elementlərimizin sayı 23-ə çatıb.

Sessiyada çıxış edən ölkəmizin UNESCO yanında daimi nümayəndəsi, səfir Elman Abdullayev Azərbaycan Respublikası adından UNESCO Qiymətləndirmə Orqanına və Hökumətlərarası Komitəyə xalqımızın mədəni dəyər nümunələrini dəstəklədiklərinə görə təşəkkür edib. Daimi nümayəndə eyni zamanda faylların hazırlanmasında iştirak edən ölkələrə də öz minnətdarlığını bildirdi.

Qeyd edək ki, adıçəkilən nominasiya faylları Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının UNESCO




yanında Daimi Nümayəndəliyi və UNESCO üzrə AR Milli Komissiyası eləcə də qeyd olunan xarici ölkələrin müvafiq qurumları ilə əməkdaşlıq sayəsində ərsəyə gətirilib.

***Q.RAMİLƏ***
***XQ***

# “Vikipediya”da özbək dilində Şuşa bölmələri

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə “Wikipedia.org” Beynəlxalq Elektron Ensiklopediyasında Türk dünyasının mədəniyyət paytaxtı Şuşa şəhəri haqqında özbək dilində bölmələr yaradılıb.**

“Vikipediya”da Şuşa şəhərindəki tarixi abidələr, məscidlər, digər memarlıq nümunələri, tanınmış şuşalıların ev muzeyləri haqqında yeni bölmələr istifadəyə verilib. Bölmələrdə “Qarabağ Xan sarayı”, “Qaraböyük xanım sarayı”, “Hacı Quluların mülkü”, “Mehmandarovların evi”, “Zöhrabbəyovun evi” adlı məqalələr yer alıb.




“Qarabağ xan sarayı” və “Qaraböyük xanın sarayı” bölmələrində qeyd olunub ki, Şuşa qalası ərazisində bir neçə sarayın olması haqqında məlumat verilsə də, onlardan yalnız ikisi Pənahəli xan sarayı və Qaraböyük xanım sarayı dövrümüzə qədər gəlib çatıb. Məqalənin “Tarix” alt bölməsində qeyd olunur ki, orta əsrlərə aid feodal dövrünün demək olar ki, bütün şəhərləri şəhər daxilində, qorunan yüksəkliklərdə tikilmiş istehkam qalalarının olması ilə xarakterizə edilib. Bu qalalarda hökmdara xidmət etmək və onun təhlükəsizliyini qorumaq üçün nəzərdə tutulmuş saray kompleksi, istehkamlar və digər tikililər yerləşib. Şuşa qalasında qala memarlığının özünəməxsusluğu səyyahların və şəhər qonaqlarının diqqətini cəlb edib, mənbələrdə bununla bağlı onlarla məlumatın yer alması ayrıca qeyd olunub.

“Hacı Quluların mülkü” adlı məqalədə 1849-cu ildə tikilən tarixi-memarlıq binasından bəhs olunur. Qeyd olunur ki, Hacı Qulu Sarayı kimi tanınan mülk öz memarlıq üslubu və milli koloriti ilə seçilir.

“Mehmandarovların evi”, “Zöhrabbəyovun evi” məqalələrində XVIII əsr Azərbaycan memarlığının ən maraqlı və gözəl nümunələrindən biri olan və Şuşada yerləşən saray tipli tarixi yaşayış kompleksləri haqqında məlumat verilir. Qeyd olunur ki, bu binaların interyerləri Şəki Xan Sarayının divar rəsmlərini xatırladır.

Məqalələrdə vurğulanır ki, bu abidələrin əksəriyyəti Ermənistan tərəfindən Azərbaycan ərazilərinin 30 illik işğalı nəticəsində dağıdılıb, bəzilərindən isə yalnız divarlar qalıb.

Diqqətə çatdırılır ki, 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu işğal olunan torpaqları azad edib və hazırda Azərbaycan dövləti tərəfindən bu ərazilərdə abadlaşma işləri aparılır, Heydər Əliyev Fondu bu abidələrin bərpasını həyata keçirir.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***
**Daşkənd**

BEYNƏLXALQ HƏYAT

# Respublikaçılar Co Baydenə qarşı

## Ağ ev sahibinin postundan uzaqlaşdırılması baş tutacaqmı?

**ABŞ Konqresinin Nümayəndələr Palatasındakı Respublikaçılar çoxluğu prezident Co Baydenə qarşı impiçment prosesinin araşdırılması məsələsini yaxın həftələrdə səsverməyə çıxarmaq niyyətindədir. İstintaqı daha əvvəl aşağı palatanın vəzifədən kənarlaşdırılmış spikeri Kevin Makkarti başlatmışdı. O, bunu səsvermə prosedurundan yan keçməklə etmişdi. Bəs təşəbbüsün səbəbləri nədir və bu prosesin uğurla başa çatmaq şansı varmı?**



ABŞ prezidenti Co Bayden impiçment proseduruna məruz qalan Amerika liderləri siyahısına daxil olmaq riski ilə üzləşib. Belə ki, ABŞ Konqresinin Nümayəndələr Palatasındakı respublikaçılar demokrat prezident Co Baydenə qarşı mümkün impiçment prosedurları (vəzifədən kənarlaşdırılması) istiqamətində ilk konkret addımları atıblar. Bu həftənin əvvəlində Nümayəndələr Palatasının spikeri Kevin Makkarti belə bir prosedurla bağlı rəsmi araşdırmaya başlamağı göstəriş verdiyini açıqlayıb. Araşdırmanın səbəbi, K.Makkartiyə görə, Co Baydenin oğlu Hanter Baydenin qeyri-qanuni biznes əməliyyatlarında iştirak etdiyinə dair etibarlı iddiaların olmasıdır: “Bunlar vəzifə səlahiyyətlərindən sui-istifadə, faktların gizlədilməsi və korrupsiya ittihamlarıdır və əlavə araşdırma tələb edir”.

Ümumiyyətlə, ABŞ-nin keçmiş prezidenti Donald Trampın rəhbərlik etdiyi Respublikaçılar Partiyasının (RP) sağ qanadı xeyli müddətdir ki, Co Baydenə qarşı impiçment prosesinə başlatmağa çalışır. Avqustun sonunda D.Tramp özünün “Truth” sosial şəbəkəsində belə yazmışdı: “Ya siz bu uduzan şəxsə impiçment elan edin, ya da unudulmuş halda yoxa çıxın”. Onlar da (Demokrat Partiyası - red.) bizə də bunu etmişdilər!”. Xatırladaq ki, D.Trampın Ağ Evdə işlədiyi dörd il ərzində Konqresdəki Demokrat çoxluğu onu iki dəfə vəzifəsindən uzaqlaşdırmağa cəhd göstərmişdilər: birinci dəfə səlahiyyətdən sui-istifadə ittihamları ilə, ikinci dəfə isə 2020-ci il prezident seçkilərinin rəsmi nəticələri elan edildikdən sonra D.Tramp tərəfdarlarının Kapitoliyə hücumu ilə bağlı. Ancaq belə işlərdə məhkəmə rolunu oynayan Senat D.Trampa iki dəfə bəraət vermişdi, çünki orada səs çoxluğu olan respublikaçılar ittihamı dəstəkləməmişdilər.

Nümayəndələr Palatasının respublikaçıları tərəfindən irəli sürülən ittihamlar Co Bayden ailəsinin maliyyəsi, xüsusən də prezidentin kiçik oğlu Hanter Baydenin şübhəli xarici əlaqələri ilə bağlıdır. 53 yaşlı Hanter atası, ABŞ vitse-prezidentinin (2009-2017-ci illər) Barak Obama administrasiyasındakı əlaqələrindən Ukrayna və Çində biznes qurmaq və sövdələşmələr etmək üçün istifadə etməkdə ittiham olunur. Oğul Baydenin 2017 və 2018-ci illərdə 100 min dollardan çox gəlir vergisini vaxtında ödəmədiyi iddia edilir. Bu səbəbdən, eləcə də mümkün qeyri-qanuni silah saxlamaqla bağlı Hanter Bayden artıq istintaq altındadır. Avqust ayında ABŞ-nin baş prokuroru Merrik Qarland Delaver ştatının prokuroru David Veissi prezidentin oğlunun işi üzrə səlahiyyətləri genişləndirilmiş xüsusi müşavir təyin edib.

İndi Nümayəndələr Palatasının spikeri Mayk Conson prezident Co Baydenin impiçmenti üzrə məhkəmə prosesi ilə bağlı rəsmi səsvermə ilə irəliləyəcəyinə ümid etdiyini bildirib. M.Conson Baydenin impiçmentini zəruri addım adlandırıb, çünki Ağ Ev onun ailə üzvlərinin qanunsuz hərəkətləri ilə bağlı araşdırmalara mane olur. Spikerin sözlərinə görə, o, Nümayəndələr Palatasının nümayəndəsi Eliza Stefaniklə birlikdə iki dəfə ABŞ-nin keçmiş prezidenti Donald Trampın impiçment üzrə müdafiə komandasında çalışmışdı. O vaxt demokratlar prosedurdan “partiyanın siyasi məqsədləri üçün” istifadə etmişdilər. “Biz bu istifadəni pisləmişdik. Bu isə tam başqa məsələdir”. M.Conson əlavə edib ki, bəzi yurisdiksiya komitələri Bayden ailəsi arasında yanlış hərəkətlərə dair sübutlar tapmaq üçün əla iş görürlər. Amma Ağ Ev minlərlə səhifəlik sübutu gizlədir.

Bəs respublikaçıların impiçmentə nail olmaq şansları varmı? Mütəxəssislərin fikrincə, Respublikaçı çoxluğun uğur qazanma şansı azdır. Birincisi, araşdırmalardan sonra Co Baydenin hakimiyyətdən uzaqlaşdırılması prosedurunun həqiqətən başlanacağı məlum deyil. İkincisi, Co Baydenin son nəticədə vəzifəsindən uzaqlaşdırılıb-uzaqlaşdırılmayacağı məlum deyil. İmpiçment proseduruna başlamaq üçün Nümayəndələr Palatasında səs çoxluğu tələb olunur. Respublikaçıların indi orada bir az üstünlüyü var - parlamentin aşağı palatasında 435 deputatından 222-si “fillərə” məxsusdur. Bununla belə, Respublikaçı çoxluqda da məsələ ilə bağlı yekdil fikir yoxdur. Hətta bəzi nüfuzlu respublikaçı Co Baydeni hakimiyyətdən uzaqlaşdırmaq planlarını tənqid edib.

Lakin Nümayəndələr Palatası uğur qazansa belə, prezidentin impiçmenti barədə qərarı birbaşa Konqresin yuxarı palatası - Senat qəbul etməli olacaq. Orada Co Baydenin təmsilçisi olduğu Demokratlar Partiyası artıq cüzi çoxluğa malikdir. Ona görə də sonda prezidentin günahkar bilinərək vəzifəsindən azad edilməsi ssenarisi faktiki olaraq mümkün deyil. Çünki belə bir qərara senatorların üçdə ikisi səs verməlidir.

***S.ELAY***
***XQ***

# “AZƏRBAYCAN MELİORASİYA VƏ SU TƏSƏRRÜFATI” ASC-nin

## Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti

“ÇTZ” kanalının yenidən qurulmasının (I mərhələ) təkliflər sorğusu üsulu ilə satın alınması üçün

## TENDER ELAN EDİR

Satınalan təşkilatın adı- Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti

VÖEN- 1300300711

Kod - 805562

H/h - AZ 10 IBAZ 38070019449716100216,

Bank-“Azərbaycan Beynəlxalq Bankı”nın Yasamal filialı

M/h- AZ03NABZ01350100000000002944,

VÖEN -9900001881,

SWIFT : IBAZAZ2X (AZIPS-in üzvü)

Əlaqələndirici şəxs- Qulam Aslanov.

Satınalan təşkilatın ünvanı- Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69a.

Əlaqələndirici şəxsin ünvanı-E-mail: tomiobm@mst.gov.az

Əlaqə nömrəsi- (012) 431 08 64.

Satınalma predmetinin adı : “ÇTZ” kanalının yenidən qurulmasının(I mərhələ) tikintisi.

Ünvan- Zərdab rayonu.

İşlərin qısa təsviri: Zərdab rayonunda 10600 hektar əkin sahəsinin suvarılması üçün su mənbəyi Kür çayı olmaqla sugötürmə qabiliyyəti 6,0 m3/san olan suqəbuledici qurğunun, 4 aqreqatlı stasionar nasos stansiyasının tikintisi, tələb olunan suyun diametri 1020 x 10mm, hər birinin uzunluğu 208 pm olan 4 xətli metal boru kəməri, sərfi 6,00 m3/san, uzunluğu 19935 km olan yenidən qurulan “ÇTZ” kanalı, borulu keçidli suburaxan, kanal altından boru, səviyyəqaldıran, kanalın torpaq yolla kəsişməsində körpü, piyada keçidi, su ötürücü başlıq və ultrasonik suölçən qurğunun tikintisi nəzərdə tutulmuşdur.

İşlərin yerinə yetirilmə müddəti 12 aydır.

Tender təkliflərinin qiymətləndirilməsi meyarları 100 baldır.

İddiaçı ilə bağlanacaq satınalma müqaviləsinin yerinə yetirilməsi üçün avans ödənişi, tenderin əsas şərtlər toplusunun 35.1-ci maddəsinin tələbinə uyğun qiymətləndiriləcəkdir.

Satınalma müqaviləsinin icrasını təmin etmək üçün tender iştirakçıları lazımi kadr və maliyyə imkanları ilə yanaşı, aşağıdakı meyarlar üzrə ixtisas göstəricilərinə, təcrübəyə, səriştəyə və etibarlılığa malik olmalıdırlar:

• İddiaçının son 10 (on) ildə meliorasiya və su təsərrüfatı obyektlərinin tikintisi üzrə apardığı işlər tərkibində müxtəlif suburaxma qabiliyyətinə malik mağistral kanalın və onların üzərində tikilən müxtəlif növ hidrotexniki qurğuların bərpa və tikintisi üçün orta illik dövriyyəsi 2 (iki) milyon manatdan az olmamalıdır.

• İddiaçı son 10 (on) il ərzində meliorasiya və su təsərrüfatı obyektlərinin tikintisi üzrə apardığı işlər tərkibində əsas podratçı kimi suburaxma qabiliyyəti 2 m3/saniyədən az olmayan magistral kanalın və onlar üzərindəki müxtəlif növ hidrotexniki qurğuların bərpa və tikintisi təcrübəsinə malik olmalı və həmin işlərə aid ən azı bir obyekt üzrə işbitirməni təsdiq edən sənədləri təqdim etməlidir.

• Satınalma müqaviləsinin icrasına yönəltmək məqsədi ilə iddiaçının malik olduğu sərbəst maliyyə resurslarının və ya bankın zamin olduğu kreditin minimum məbləği 2,0 (iki milyon manat) manatdan az olmamalıdır.

İştirak haqqı 8000 (səkkiz min manat) manatdır.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tender təklifi təkliflərin açıldığı gündən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır.

Tender təklifi Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

2. Tender təklifi qiymətinin 1 faizi məbləğində tender təklifinin təminatı

(bank zəmanəti, tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox qüvvədə olmalıdır (bank tərəfindən təqdim edilməlidir).

3. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış.

(vergi xidməti tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalı, sənədin əslinin və ya notarial təsdiqlənmiş surətinin təqdim olunması zəruridir).

Sənədin təqdim olunma tarixi elan verilmiş aydan etibarən dekabr 2023-cü il tarixdə olmalıdır.

4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.

(son maliyyə dövrünə olan məlumatı əks etdirməsi və sənədin əslinin və ya notarial təsdiqlənmiş surətinin təqdim olunması zəruridir).

5. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.

(bank tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalı, sənədin əslinin və ya notarial təsdiqlənmiş surətinin təqdim edilməsi zəruridir).

6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə.

(kommersiya və hüquqi şəxslərin dövlət qeydiyyatı reyestrindən çıxarış iddiaçı tərəfindən təqdim edilməli, nizamnamənin, dövlət reyestrindən çıxarışın və şəhadətnamənin notarial qaydada təsdiqlənmiş surətinin təqdim edilməsi zəruridir).

7. Rekvizitlər. (iddiaçının və ya bankın imzası və möhürü ilə təsdiq edilməsi zəruridir).

8. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.

(DİN və ya Asan xidmət tərəfindən təqdim edilməli sənədin əslinin və ya notarial təsdiqlənmiş surətinin təqdim edilməsi zəruridir). Sənədin təqdim olunma tarixi elan verilmiş aydan etibarən dekabr 2023-cü il tarixdə olmalıdır.

9. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd.

(vergi xidməti tərəfindən təqdim edilməli, cari rübü əhatə etməli, sənədin əslinin və ya notarial təsdiqlənmiş surətinin təqdim edilməsi zəruridir). Sənədin təqdim olunma tarixi elan verilmiş aydan etibarən dekabr 2023-cü il tarixdə olmalıdır.

10. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin və etibarlılığının olması barədə sənəd.

(Müsabiqəyə sənədlər əsas şərtlər toplusunun BÖLMƏ №3 13.3.8-ci bəndinə və BÖLMƏ №7, qoşma №7-yə əsasən iddiaçı tərəfindən təqdim edilməlidir).

İddiaçının ixtisas göstəriciləri əsas şərtlər toplusunun 3-cü, əsas şərtlər toplusunun məlumat xəritəsi bölməsinin 13.3.8-ci bəndindəki tələblərə uyğun gəlməlidir. İxtisas göstəriciləri haqqında məlumat əsas şərtlər toplusunun 8-ci “Standart formalar” bölməsinin 7-ci, podratçının ixtisas göstəriciləri haqqında məlumat” qoşmasında göstərilmiş forma və qaydada təqdim olunmalıdır.

11. İddiaçının mikro, kiçik və orta sahibkarlıq subyektlərinin meyarlarına uyğun olması barədə sənəd.

(Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təqdim edilməli, sənədin əslininin və ya notarial təsdiqlənmiş surətinin təqdim olunması zəruridir); Sənədin qüvvədə olma müddəti “Tələb olunan sənədlərin son təqdim olunma tarixini əhatə etməlidir”.

12. İddiaçının müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması. (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilməli, sənədin əslinin və ya notarial təsdiqlənmiş surətinin təqdim edilməsi zəruridir).

13. Satınalma müqaviləsini bağlamaq səlahəyyətinin olması.

(imza səlahiyyəti olan şəxsin (əgər təsisçi direktor deyilsə) əmri, sənədin əslininin və ya notarial təsdiqlənmiş surətinin təqdim edilməsi zəruridir).

İddiaçılar təkliflər sorğusu ilə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Təkliflər sorğusu proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, möhürlənib imzalanmış ayrı-ayrı ikiqat zərflərdə 21 dekabr 2023-cü il saat 16.00-dək Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti-69a nömrəli ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 22 dekabr 2023-cü il saat 10.00-da açılcaqdır.

***Tender komissiyası***

# Moda axtarışlarına yeni baxış




**Geyim dəbləri yerində dayanmayıb zamanla dəyişir, inkişaf edir. Hər il, hər fəsil könül oxşayan, göz qamaşdıran yeni dizaynlar, parlaq məhsullar, brendlər meydana çıxır. Bütün bunlarla tam ayaqlaşmaq mümkün olmasa da, xəbərdar olmaq, dəyər verə bilmək lazımdır.**

Bu baxımdan Bakıdakı “The Ritz-Carlton” otelində Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə Yaradıcılıq Həftəsi çərçivəsində keçirilən Azərbaycan Moda Həftəsi bayrama çevrildi. 15-ci yubiley mövsümünə həsr olunan tədbirdə Qazaxıstan nümayəndələri, beynəlxalq modelyerlər qrupu və Azərbaycan dizaynerləri iştirak edirdilər.

Həftənin özəlliyi onda idi ki, təkcə klassik formatlara deyil, həm də innovativ təkliflərə müraciət edən iştirakçılar öz müəllif yanaşmalarını və moda trendlərinə baxışlarını da ortaya qoya bildilər. Gənc modellərin ənənəvi moda nümayişi gələcək perspektivlər və yeni hədəflər baxımından böyük marağa səbəb oldu.

**Modelyer Mənzər Zəkizadə “XQ”yə açıqlamasında 2015-ci ildən təşkil olunan moda həftəsində hər il iştirak etdiyini bildirdi:**

– Bu layihədə konstruktor kimi hər dəfə fərqli dizaynerlərlə iştirak edirəm. Beş ildən artıqdır ki, tədbirə məktəbim və tələbələrimlə qatılıram. Hər mövsümdə tələbələrin öz ideyalarına uyğun dizayn edib ülgüsünü sərbəst şəkildə xırdalıqlarına qədər hazırlayırlar. Moda məktəbi kimi fəaliyyətimizdə məqsəd gənclərimizin bu sahəyə olan marağını düzgün istiqamətləndirmək, onların bilik və bacarıqlarını daha da zənginləşdirməkdir. Eyni zamanda, istedadlı gənclərin öz işlərinin peşəkarı kimi yetişmələri üçün tədbirlər görürük. Tələbələrimiz kursu bitirdikdən sonra onların öz maraqlarına uyğun işlə təmin olunmasına da kömək göstəririk. Fəxr edirik ki, Azərbycanda bu sahədə öz sözünü deyən tanınmış atelye və moda evlərini yönəldənlərin 80 faizi bizim tələbələrimizdir.

**Tədbirin layihə rəhbərlərindən biri Nicat Baxşəliyev isə moda həftəsinin əsas məramının milli brendlərimizi xaricdə tanıtmaq olduğunu söylədi:**

– Milli moda həftəsi layihəsi 2015-ci ildən ildə iki dəfə kecirilir. Bu, məhz dəb sahəsində çalışan dizaynerləri, alıcıları, yerli və xarici media nümayəndələrini, həmçinin marağı olan hər kəsi əməkdaşlıq üçün bir araya gətirən platformadır. Həftə çərçivəsində Azərbaycanla yanaşı, xarici ölkələrdən gələn dizaynerlərin kolleksiyaları da nümayiş etdirildi. Tədbirə Qazaxıstan, Rusiya, Özbəkistan, Qırğızıstan və Gürcüstan dizaynerləri qatılıblar.

Nicat Baxşəliyev həftənin mühüm moda hadisələrindən biri olaraq ölkədə pərakəndə fəaliyyət göstərən və özlərini tanıtmağa çalışan modelyer-dizaynerləri bir araya gətirəcəyinə və bu sahənin inkişafına töhfə verəcəyinə əmin olduğunu vurğuladı.

***L.QURBANOVA***
***XQ***

## “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti

Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə əlaqədar korporativ hədiyyələrin alınması məqsədilə satın alma

## MÜSABİQƏSİ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 14 dekabr 2023-cü il saat 17.00-dəkdir.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- +994 12 599 00 03 (daxili 3704).

Ünvan- AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 267 (30383) 7 dekabr 2023-cü il, cümə axşamı


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


Hadisə

# “Göyərçin qatili” sürücü

***Yaponiyanın paytaxtı Tokioda göyərçini qəsdən vuraraq öldürən şəxs həbs edilib. Bu barədə yerli NHK telekanalı məlumat yayıb.***



Xəbərdə deyilir ki, Ozava Atsusi adlı taksi sürücüsü işıqforun yaşıl işığında avtomobilini göyərçinlərin olduğu yerə sürüb. Saatda, təxminən, 60 kilometr hərəkət edən avtomobil göyərçinlərdən birini vuraraq öldürüb, sürücü isə hadisə yerini tərk edib.

Bu hadisə ilə bağlı aparılan istintaq müəyyən edib ki, peşəkar sürücü avtomobilin sürət həddini qəsdən artıraraq maşını qərəzlə göyərçinlərə tərəf sürüb.

Sürücü göyərçini qəsdən öldürmək və vəhşi təbiət qanununu pozmaq ittihamı ilə həbs edilib.

*XQ*

İdman xəbərləri

# Sprintsiz “Formula 1”

**2024-cü ildə keçiriləcək “Formula 1” üzrə Azərbaycan Qran-prisində sprint yarışı keçirilməyəcək.**



Beynəlxalq Avtomobil Federasiyasının (FIA) turnirlə bağlı açıqladığı təqvimə əsasən, sprint yarışları Çin, Mayami, Avstriya, ABŞ, Braziliya və Qətər Qran-prilərində təşkil olunacaq.

Qeyd edək ki, Azərbaycan Qran-prisi sentyabrın 13–15-də keçiriləcək.

# UEFA AFFA-nı cərimələdi

**UEFA Azərbaycanın əsas millisinə görə AFFA-nı cərimələyib.**



Buna səbəb komandamızın 5 üzvünün evdə Avstriyaya qarşı keçirdiyi AVRO-2024-ün seçmə mərhələdəki oyunda aldığı sarı vərəqə olub. Bunun üçün də UEFA-ya 6 min avro ödənməlidir.

Xatırladaq ki, Azərbaycan–Avstriya görüşü rəqib komandanın 1:0 hesablı qələbəsi ilə başa çatıb. Həmin matçda millimizin üzvlərindən Coşqun Diniyev, Anton Krivotsyuk, Toral Bayramov, Şahrudin Məhəmmədəliyev və Ramil Şeydayev sarı vərəqə ilə cəzalandırılıb.

# IX “Vüqar Həşimov Memorialı”

**Sayca 9-cu dəfə keçiriləcək şahmat üzrə “Vüqar Həşimov Memorialı”nın loqosu Bakının mərkəzində, paytaxtın ən hündür və əzəmətli binalarından birində – “Alov qüllələri”ndə əks olunur.**



Turnirin loqosunu paytaxt sakinləri axşam saatlarında dekabrın 12-dək izləyə biləcəklər.

Qeyd edək ki, bu il yarış ilk dəfə Qəbələdə baş tutacaq. Turnirin açılış mərasimi dekabrın 8-də Heydər Əliyev Konqres Mərkəzində keçiriləcək.

***Leyla SABİRQIZI***
***XQ***

Texnologiya yenilikləri

# Günəş işığı su yığır

## *Çinli alimlər bunun yolunu tapıblar*

**Alimlər hiqroskopik gel və duzlardan istifadə edərək quraq icmaları su ilə təmin etməyi hədəfləyən texnologiya yaradıblar.**



Hazırda 2,2 milyarddan çox insan su çatışmazlığı olan ölkələrdə yaşayır və BMT-nin hesablamalarına görə, hər il 3,5 milyon insan kəskin su çatışmazlığı ilə bağlı xəstəliklərdən həlak olur. İçməli suya ən çox ehtiyacı olan ərazilər də dünyanın ən günəşli yerlərində yerləşdiyinə görə təmiz su əldə etmək üçün günəş işığından istifadə etməyə böyük maraq var idi.

Məhz buna görə də, Çinin Şanxay Jiao Tonq Universitetinin tədqiqatçıları günəş enerjisi ilə işləyən suyun yığılması texnologiyasını hazırlayıblar. Çinli alimlər böyük miqdarda suyu udmaq və saxlamaq qabiliyyətinə malik olan “super hiqroskopik gel” ixtira ediblər.

Qeyd edək ki, bir kiloqram quru gel quraq atmosfer mühitində 1,18 litr, rütubətli mühitdə isə 6,4 litrə qədər su yaratmaq qabiliyyətinə malikdir.

***Ayan SƏMƏDQIZI,***
***tələbə-jurnalist***

Ekologiya

# Zaqatalada dekabr alçası



**Zaqatala rayonunun Qımır kəndində alça ağacları bu il ikinci dəfə bar verib. Bu barədə yerli mətbuata kənd sakinləri məlumat veriblər.**

Sakinlərin sözlərinə görə, havaların isti keçməsilə əlaqədar bir ay əvvəl alça ağacı ikinci dəfə çiçək açıb və indi məhsul verib. Alçanın dad keyfiyyətlərində də ciddi fərq yoxdur.

Qeyd edək ki, bir neçə gün əvvəl mətbuatda Zaqatalada qoz ağaclarının da ikinci dəfə bar verməsilə bağlı xəbər yayılmışdı. Kənd ağsaqqalları bunun az-az hallarda baş verdiyini bildiriblər.

***XQ***

Xalçaçılıq

**Azərbaycan Milli Xalça Muzeyində “Qərbi Azərbaycan xalçaları: tarixi naxış yaddaşımız” sərgisi açılıb. Sərgidə Qərbi Azərbaycanın Göyçə, Zəngəzur, Ağbaba, Pəmbək və Loru mahallarına aid müxtəlif sənətkarlar tərəfindən toxunan 21 məşhur kompozisiyalı xalça və xalça məmulatı nümayiş olunur.**

# “Didərgin” xalçalar – itən yurdun möhürü



Bunlar doğma yurdlarından didərgin salınmış soydaşlarımızın özləri ilə gətirdikləri, əziz, müqəddəs əşya kimi qoruduqları “Qasımuşağı”, “Ləmpə”, “Muğan”, “Qubadlı”, “Gəncə” və s. xalçalardır.

Sərgidə Əməkdar rəssam Tarıyel Başirovun eskizi əsasında muzeyin əməkdaşları tərəfindən toxunan “Tarixin salnaməsi” xalçasının hazırlanmasında 100-ə yaxın rəng çalarında yun və ipək saplardan istifadə olunub.

Muzeydə ümumilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Milli sərvətimiz” adlı sənədli film də nümayiş etdirilir. Filmdə Lətif Kərimov, Kamil Əliyev kimi görkəmli xalçaçı-rəssamlar haqqında kadrlar, həmçinin 1983-cü ildə Bakıda keçirilmiş Şərq Xalça Sənəti üzrə I Beynəlxalq Simpoziumundan görüntülər yer alır.

Xatırladaq ki, sərgi Mədəniyyət Nazirliyi, Milli Xalça Muzeyi və Qərbi Azərbaycan İcmasının birgə dəstəyi ilə ərsəyə gəlib.

***Fidan SALMANOVA***
***XQ***

Sağlamlıq

# Xərçənglə cəng qaydaları

**Böyük Britaniya alimləri elmi araşdırmalarla xərçəngdən xilas yollarını açıqlayıblar. Bildiriblər ki, çox sadə hərəkətlər var ki, onlara əməl etməklə 14 növ şiş xəstəliyindən qorunmaq olar. Bu 7 tövsiyəyə əməl etdikdə, onkoloji xəstəliklərə yoluxma ehtimalı kifayət qədər aşağı enir.**



1. İlk növbədə, tütün, içki, şirin qazlı içkilər, fastfuddan imtina, çəkiyə nəzarət, fiziki aktivlik, idman, gündə minimum 30 qram lif qəbul etmək lazımdır.
2. Qida əlavələrindən imtina vacibdir.
3. Qadınlara az abort etdirmək, maksimum süd verməkəmizdirmək tövsiyə olunur.

Onlar 94 min nəfər könüllü üzərində tədqiqat aparıblar. Hər zərərli vərdişdən imtina və müsbət vərdiş 1 balla qiymətləndirilib. Hər sonrakı bal süd vəzi və bağırsaq xərçəngini 10 faiz, böyrək xərçəngini 18 faiz, qida borusu, mədə şişini 16 faiz azaldır.

Sidney Universitetinin alimləri 5 dəqiqə fasiləsiz energetik fiziki aktivliyin 14 növ xərçəng riskini 32 faiz azaltdığını sübut edib. Bu aktivliyə ev yığışdırmaq, qab yumaq, yemək hazırlamaq, pilləkən çıxıb-düşmək də daxildir.

***Z.HÜSEYNLİ***
***XQ***

Hava

# Gün yağmurlu keçəcək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən dekabrın 7-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.**

Yarımadanın bəzi yerlərində intensivləşəcəyi ehtimalı var. Şimal-şərq küləyi əsəcək, gündüz mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 6-10°, gündüz 11-13° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 766 mm civə sütununa yüksələcək, nisbi rütubət 80-90 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gündüz qərb rayonlarında yağıntıda fasilə olacaq. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mulayim şərq küləyi əsəcək.



Havanın temperaturu gecə 3-8°, gündüz 11-16° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-8° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4732
SİFARİŞ 3212
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00